Xalqın qəzeti!
# Xalq qəzeti
№ 006 (30410) 13 yanvar 2024-cü il, şənbə
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti
xalqqazeti.az

# “Zəngəzur dəhlizi” – Naxçıvana yol!

## Prezident İlham Əliyev Ermənistanla sülh gündəliyində hansı məqamları əsas tutdu?

**Bu məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi mühüm məsələlərdən ikisi üzərində dayanacağıq. İlk növbədə, diqqətə çatdıraq ki, hər iki məsələ Ermənistan hakimiyyəti, xüsusən baş nazir Nikol Paşinyan tərəfindən Azərbaycanla sülh müqaviləsi kontekstində qaldırılmışdır. Bunlardan birincisi sərhədlərin müəyyənləşməsində keçmiş SSRİ Müdafiə Nazirliyinin Baş Qərargahının 1970-ci ildən sonrakı xəritələridir. İkinci məsələ isə “Dünya kəsişməsi”, yaxud “Sülhün kəsişməsi” adlandırılan layihədir.**



Hesab edirik ki, vurğuladığımız və Prezident İlham Əliyevin də üzərində geniş dayandığı bu məsələlər Bakı–İrəvan sülh gündəliyindəki ziddiyyətlərin vacib halqasını təşkil etməkdədir. Əlbəttə, mövcud xüsusda dövlətimizin başçısının diqqəti yönəltdiyi daha bir vacib nüans Azərbaycanın hələ də erməni işğalı altında olan səkkiz kəndi ilə bağlı məsələdir. Elə sonuncudan başlayaq.

***

Bəli, hazırda Naxçıvanın Kərki kəndi, həmçinin Qazaxın yeddi kəndi Ermənistanın işğalı altındadır. Prezident İlham Əliyev müsahibəsində mövzunun daim gündəlikdə olduğunu vurğuladı. Dövlətimizin başçısı onu da bildirdi ki, baş nazir Nikol Paşinyanla təmasları əsnasında bunu müzakirə ediblər. “...O cümlədən, Sankt-Peterburqda ayaqüstü son söhbət zamanı mən bu məsələni qaldırmışdım və eyni zamanda, delimitasiya ilə bağlı komissiyaların gündəliyində də bu məsələ dayanır”.

*(ardı 3-cü səhifədə)*

## Neft-qaz Azərbaycanın həm sərvəti, həm də şöhrətidir



**“Əsrin müqaviləsi”nin imzalanmasından ötən müddətdə ölkə iqtisadiyyatının, xüsusən sənayenin, o cümlədən, neft sektorunun şaxələndirilməsi, beynəlxalq standartlara uyğun yenidən qurulması, innovativ texnologiyalarla təchiz olunması, yeni idarəçilik metodlarının mənimsənilməsi üçün geniş imkanlar yaranıb. Xarici neft şirkətləri ilə birlikdə axtarış-kəşfiyyat, qazma, tikinti və hasilat üzrə böyük iş həcmi görülüb və uğurlu nəticələr alınıb.**

Həyata keçirilən layihələrin uğurlu nəticələri 2023-cü ilin göstəricilərində də öz aydın ifadəsini tapıb. Energetika Naziriyinin məlumatına əsasən, hesabat dövründə respublikada 48,3 milyard kubmetr təbii qaz hasil edilib. “Mavi yanacağ”ın 12,9 milyard kubmetri “Azəri–Çıraq–Günəşli”, 26,2 milyard kubmetri “Şahdəniz”, 0,8 milyard kubmetri “Abşeron”, 8,4 milyard kubmetri SOCAR üzrə hasil olunub. Ümumi qaz hasilatında 2022-ci ilə nisbətən 3,2 faiz, yəni 1,5 milyard kubmetr artım qeydə alınıb.

Hesabat dövründə xaricə qaz satışı 23,8 milyard kubmetrə (2022-ci illə müqayisədə 5,3 faiz çox) yüksəlib. Avropaya 11,8 milyard kubmetr, Türkiyəyə 9,5 milyard kubmetr, Gürcüstana isə 2,5 milyard kubmetr qaz satılıb. Türkiyəyə TANAP-la bu müddətdə 5,6 milyard kubmetr qaz nəql olunub.

*(ardı 8-ci səhifədə)*

## Kimdir haqlı: O`Brayen, yoxsa Patel?

### Düşünmək növbəsi ABŞ-a çatıb



**Sərlövhədəki sual ritorikdir. Yəni, ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O`Brayenlə Birləşmiş Ştatların Dövlət Departamentinin mətbuat katibinin müavini Vedant Pateli müqaisəyə gətirmək fikrindən uzağıq. Buna heç ehtiyac da yoxdur. Ancaq yazının sonunda hər iki şəxsin açıqlaması fonunda Birləşmiş Ştatların Cənubi Qafqaza, Azərbaycana, xüsusən də Bakı–İrəvan sülh gündəliyinə yanaşmasında nələri, hansı məqamları nəzərə almasının vacibliyinə aydınlıq gətirməyə çalışacağıq.**

Bəli, Prezident İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsinin istər ölkəmizdə, istərsə də Ermənistanda doğurduğu reaksiyalar müstəvisində ABŞ-dan Azərbaycan–Ermənistan sülh gündəliyi ilə bağlı mesajların gəlməsi, istər-istəməz, maraq doğurmaqdadır.

*(ardı 4-cü səhifədə)*




## “Cəza bombardmanı” Yaxın Şərqə savaş şöləsi saçır

**Yaxın Şərqdə daha bir münaqişə alovlanmaqdadır. İsrailin Qəzzaya 3 aydan artıq davam edən aramsız yerüstü və hava hücumları başa çatmamış, yanvarın 11-dən 12-nə keçən gecə ABŞ və Böyük Britaniyanın hərbi qüvvələri Yəməndəki üsyankar “Ənsar Allah” husi hərəkatının obyektlərinə güclü zərbələr endiriblər. Hər iki Qərb hökumətinin nümayəndələri bəyan ediblər ki, hədəf husilərin raket, pilotsuz uçuş aparatları və radilokasiya məntəqələri olub. Hava zərbələrindən zərər çəkənlər haqqında hələki dəqiq məlumat verilmir.**

Xatırlayırsınızsa, ötən sayımızda dərc etdiyimiz Böyük Britaniyalı politoloq Aris Russinosun “UnHerd” nəşrində çap edilmiş “Dünya 2024-cü ildən qorxmalıdır?” məqaləsində yazırdı:

*(ardı 11-ci səhifədə)*

## BBC Ruben Vardanyanın “xeyriyyəçi” obrazını alt-üst etdi

**Qlobal fırıldaqçı Ruben Vardanyan yenə gündəmə gəlib. Bu dəfə “xeyriyyəçi” dələduzu nüfuzlu BBC xatırlayıb. Britaniya Yayım Korporasiyası yayımladığı geniş araşdırma materialında Ruben Vardanyan obrazını ifşa edib, onu, sözün əsl mənasında, yerdən yerə çırpıb. “Konformist milyarderdən əlverişsiz siyasətçiyə qədər. Ruben Vardanyan necə Azərbaycanda həbsxanaya düşdü?” başlıqlı materialda BBC oxucularının diqqətinə çatdırıb ki, R.Vardanyanın “xeyriyyəçi” və “uzaqgörən” obrazının arxasında hiyləgər bir adam gizlənir. Nəhayət, Qərb mətbuatı da Azərbaycanın R.Vardanyan barədə uzun müddətdir ki, geniş ictimaiyyətin diqqətinə çatdırdığı təkzibolunmaz faktları qəbul etdi.**

*(ardı 4-cü səhifədə)*



# Daxili İşlər Nazirliyində əməliyyat müşavirəsi



**Yanvarın 12-də Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə nazirliyin Daxili Qoşunlarının 2023-cü ildəki xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.**

General-polkovnik Vilayət Eyvazov Daxili Qoşunların ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində, eləcə də ötən il sentyabrın 19-da lokal xarakterli antiterror tədbirləri zamanı da göstərdiyi şücaəti, respublikamızın hər yerində, o cümlədən, işğaldan azad edilmiş şəhər və rayonlarda hərbi qulluqçuların polis əməkdaşları ilə birlikdə ictimai asayişin, təhlükəsizliyin qorunmasında göstərdiyi xidmətlərini Prezidentin yüksək qiymətləndirdiyini məmnunluqla qeyd edib.

Sonra daxili işlər nazirinin müavini – Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov xidməti döyüş fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Müşavirəyə yekun vuran nazir V.Eyvazov Qoşunların qarşısında duran vəzifələri qeyd edib, tapşırıq və tövsiyələrini verib. Eyni zamanda, əmin olduğunu bildirib ki, şəxsi heyət onlara göstərilən diqqət və qayğıya sabitliyin, əmin-amanlığın etibarlı qorunması, cinayətkarlıqla qətiyyətli mübarizə, eləcə də işğaldan azad edilmiş ərazilərdə nümunəvi xidmətləri ilə cavab verəcək, qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək.

**XQ**

# Culfa sakinləri ilə görüş

**Dünən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Culfa rayonunda sakinlərlə görüşüb.**



Fuad Nəcəfli bildirib ki, ötən ilin əvvəllərindən başlayaraq keçirilən vətəndaş qəbullarının nəticəsi olaraq sakinləri narahat edən problemlər araşdırılıb. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı” bu problemlərin həllinə geniş imkanlar açıb. Ötən ili uğurla başa vuran Naxçıvanda, eləcə də Culfa rayonunda sözügedən dövlət proqramı əsasında bu ildən mühüm layihələr icra olunacaq. Səlahiyyətli nümayəndə qarşıdan gələn prezident seçkilərində fəal iştiraka dəvət edib, rayon sakinlərinə uğurlar arzulayıb.

Sonra görüşdə iştirak edən Culfa rayon sakinləri ilə fərdi söhbətlər aparılıb, onların problemləri və təklifləri dinlənilib. Müraciətlərin hər birinin həlli istiqamətində qanunvericiliyin tələblərinə uyğun tədbirlərin görüləcəyi qeyd olunub.

**XQ**

# Ağcabədidə vətəndaşların qəbulu



**Ədliyyə naziri Fikrət Məmmədov yanvarın 12-də Ağcabədi rayonunda Ağcabədi, Ağdam, Laçın və digər rayonlardan olan vətəndaşlarla görüşüb.**

Görüş zamanı hər bir vətəndaş diqqətlə dinlənilərək onların ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərinə baxılıb. Bu zaman müharibə veteranlarının və şəhid ailələrinin qayğılarına xüsusi həssaslıqla yanaşılıb, qaldırılan məsələlərə dair aidiyyəti tapşırıqlar verilib.

Bölgə sakinləri həsrətində olduqları öz doğma torpaqlarına qayıtmaq arzusunu reallaşdırdığına, onların qayğılarına hər zaman diqqət və həssaslıqla yanaşılmasına görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını ifadə edib, yerlərdə səyyar qəbulların keçirilməsini məmnunluqla qarşılayıblar.

Səfər zamanı ədliyyə naziri yerli ədliyyə orqanlarına və məhkəməyə baş çəkərək iş şəraiti ilə tanış olub, fəaliyyətin səmərəli təşkili ilə bağlı tapşırıq və tövsiyələrini verib.

**XQ**

# Komando bölmələrinin peşəkarlıq məşğələsi

**Bu ilin hazırlıq planına əsasən, Əməliyyat (Komando) bölmələrinin peşəkarlığının artırılması üzrə taktiki-xüsusi məşğələlər davam etdirilir.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, məşğələlərin növbəti günündə tapşırıqları dəqiqləşdirən komandolar çətin relyefli ərazilərdə taktiki yerdəyişmə fəaliyyətləri icra ediblər. Şərti düşmən müdafiəsinin yarılması və dayaq məntəqəsinin ələ keçirilməsi üzrə tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

Hərbi qulluqçuların praktiki vərdişlərinin daha da təkmilləşdirilməsi məqsədilə keçirilən taktiki-xüsusi məşğələlərdə komandolar tapşırıqların icrası zamanı yüksək peşəkarlıq nümayiş etdiriblər.

**XQ**





# Azərbaycan – Bolqarıstan: əməkdaşlığın perspektivləri müzakirə olunub

**Xarici İşlər naziri Ceyhun Bayramov ilə Bolqarıstan Respublikasının Baş nazirinin müavini və Xarici İşlər naziri Mariya Qabriel arasında telefon danışığı olub.**




Telefon danışığı zamanı Azərbaycanla Bolqarıstan arasında siyasi, iqtisadi, enerji, nəqliyyat və humanitar sahələr üzrə ikitərəfli münasibətlərin, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri müzakirə edilib, əməkdaşlıq səviyyəsindən məmnunluq ifadə olunub.

Ötən il həyata keçirilmiş yüksək səviyyəli səfərlərin, dekabr ayında xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin ikitərəfli münasibətlərə müsbət töhfə verdiyi vurğulanıb. Energetika sahəsində səmərəli əməkdaşlığın, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunması, habelə enerji təchizatının şaxələndirilməsində rolu və əhəmiyyəti qeyd olunub.

**XQ**

# 37 ölkədə 49 seçki məntəqəsi



**Növbədənkənar Prezident seçkilərində ölkə hüdudlarından kənarda yaşayan və ya uzunmüddətli xarici ezamiyyətlərdə olan vətəndaşlarımızın seçki hüququnun təmin edilməsi məqsədilə Xarici İşlər Nazirliyi tərəfindən müvafiq tədbirlər görülməkdədir. Bu barədə XİN-in Mətbuat Xidməti İdarəsindən məlumat verilib.**

Bildirilib ki, diplomatik nümayəndəlik və konsulluqlarımız tərəfindən ölkə hüdudlarından kənarda yaşayan və ya uzunmüddətli xarici ezamiyyətlərdə olan 18 yaşına çatmış vətəndaşlarımızdan ibarət seçici siyahıları hazırlanaraq Mərkəzi Seçki Komissiyasına təqdim olunub.

Qeyd edilib ki, Seçki Məcəlləsinə əsasən konsul qeydiyyatına durmuş seçicilərin sayı 50-dən artıq olan diplomatik nümayəndəlik və konsulluqlarda səsvermə həyata keçiriləcək.

MSK-ya təqdim edilmiş məlumatlar əsasında seçkilərin ölkə hüdudlarından kənarda təşkili məqsədilə ümumilikdə 37 ölkədə 49 seçki məntəqəsi yaradılıb.

Ölkələrin yerli saat qurşaqlarına uyğun olaraq saat 08:00-dan – 19:00-dək seçki məntəqələri yaradılmış diplomatik missiyalarında keçiriləcək növbədənkənar Prezident seçkiləri ölkəmizin Çin Xalq Respublikasındakı səfirliyində başlayaraq, ABŞ-ın Los-Anceles şəhərindəki Baş konsulluğunda tamamlanacaq.

**XQ**

# Dini konfessiya rəhbərlərinin ABŞ Dövlət Departamentinə etirazı

**Qafqaz Müsəlmanları İdarəsindən XQ-yə verilən məlumatda bildirilir ki, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri ABŞ dövlət departamentinə müraciət ünvanlayıblar. Sənəddə deyilir:**

ADKMŞ-CCRCA
AZƏRBAYCAN DİNİ KONFESSİYALARININ MƏŞVƏRƏT ŞURASI

“Biz – Azərbaycanda fəaliyyət göstərən dini konfessiya rəhbərləri Məşvərət Şurasının üzvləri ABŞ-ın Beynəlxalq Din Azadlığı Komissiyasının (USCIRF) hesabatına istinadən Dövlət Departamentinin ölkəmizi 2023-cü ildə dini etiqad azadlığı üzrə “xüsusi izləmə siyahısı”na salmaq barədə qərarını qətiyyətlə pisləyir, bunu birmənalı şəkildə subyektiv və qərəzli yanaşma hesab edirik. Revanşist erməni dairələrinin haqsız, yalan və iftira dolu iddialarından qaynaqlanan belə qərəzli hesabatlarla qarşılaşmağımızı ədalətsizlik kimi dəyərləndiririk”.

Müraciətdə daha sonra təəssüflə qeyd edilir ki, Azərbaycana qarşı ABŞ Konqresinin qərarı ilə 907-ci maddənin yenidən tətbiqinin ardınca dini etiqad sahəsinə dair qərəzli hesabat və siyahı gündəmə gəlmişdir: “2022-ci ilin analoji hesabatında Azərbaycana dair müsbət tendensiyalar etiraf edildiyi halda, 2023-cü ildə ölkəmizin hansısa şübhəli izləmə siyahısına salınması nədən vacib sayıldı? Biz birmənalı şəkildə bəyan edirik ki, Azərbaycanın dini-mənəvi həyatında, dövlət–din münasibətləri müstəvisində heç bir problem mövcud deyil”.

Sənəddə o da xatırladılır ki, ABŞ-ın Beynəlxalq Din Azadlığı Komissiyası 2022-ci il hesabatında Ermənistan tərəfindən vaxtilə işğal altında olmuş ərazilərdə 403 tarixi və dini abidənin olmasını və 67 məsciddən 63-nün tamamilə dağıdılması, dördünün isə qismən dağıdılmasını və yararsız hala düşdüyünü təsdiq etmişdir. Təəccüblüdür ki, bu vandalizm hallarını törətmiş və 30 il ərzində əzəli Azərbaycan torpaqlarını işğal altında saxlamış Ermənistana qarşı Dövlət Departamenti tərəfindən hər hansı qınaq ifadə olunmamış, onu öz “qara siyahısı”na daxil etməmişdir.

Müraciət Dini konfessiya rəhbərlərinin qeyd edilən etirazı belə yekunlaşır: “ABŞ Dövlət Departamentinin Azərbaycanı 2024-cü ildə dini etiqad azadlığı pozulmuş ölkələr qismində xüsusi izləmə siyahısına salmaq barədə qərarını birmənalı şəkildə rədd edirik”.

**XQ**

# Fazil Mustafaya qəsd edənlərin məhkəməsi

**Milli Məclisin deputatı Fazil Mustafaya sui-qəsddə təqsirləndirilən Emin Əliyarov, Rəşad Əhmədov, Azər Səricanov, Elşad Əsgərov, Səbuhi Şirinovun cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib.**



Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Elnur Nuriyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib.

Daha sonra prokuror Orxan Kəngərli prosesin məhkəmə baxışına verilməsini təklif edib. Müşavirədən qayıdan məhkəmə heyəti prosesin baxışa verildiyini açıqlayıb.

Məhkəmənin ilk baxış iclası yanvarın 22-nə təyin edilib.

Qeyd edək ki, ötən il martın 28-də F.Mustafaya qarşı yaşadığı evin qarşısında “Kalaşnikov” avtomat silahından atəş açılaraq terror aktı törədilib.

Faktla bağlı Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində Cinayət Məcəlləsinin 277-ci (dövlət xadiminin və ya ictimai xadimin xidməti və ya siyasi fəaliyyətinə son qoymaq və ya bu fəaliyyətə görə qisas almaq məqsədilə onun həyatına sui-qəsd etmə) və 228.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı əldə etmə, saxlama, daşıma və gəzdirmə) maddələri ilə cinayət işi başlanılıb.

**XQ**

# "Zəngəzur dəhlizi" – Naxçıvana yol!



(əvvəli 1-ci səhifədə)

Əlbəttə, istər Qazaxın yeddi kəndi, istərsə də Naxçıvanın Kərki kəndi ilə bağlı durum, həm də, Azərbaycan–Ermənistan sərhədlərinin delimitasiyası və demarkasiyası kontekstindəki məsələdir. Onu da nəzərə alaq ki, dövlətimizin başçısı delimitasiya və demarkasiyası prosesinin sülh müqaviləsindən sonra da gerçəkləşə biləcəyindən söz açsa da, sözügedən kəndlərin geri qaytarılmasının vacibliyi ilə bağlı qətiyyətli mövqe ortaya qoydu. "Ancaq bizim indi Ermənistan tərəfindən mübahisə edilən yerləşməyimiz heç bir yaşayış məntəqəsini əhatə etmir. Bizim durduğumuz mövqelərdə, təpələrdə heç vaxt yaşayış olmayıb. Ermənistan isə bu gün bizim kəndlərimizi işğal etməkdə davam edir və bu, dözülməzdir. Yenə də qeyd etmək istəyirəm və hesab edirəm ki, komissiyaların bu ayın sonunda görüşü əsnasında bu məsələyə aydınlıq gətiriləcək", – deyən cənab İlham Əliyev bəyan etdi ki, anklav olmayan dörd kənd Azərbaycana qeyd-şərtsiz qaytarılmalıdır: "...O kəndlər ki, anklav kəndlərdir, – çünki Ermənistanın bir anklav kəndi Azərbaycan ərazisindədir, – həmin kəndlərlə əlaqədar ayrıca bir ekspert qrupu yaradılmalıdır və o, müzakirə edilməlidir. Biz hesab edirik ki, bütün anklavlar qaytarılmalıdır. Bu anklavlara gedən yollarda şərait olmalıdır və bu anklavlara orada yaşayan insanlar yerləşdirilməlidir. Yəni, bizim mövqeyimiz bundan ibarətdir".

***

Bəs, sərhədlərin delimitasiya və demarkasiyası ilə əlaqədar hansı xarakterik cəhətlər var? Məlum olduğu kimi, Ermənistan hakimiyyəti sülh prosesi baxımından 1991-ci ilin Alma-Ata Bəyannaməsi üzərində dayanmaqdadır. Bu sənəd keçmiş Sovet İttifaqı respublikalarının bir-birinin ərazi bütövlüklərini tanımalarını rəhbər tutur. Azərbaycan da, Ermənistan da bəyannaməyə imza atıblar. Maraqlı nüans ondadır ki, sənəddə ərazi bütövlüyü anlayışı ümumi götürülüb. Yəni, orada konkret şəkildə göstərilməyib ki, Azərbaycanın ərazisi 86,6 min kvadratkilometdir, Ermənistanınkı isə 29,8 min kvadratkilometr. Halbuki, baş nazir N.Paşinyan və digər erməni rəsmiləri məhz bu rəqəmlər üzərində dayanmaqdadırlar. Dayanmaqdadırlar və sərhədlərin delimitasiyası və demarkasiyasının haqqında əvvəl söz açdığımız xəritələr əsasında gerçəkləşməsinin vacibliyini əsaslandırmaqdadırlar.

Nəyə görə məhz həmin dövrün xəritələri əsas götürülür? Sualı Prezident İlham Əliyev də verir, eyni zamanda, öz mövqeyini ortaya qoyur. "Nə üçün 1975-ci ilin, yaxud da ki, indi 1970-ci ilin, hətta bəzi təkliflərdə 1970-ci, 1990-cı illərin xəritələri, cavab çox sadədir və mən bu gün bu barədə açıq danışmaq istəyirəm", – deyən ölkəmizin lideri vurğulayır ki, Azərbaycan torpaqlarının Ermənistana peşkəş edilməsi mərhələlərlə davam edib. İlk mərhələdə 1918-ci ildə qədim şəhərimiz İrəvan paytaxt kimi Ermənistana verilib. Bunu "cinayət" adlandıran dövlətimizin başçısı Ermənistanın Azərbaycana qarşı ərazi iddialarından əl çəkmədiyini, daha da azğınlaşdığını, 1920-ci ilin sovetləşməsindən sonra Qərbi Zəngəzurun böyük hissəsinin Azərbaycandan qoparıldığını, həmin ərazinin XX əsrin əvvəlinin xəritələrində əksini tapdığını, belə torpaq hədiyyələrinin illər keçdikcə davam etdiyini, sonuncu xoşagəlməz halın isə 1969-cu ilin mayında qeydə alındığını diqqətə çatdırır. Ölkəmizin lideri bildirir ki, o vaxta qədər torpaqlarımızın hissə-hissə Ermənistana verilməsi sayəsində ərazimiz "100 min kvadratkilometrdən – mən Azərbaycan Xalq Cümhuriyyətinin ərazisini nəzərdə tuturam – 86,6 min kvadratkilometrə düşdü".

Yeri gəlmişkən, bir faktı da diqqətə çatdıraq ki, Ermənistan SSR tərkibində Meğri rayonu 1929-cu ildə yaradılıb. Yəni, sovetləşmədən doqquz il, SSRİ-nin formalaşdırılmasından isə beş il sonra. Prezident İlham Əliyev müsahibəsində sırf bu məqama toxunmasa da, ancaq onun Naxçıvana yol kontekstində Meğri marşrutunun səmərəliliyindən söz açdığını, hələ Sovetlər Birliyi zamanında həmin ərazidən dəmir yolu xəttinin keçdiyini diqqətə çatdırdığını yada salmalıyıq. Ölkəmizin lideri Naxçıvana yol kontektində daha nələri bildirdi, bu barədə də bir qədər sonra söz açacağıq.

***

Deməli, Prezident İlham Əliyevin vurğuladığı kimi, Ermənistanın 1970-ci illərin xəritələrini əsas götürməsinin nə metodoloji, nə də siyasi anlamı var. Belədə, dövlətimizin başçısı siyasi əsaslarla istinad nöqtəsi kimi ya Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı dövrü, ya da sovetləşmə dövrünü götürməyi irəli sürür: "Əgər biz xronoloji metodologiyaya üstünlük versək, onda gəlin baxaq, XX əsrin əvvəlində xəritələr nə idi, gəlin, bu xəritələr üzərində işimizi quraq. Yəni, siz 1960-cı, 1950-ci, 1940-cı illəri kənara qoyursunuz və məhz 1970-ci illərə istinad etmək istəyirsiniz. Məhz buna görə ki, bizim tarixi torpaqlarımız artıq onlara verilmişdi. Ona görə biz buna qəti surətdə etiraz etmişik və edirik. Əfsuslar olsun ki, 1970-ci illərin xəritəsini, əsas götürmək istəyən təkcə Ermənistan deyil, onun yəni, "Ermənistan plyus" qruplaşmasıdır və biz buna heç vaxt razılıq verə bilmərik".

Bəli, bütün bu sadaladıqlarından sonra Prezident İlham Əliyev Azərbaycan–Ermənistan sərhədlərinin şərti xarakter daşıdığını bildirməkdə haqlıdır və belə bir mövqeyin ortaya qoyulması həm də ədalətlidir. Əlbəttə, siyasi və xronoloji metodologiya əsas götürülməyə də bilər. Ancaq bu zaman ölkəmizin lideri sərhəd komissiyaları tərkibində ekspert qrupunun yaradılmasını, həmin qrupun üzvlərinin qarış-qarış yerləri gəzib sərhədi müəyyənləşdirməli olduğunu vurğulayır.

Deməli, indi məlum olur ki, Ermənistan nə üçün 1970-ci illərin xəritələri üzərində dayanır. Çünki əvvəlki illərə nəzər salınsa, hazırkı Ermənistan ərazisinin mövcudluğu şübhə altına düşəcək. Görünür, elə məhz buna görə də baş nazir N.Paşinyan aylar öncə bildirmişdi ki, başlıca məqsədi ölkəsi üçün, belə demək mümkünsə, "doğum şəhadətnaməsi" almaqdır. Yəni, tam aydındır ki, erməni iqtidarı da reallığı dərk edir. Ancaq dərk edib nəticə çıxarırmı? Yox! Əksinə, anti-Azərbaycan ritorikasını gücləndirir və ona bu işdə xaricdəki havadarları da kömək edirlər.

Azərbaycanın suveren Ermənistanın ərazisini, guya, işğal etdiyini bildirən rəsmi İrəvan və onun dəstəkçiləri silahlı qüvvələrimizin tutduqları mövqelərdən geri çəkilməli olduğuna dair fikirlər tirajlamaqdadırlar. Yeri gəlmişkən, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ötən ilin sonlarına doğru, "diplomatik gedişə" baş vuraraq, hər iki ölkənin qoşunlarını sərhəddən geri çəkməsini sülhün başlıca prinsiplərindən biri kimi qabartmışdı. Həmin vaxt Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov hərbçilərimizin şəhid övladlarımızın qanı bahasına tutulmuş ərazilərdən çıxılmayacaqlarını vurğulamışdı. Prezident İlham Əliyev isə müsahibəsində dövlətimizin bu mövqeyinə bir daha aydınlıq gətirdi və eyni zamanda, ölkəmizin məsələyə prinsipial baxışını qətiyyətli formada diqqətə çatdırdı: "Ermənistanın mövqeyi nədən ibarətdir, biz bunu başa düşə bilmirik. Sadəcə olaraq bildirmək istəyirəm ki, nə deyirlər. Deyirlər ki, tərəflər güzgü şəklində geri çəkilsin. Amma hara çəkilsin? Bu məsələ ilə bağlı sualı hələ 2021-ci ilin may ayında mənə bəzi həmkarlarım vermişdi. Yadınızdadır, o vaxt sərhəddə müəyyən dəqiqləşmə aparılmışdı və bir telefon zəngi əsnasında dedilər ki, xahiş edirik, siz qayıdasınız. Deyirəm, haraya qayıdaq? Deyirlər ki, haradan gəlmisinizsə oraya. Deyirəm, biz Bakıdan gəlmişik, Bakıya qayıdaq? Biz 30 il orada olmamışıq. Əgər o sərhəd sərhəd idisə, onda Ermənistan onu sərhəd kimi tanıyaydı, sərhəd nişanlarını qoyaydı. O, axı bu sərhədi tanımırdı. O hesab edirdi ki, onun sərhədi Ağdamdadır. Ona görə biz oraya Bakıdan gəlmişik, biz orada olmamışıq. Ona görə haraya qayıdaq? Deyin, haraya qayıdaq... qayıdaq. Bax, mənim o sualıma cavab olmadı. Ona görə, əlbəttə ki, biz heç yerə qayıdan deyilik. Nə 2021-ci ilin may ayındakı mövqelərdən, nə də 2022-ci ilin sentyabr ayındakı mövqelərdən biz bir addım geri gedən deyilik, çünki o sərhəd müəyyən edilməlidir".

***

Bəli, hələlik, sərhəd müəyyən deyil və mövcud anlamda bir məqama diqqət yetirək ki, Ermənistan sərhədlərin delimitasiyası və demarkasiyası, eləcə də Azərbaycanla sülh gündəliyi müstəvisində əvvəldə haqqında söz açdığımız "Dünyanın kəsişməsi", yaxud "Sülhün kəsişməsi" və sair bu kimi adlandırdığı layihəni ortaya atır. Ölkənin rəsmiləri, az qala, bütün beynəlxalq tribunalarda məsələni qabardır, İrəvana gələn xarici ölkə təmsilçilərini bu barədə məlumatlandırırlar. Azərbaycan Prezidentinin də müsahibəsində vurğuladığı kimi, belə gediş manipulyasiyadır. Bəs dövlətimizin başçısının erməni iqtidarına manipulyasiyadan əl çəkməyi məsləhət görməsində hansı xarakterik cəhətlər var?

Məsələ burasındadır ki, "Dünyanın kəsişməsi" layihəsi rəsmi İrəvanın Alma-Ata Bəyannaməsinə istinadı, sərhədlərin delimiyasiyası və demarkasiyası prosesində 1970-ci illərin xəritələrinə istinad üçün mənəvi sığorta rolunu oynamaqdadır. Paşinyan administrasiyası beynəlxalq ictimaiyyəti çaşdırmaq yolu tutur. Əlbəttə, "Dünyanın kəsişməsi" Azərbaycanın 44 günlük müharibədən sonra Naxçıvana yol kontekstində irəli sürdüyü "Zəngəzur dəhlizi" ideyasına alternativdir. Ancaq Ermənistanın təşəbbüsü həm də ölkənin delimitasiya və demarkasiya prosesindəki mövqelərinin nəzərə alınmasının sığortasıdır.

Rəsmi İrəvan suveren Ermənistan məntiqini düşüncələrə yeritməklə, "Dünyanın kəsişməsi" ilə beyinlərdə kök salacaq bu siyasi kazusun iqtisadi səmərəlilik amilini vurğulamaqla, Azərbaycana təzyiqlərin gerçəkləşməsinə nail olmağı planlaşdırır. Yəni, çalışır ki, "Zəngəzur dəhlizi", başqa sözlə desək, Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yol, o cümlədən, bütövlükdə Orta dəhliz layihəsi özünün söz sahibliyi müstəvisində gerçəkləşsin. Daha dəqiq desək, Prezident İlham Əliyevin Naxçıvana yol kontekstində irəli sürdüyü "Azərbaycandan – Azərbaycana asan yol" məntiqi və bu məntiqin tərkib hissəsi kimi həmin yolda sərhəd və gömrük nəzarətinin tətbiq edilməməsi tələbi heçə sayılsın.

***

Nəzərə alaq ki, "Dünyanın kəsişməsi" ideyasının heç bir fundamental təqdimatı yoxdur. Belə çıxır ki, İran körfəzindən Qara dənizə, Xəzər dənizi vasitəsilə Şərqdən Qərbə doğru Türkiyə üzərindən daşımaların mərkəzində dayanacaq Ermənistan yalnız "suveren ərazinin sahibi" kimi jandarmeriya funksiyasını yerinə yetirəcək. Belədə aydındır ki, İrəvan layihə üçün heç bir addım atmır, onun sözügedən ideyanın cəlbediciliyi üçün ortaya qoymaq istədiyi hansısa təşəbbüs yoxdur. Hələ bir məqam da var ki, belə demək mümkünsə, erməni jandarmeriyası hər an layihənin səmərəliliyini və təhlükəsizliyini şübhə altına almaq təbiətinə malikdir.

Axı, İrəvan üçün avantürizm aktualdır. Kim təminat verə bilər ki, o, sabah ambisioz planlar reallaşdırmaq istəməyəcək, yaxud xaricdəki havadarlarının əli ilə təhdid törətməyə çalışmayacaq? Azərbaycanın "Zəngəzur dəhlizi" ideyasında isə fundamentallıq var. Ən azı, "Azərbaycandan – Azərbaycana yol"da hansısa gömrük və sərhəd nəzarəti tətbiq edilmirsə, deməli, bu, qlobal yüklərin vaxt itkisinə yol vermədən, tez bir zamanda daşınmasına töhfədir.

***

Belə nəticəyə gəlmək mümkündür ki, 1970-ci illərin xəritələri məsələsinin ortaya atılması, eləcə də "Dünyanın kəsişməsi" layihəsini qabartmaq sülh gündəliyinin Azərbaycan tərəfindən məqbul sayılan prinsiplərinə ziddir. Üstəlik, bu, Ermənistanın müharibə məğlubi kimi üzərinə götürdüyü öhdəliklərlə də uyğun deyil. Öhdəlik isə kifayət qədər aydındır və Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatında əksini tapıb. Bəyanatın doqquzuncu bəndində bildirilib ki, İrəvan Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yolun açılmasına təminat verməlidir, həmin yolda təhlükəsizlik isə Rusiya Federal Təhlükəsizlik Xidmət tərəfindən qorunmalıdır.

Hazırda Ermənistan hakimiyyəti üçtərəfli bəyanatın bu bəndinə məhəl qoymur və istər "Dünyanın kəsişməsi" ideyası, istər Alma-Ata Bəyannaməsinə, istərsə də delimitasiya və demarkasiya prosesində 1970-ci illərin xəritələrinə istinad həm də bundan qaynaqlanmaqdadır. Halbuki, Naxçıvana asan yol kontekstindəki "Zəngəzur dəhlizi" ideyası Ermənistanın suverenliyini təhlükə altına almır. Bunu Azərbaycan Prezidenti ötən ilin dekabrında da vurğulamışdı. Dövlətimizin başçısı indi də məsələnin üzərinə gəlir.

"…Ermənistan, bildiyiniz kimi, 10 noyabr üçtərəfli Bəyanatının bir müddəasını yerinə yetirmir və faktiki olaraq öz öhdəliyinə laqeyd yanaşır. Ona görə bunu pərdələmək, eyni zamanda, "Zəngəzur dəhlizi" sözünü sildirmək üçün belə bir təklif irəli sürmüşlər. Onu da bildirməliyəm ki, "Zəngəzur dəhlizi" sözü onları çox qıcıqlandırır və mən deyəndə ki, axı dəhliz hər hansı bir ölkənin suverenliyini şübhə altına almır, Şimal–Cənub dəhlizi var, Azərbaycan ərazisindən keçir. Bu, o demək deyil ki, bizim suverenliyimiz burada şübhə altına düşür. Şərq–Qərb dəhlizi var, – amma nədənsə Ermənistanda bu dəhliz sözünə münasibət bir az fərqlidir. Ona görə bu erməni yol kəsişməsi, ya yolayırıcı, ondan sonra bunu "sülh yol kəsişməsi" adlandırmışlar. Amma faktiki olaraq bu, piar aksiyadan başqa bir şey deyil", – deyən ölkəmizin lideri Azərbaycandan – Azərbaycana, yəni Naxçıvana yolun bütün vergi və gömrük mükəlləfiyyətlərindən azad olmasının vacibliyini vurğulayır.

Prezident İlham Əliyev fikrini əsaslandırarkən, Ermənistanın öz suverelik məsələsindən regional kommunikasiyaların açılmasının qarşısını almaq üçün bəhanə kimi yararlandığını vurğulamaqda haqlıdır. Bu nəticəyə gəlmək mümkündür ki, Ermənistan ya yolun açılmasına razılıq verməli və beləliklə üçtərəfli bəyanatla üzərinə götürdüyü öhdəliyi yerinə yetirməlidir, ya da daha böyük problemlə üzləşməlidir. Nəzərə alaq ki, sərhədlərin delimitasiyası və demarkasiyası cənab İlham Əliyevin haqqında söz açdığı tarixi məqamlar əsas götürülməklə aparılsa, o zaman Naxçıvana yol Azərbaycanın suveren ərazisi qismində təsdiqlənəcək. Yəni, ortada az əvvəl haqqında söz açdığımız Meğri amili var. Deməli, Ermənistan seçim etməlidir.

***

Ancaq İrəvan məsuliyyəti anlamır. Bir halda ki, belə bir durum var, o zaman Azərbaycan müharibə məğlubu kimi Ermənistanı üzərinə götürdüyü öhdəliyi zor gücünə yerinə yetirməyə məcbur etməlidir. Lakin ölkəmiz buna getmir və Naxçıvana yolun İran ərazisindən keçməsi üzərində dayanır. Bu halda İrəvan itirəcək və dövlətimizin başçısının təbirincə desək, dalanda qalacaq.

Amma görünən budur ki, Ermənistanın havadarları dövriyyəyə girirlər və Naxçıvana yolun İrandan keçməsinin yolverilməzliyini vurğulayırlar. Azərbaycan Prezidentinin məsələyə reaksiyası isə həm sərtdir, həm də qətiyyətli: "Amerika Dövlət Departamentinin rəhbərinin müavini də bir anlaşılmaz açıqlama vermişdi ki, ya Ermənistandan keçəcək, ya da ki, biz imkan verməyəcəyik. Yaxşı, biz bunu üç ildir deyirik ki, bu, Ermənistandan keçsin, Ermənistan imkan vermir. İndi də bizi ittiham edirlər ki, biz başqa yol seçirik. Yəni, siz şərait yaradın Ermənistanın ərazisindən keçsin, Mehri ərazisindən keçsin, mən dediyim şərtlərlə, onda digər varianta ehtiyac qalmayacaq. Yoxsa bu da anlaşılan deyil. Bu gün Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında əlaqə yenə də İran ərazisindən həyata keçirilir. Niyə buna etiraz edilmir, məhz Mehri hissəsinə etiraz edilir? Ermənistan–İran ticarəti gündən-günə artır, çiçəklənir. İran Qərbi Zəngəzurda konsulluq açıb. Niyə bu, necə deyərlər, heç bir sual yaratmır? Yəni, belə məntiqsiz və cəfəng açıqlamalar heç kimə şərəf gətirmir və "biz buna imkan verməyəcəyik" deyəndə, – mən artıq bunu demişəm, – Amerika nəyi nəzərdə tutur, necə imkan verməyəcək? Gələcək Zəngəzurda bir sədd qoyacaq, ya Zəngilanda bir qoşun yerləşdirəcək, ya İran ərazisində? Necə imkan verməyəcək? Bu, bizim suveren işimizdir".

***

Göründüyü kimi, ortada kifayət qədər mürəkkəb durum var və bu durum Cənubi Qafqazda 2024-cü ilin siyasi mənzərəsi baxımından dəyərləndirmələr üçün əsas formalaşdırmaqdadır. Vurğuladıqlarımızı nəzərə alsaq, suallar yaranır: 1. Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi imzalanacaqmı? 2. Hər iki ölkənin sərhədləri müəyyənləşəcəkmi? Və bu sualları diqqətə çatdırarkən, heç şübhəsiz, Ermənistan tərəfindən irəli sürülmüş "Dünyanın kəsişməsi" ideyasının ölü doğulmuş uşaq mahiyyətini vurğulamalıyıq. Yeri gəlmişkən, ölkəmizin lideri müsahibəsində Azərbaycan olmadan İrəvan tərəfindən qaldırılan təşəbbüsün gerçəkləşməsinin mümkünsüzlüyünü tam əminliklə bildirdi.

Digər tərəfdən, əvvəldə də vurğuladıq ki, Prezident İlham Əliyev müsahibəsində sülh müqaviləsinin imzalanması ilə sərhədlərin delimitasiyasının fərqli rakusda götürülə biləcəyini diqqətə çatdırdı. Onun bildirdiyinə görə, müqavilədə delimitasiya və demarkasiya ilə bağlı hər hansı bənd ola bilər. "Ancaq əgər biz delimitasiyanı gözləyib sülh müqaviləsini təxirə salsaq, onda sülh müqaviləsi heç 30 ildən sonra da imzalanmaya bilər. Çünki dəfələrlə biz demişik ki, bizim dost və qonşu Gürcüstanla delimitasiya hələ başa çatmayıb. Sərhədin cəmi 70 faizi müəyyən olunub və təsdiqlənib. Rusiya ilə bizim delimitasiya prosesimiz 20 il davam etdi, 2012-ci ildə ancaq imzalandı və bu günə qədər 13 il keçib, bütün o dirəklər, nişanlar hələ qoyulmayıb, demarkasiya hələ ki, tam aparılmayıb. Ona görə əgər biz bu iki mövzunu qarışdırsaq, onda sülh müqaviləsi uzanacaq, bəlkə də 30, 50 il bundan sonraya. Biz hesab edirik ki, sülh müqaviləsi imzalanmalıdır, nə qədər tez olsa, bir o qədər yaxşıdır. Amma yəni, demək istəmirik ki, bizim şərtlər əsasında. Ancaq hesab edirəm ki, bizim şərtlərimiz ən ədalətli şərtlərdir".

***Əvəz CAHANGİROĞLU***
***XQ***



# Azərbaycanın Ermənistana qarşı enerji təzminatı iddiası

**Yanvarın 12-də Niderlandın Haaqa şəhərində yerləşən Daimi Arbitraj Məhkəməsinin mənzil-qərargahında Enerji Xartiyası Müqaviləsinə əsasən, Azərbaycan Respublikasının Ermənistan Respublikasına qarşı qaldırdığı dövlətlərarası arbitraj çərçivəsində prosessual iclas keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, iclasda ölkəmizi Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib.

Azərbaycan 2023-cü il fevralın 27-də Ermənistanın Enerji Xartiyası Müqaviləsinin çoxsaylı müddəalarını və beynəlxalq hüququn prinsiplərini pozmasına əsasən kompensasiya tələbi ilə arbitraj prosesinə başlayıb. Azərbaycanın arbitraj bildirişində Ermənistanın 30 ilə yaxın qanunsuz işğal etdiyi ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisi olan Qarabağ bölgəsində yerləşən enerji resursları üzərində ölkəmizin suveren hüquqlarını tanımaqdan və onlara hörmətdən imtina edərək, beynəlxalq öhdəliklərini pozduğu izah edilib.

Bildirilib ki, Ermənistan işğal dövründə Azərbaycanı qanunsuz olaraq öz enerji resurslarına çıxış və onları inkişaf etdirmək imkanlarından məhrum edib, habelə həmin resursları öz istifadəsi və mənfəəti üçün zəbt edib. Azərbaycanın Qarabağ bölgəsində mövcud zəngin su, külək və günəş enerjisi ehtiyatlarından istifadəsinin də qarşısı alınıb.

Arbitraj prosesi məsələnin Azərbaycan ilə Ermənistan arasında diplomatik danışıqların bir neçə raundunda qənaətbəxş həllin tapılmamasından sonra Enerji Xartiyası Müqaviləsinə uyğun olaraq başlanıb. İş üzrə qərar hər iki tərəfdən təyin olunmuş 3 hakimdən ibarət arbitraj məhkəməsi tərəfindən qəbul ediləcək. Arbitraj məhkəməsindən Ermənistanın Enerji Xartiyası Müqaviləsi üzrə qanuni öhdəliklərini yerinə yetirməməsi ilə bağlı qəti qərarın verilməsi və beynəlxalq hüquq normalarına uyğun ədalətli təzminat tələb olunması sorğu edilib.

# Kimdir haqlı: O`Brayen, yoxsa Patel?

**(əvvəli 1-ci səhifədə)**

Əvvəlcə O`Brayenin fikirlərinin təhlilindən başlayaq. O şəxsin ki, ötən ilin sonlarına doğru Birləşmiş Ştatlar Konqresinin Nümayəndələr Palatasında keçirilmiş Qarabağ dinləmələri zamanı səsləndirdiyi fikirlərdə Azərbaycan əleyhinə, kifayət qədər, qeyri-standart mövqe tutmuşdu. Azərbaycan – Ermənistan münasibətlərindən söz açan cənab O`Brayen bildirmişdi ki, ölkəmizin digər ərazilərini Naxçıvanla birləşdirən yolun İran ərazisindən keçməsi yolverilməzdir və yol, gərək, mütləq Ermənistandan olsun. Nə üçün və hansı əsasda?

Birincisi, O`Brayen elə görüntü formalaşdırmışdı ki, sanki, İran antipoddur, heç bir beynəlxalq əhəmiyyət daşıyan layihədə iştirak etməməlidir. Əgər belə bir iştirak varsa, bu, Vaşinqtonun maraqlarına ziddir. İkincisi isə Naxçıvana yol Ermənistan ərazisindən, ölkənin ərazi bütövlüyü və suverenliyi əsas götürülməklə keçməlidir.

Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycan heç vaxt Ermənistana qarşı ərazi iddiası irəli sürməyib. Prezident İlham Əliyev bildirib ki, Naxçıvana yol Azərbaycandan – Azərbayacan yol kimi olmaldır və həmin ərazidə sərhəd və gömrük nəzarəti tətbiq edilməməlidir. Lakin Ermənistan bununla razılaşmır. Məhz bu səbəbdən Bakı İran variantının üzərində dayanıb.

Əlbəttə, Naxçıvana yol İrandan keçirsə, deməli, Ermənistan ötən otuz ildə olduğu kimi, yenə də təcrid durumunda qalır. Görünür, ABŞ-ı sırf bu məsələ narahat edir, nəinki İran amili. Axı işğal illərində də ölkəmizin əsas hissəsi ilə Naxçıvanın əlaqəsi İran vasitəsilə gerçəkləşib və Vaşinqton heç vaxt məsələni gündəmə gətirməyib. Deməli, yenə o nəticəyə gəlmək mümkündür ki, hazırkı problem sırf Ermənistana görədir.

Birləşmiş Ştatlarda yaxşı anlayırlar ki, necə deyərlər, quyuya su tökməklə, quyu sulu olmayacaq. Yəni, Ermənistanı davamlı şəkildə Qərbdən gələn maliyyə axını ilə əldə saxlamaq mümkünsüzə çevriləcək. Bu səbəbdən, obrazlı desək, ona balıq vermək yox, balıq tutmağı öyrətmək istəyirlər. Belə bir imkanı yaratmaq üçün ölkənin qlobal nəqliyyat qovşağı kimi təqdimatı şərtdir.

Sözügedən təqdimatın Azərbaycanın maraqlarını nəzərə almadan edilməsi isə kollektiv Qərbin, o cümlədən, ABŞ-ın ikili yanaşmasından, riyakarlığından, ermənipərəst mövqeyindən qaynaqlanmaqdadır.





Əslində, C.O`Brayen haqqında söz açdığımız çıxışında ermənipərəstliyin dozasını artıq etmişdi. O qədər artıq etmişdi ki, Azərbaycan əleyhinə bütün diplomatik normaları aşan fikirlər gündəmə gətirmişdi. Onun söylədikləri ölkəmizin daxili işlərinə qarışmaq mahiyyətli hədə-qorxu idi və Prezident İlham Əliyev bununla bağlı ilk sərt reaksiyanı ötən ilin sonlarına doğru verdi. Dövlətimizin başçısı yanvarın 10-dakı müsahibəsində məsələnin üzərinə yenə gəldi. Ölkəmizin liderinin mövcud xüsusda bildirdiklərindən belə qənaət hasil oldu ki, heç bir qüvvə, o cümlədən, ABŞ Azərbaycanın tutduğu haqlı və ədalətli yoldan döndərə bilməz.

Deməli, Birləşmiş Ştatlar özünün nüfuzu və təsir gücü hesabına Cənubi Qafqazda sülhə nail olmağı düşünürsə, potensialından yalnız Ermənistan xüsusunda bəhrələnməlidir. Həm də ona görə ki, müharibə məğlubu olaraq üzərinə öhdəlik götürən, həmin öhdəliyi imzası ilə təsdiqləyən Bakı deyil, İrəvandır. Elə isə sual olunur: Ceyms O`Brayenin dünənki açıqlaması Azərbaycan – Ermənstan sülh gündəliyinə ABŞ-ın töhfəsi baxımında diqqət çəkdimi?

***

Əlqərəz, C.O`Brayen bildirib ki, ABŞ Ermənistan və Azərbaycan arasında sabit və ləyaqətli sülhə kömək edir. "Biz sülh sazişinin, Ermənistan və Azərbaycan arasında sabit və ləyaqətli sülhün tərəfdarıyıq. Ölkələrin tamhüquqlu ikitərəfli gündəliyə malik olmaları və aralarındakı mövcud problemlərin həllinə davam etmələri bizi çox ruhlandırır. Hələ görüləsi işlər çoxdur və biz bunu bacardığımız qədər dəstəkləməyə hazırıq. Bizim hər iki ölkə ilə tamhüquqlu əlaqələrimiz var. O cümlədən, iqtisadi, təhlükəsizlik, siyasi əlaqələr. Biz hər iki ölkənin sülh sazişindən faydalanmasını istəyirik və bunun üçün ən uyğun şəkildə çalışacağıq. Düşünürəm ki, bu, hər iki hökumətin öz xalqı naminə daha çox işlər görməsi üçün daha bir əla fürsətdir", – deyən O'Brayen Ermənistandakı islahatlar proqramının çox təsirediciliyini diqqətə çatdırmağı da yaddan çıxarmayıb.

Diqqət yetirək, O`Brayen əvvəlki ampluasını bir qədər diplomatik tərzdə ortaya qoymaqdadır. Görəsən, Ermənistanda islahatlar proqramının cəlbediciliyini vurğulamaq nə deməkdir? O deməkdirmi ki, Azərbaycanda islahatlar keçirilmir, yaxud zəif keçirilir? Hər halda, O`Brayenın sözlərindən gəlinən qənaət budur və mövcud yanaşma, istər-istəməz İrəvanı daha üstün təqdimetmənin, nisbətən, ehtiyatlı formasıdır.

İkincisi, Azərbaycanın və Ermənistanın tamhüquqlü ikitərəfli gündəliyə malik olmaları hansı anlamdadır? Bəlkə cənab O`Brayen yenə də bildirir ki, ABŞ üçün Ermənistanın ərazi bütövlüyü və suverenliyi öndə gələn məsələdir. Məgər, kimsə Ermənistanı tamhüquqlu görmür? Hər kəs məsələni belə qoyur, amma prinsipial məqam var. O məqam da budur ki, Ermənistan müharibə məğlubu kimi üzərinə götürdüyü öhdəliyi yerinə yetirməlidir. Yəni, Naxçıvana yolu ölkəmizin istədiyi formada açmalıdır. Əgər İrəvan bundan yayınıb məsələni özünün suverenliyi kontekstində əsaslandırmağa çalışırsa, manipulyasiyaya yol verirsə, o zaman yol İrandan keçəcək. Bu, Azərbaycanın daxili işidir.

Bəli, ABŞ Dövlət katibinin köməkçisi haqlıdır ki, Azərbaycan – Ermənistan münasibətlərinin nizamlanması istiqamətində görüləcək işlər çoxdur. Ən böyük iş Ermənistanı razı salmaq və inandırmaqdır ki, Bakının təklif etdiyi Naxçıvana asan yol onun suverenliyinin pozulması deyil. Birləşmiş Ştatlar məhz bu həlledici məsələ ilə bağlı kömək göstərmək niyyətindədirsə, buyursun.

***

C.O`Brayenin açıqlamasının ikinci hissəsi ölkəmizdə fevralın 7-də keçiriləcək Prezident seçkiləri ilə bağlıdır. ABŞ rəsmisi, faktiki olaraq, deyir ki, Azərbaycanın regionun iqtisadi inkişafında oynamaq istədiyi roldan prosesdən sonra danışmaq mümkündür. Yəni, hələlik danışmaq istəmir. Ancaq, o, Ermənistanla sülh sazişini Bakının planlarını həyata keçirmək üçün töhfə adlandırır.

Əvvəla, nəinki O`Brayen, eyni zamanda, ümumən Birləşmiş Ştatlar rəsmiləri tam əmin ola bilərlər ki, qarşıdakı prezident seçkiləri Azərbaycan xalqının iradəsinin növbəti təcəssümü olacaq. Xalqın seçimi isə artıq indidən bəllidir. İnsanlarımız Prezident İlham Əliyevin şəxsində Qarabağın xilaskarı olan iqtidarın kursunu dəstəkləyəcək və bu kursa növbəti etimad, eyni zamanda, Azərbaycanın regionun iqtisadi inkişafında oynamaq istədiyi böyük rolun davamıdır.

Digər yandan, ölkəmiz indi də regionun iqtisadi inkişafında həlledici mövqeyə malikdir və bu statusun Ermənistanla sülh sazişinə heç bir dəxli yoxdur. Dövlətimizin başçısı dəfələrlə bildirib ki, İrəvan sülh şəraiti istəmirsə, özü bilər. Hər halda, biz heç nəyi itirmirik. İtirən Ermənistandır və bunu Birləşmiş Ştatlar rəsmiləri yaxşı anlayırlar. Anladıqları üçün də onların İrəvanı düz yola gətirmələri şərtdir. Deməli, Azərbaycanla bağlı diplomatik libas geyinmiş subliminal mesajların verilməsi mənasızdır. O`Brayenin dünənki açıqlaması da həmçinin.

Əslində, Dövlət Departamenti rəsmisinin Azərbaycanda "bəzi insanların həbsi ilə bağlı narahatlıq", "ikitərəfli məsələlərin müzakirəsi" məntiqinə "ölkələr (Azərbaycan və Ermənistan – red.) arasında davamlı və ləyaqətli sülhün təşviqi" ritorikasını əlavə etməsi siyasi xarakter daşıyan mesajdır. Görəsən, O`Brayen özünün konsprioloji dünyagörüşündəki boşluğu tuta bilirmi? Axı yenə belə çıxır ki, Azərbaycan və Ermənistan arasında Birləşmiş Ştatların diktə etdiyi formula malik sülh olmasa, Vaşinqton ikitərəfli münasibətə xələl gətirəcək. Görünür, ölkəmizdə bəzi insanların həbsindən narahatlıq motivinin ortaya atılması məhz bundan qaynaqlanır. Bu qaynaqlanmada isə erməni təəssübkeşliyi tam aşkardır.

***

Lakin O`Brayendən fərqli olaraq, ABŞ Dövlət Departamentinin mətbuat katibinin müavini Vedant Patelin açıqlaması ümumidir. Həm ümumi, həm də konstruktiv təmayüllüdür. Bəlkə də daha çox diplomatikdir. Hər bir halda, belə nəticə hasil olur ki, O`Brayen təzyiq dilində danışırsa, cənab Patel sırf gerçək mahiyyətə köklənir. Mahiyyət isə budur ki, ABŞ Ermənistan və Azərbaycan arasında davamlı sülhün mümkün olduğuna inanmaqda davam edir. "Biz Ermənistan və Azərbaycan arasında da davamlı sülhün mümkün olduğuna inanmaqda davam edirik. Dövlət Departamenti bu istiqamətdə fəaliyyətini davam etdirəcək", – deyən V.Patel onu da vurğulayıb ki, ABŞ Dövlət katibinin Qafqaz danışıqları üzrə müşaviri Lui Bono, dövlət katibi Antoni Blinken və başqaları haqqında söz açdığı məsələ ilə dərindən məşğul olmaqdadırlar.

Sonda fikrimizə bir atalar sözü ilə aydınlıq gətirək: kor nə istər, iki göz, biri əyri, biri düz. Amma biz ABŞ-ın, obrazlı desək, hər iki gözünün düz olmasını arzulayırıq. Ancaq görünən budur ki, hazırda ermənipərəstlik Birləşmiş Ştatların gözlərini kor etmişdir. Bu durum nəinki illüziyalara qapılmağı mazoxistcəsinə həzzə çevirmiş Ermənistana ziyan vuracaq, habelə, Vaşinqtonun da regionla bağlı qlobal maraqlarını təhdid altına alacaq. Deməli, düşünmək növbəsi ABŞ-dadır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# BBC Ruben Vardanyanın "xeyriyyəçi" obrazını alt-üst etdi

**(əvvəli 1-ci səhifədə)**

Erməni əsilli Rusiyanın sabiq vətəndaşı, milyarder Ruben Vardanyan barədə kifayət qədər material yayımlanıb. Şimal qonşumuzun pasportundan imtina edərək, Qarabağ ərazisinə köçmüşdü. Pul dəllalı bu yerdəyişməni, guya, xalqının "iztirablarını" yüngülləşdirmək üçün atdığını bildirmişdi. Qarabağdakı "soydaşlarının sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması" məqsədi ilə, hətta, "artsax inkişaf və təhlükəsizlik fondu"nu da yaratmışdı. "Xeyriyyəçi" libasını geyinməklə R.Vardanyan daha böyük məqsədlər arxasınca gəldiyini sonradan büruzə verməyə başlamışdı. Elə ilk günlərdən bilinirdi ki, 90-cı illərin qaranlıq küçələrinin "övladı" bəzi dairələrin geosiyasi layihəsidir və xeyirxahlıq obrazına girməsi də məhz buna hesablanmışdı. BBC yazır ki, R.Vardanyan 2022-ci ildə hamını təəccübləndirdi, Moskvadakı sakit həyatından ayrıldı, Rusiya pasportunu təhvil verdi və Qarabağa getdi. Orada "dövlət naziri" postunu tutdu. Sonrakı proses də hamıya məlumdur. Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü il sentyabrın 20-də həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində erməni separatizmi tarixin zibilliyinə atıldı və R.Vardanyan regionu tərk etmək istəyərkən sərhədçilərimiz tərəfindən yaxalandı. İndi erməni "xeyriyyəçi" Bakı həbsxanasında digər erməni separatçıları ilə Azərbaycan çayı içir.

Əlbəttə, Ruben Vardanyan və onun siyasətdəki və kriminal aləmdəki yüksək rütbəli himayədarları Qarabağda ciddi problemlər yaratmağa ümid edirdilər. Yəni, Azərbaycanın başladığı inteqrasiya prosesləri Ruben Vardanyan və onun himayədarlarının planlarını pozurdu. Erməni milyarder və onun himayədarları uzun müddət idi ki, külli miqdarda pulların yuyulması, köçürülməsi və leqallaşdırılması ilə bağlı maxinasiyalar həyata keçirən maliyyə fırıldaqçıları kimi tanınırlar. BBC-nin hazırladığı məqalədə də R.Vardanyanın "Troyka Dialoq" və bütöv ofşor şirkətlər sisteminin fırıldaqları təqdim edilir, onların vasitəsilə nüfuzlu adların pullarının gizli şəkildə xaricə ötürüldüyünə ehyam vurulur. Xatırladaq ki, 2019-cu ildə R.Vardanyan 2012-ci ilə qədər rəhbərlik etdiyi "Troyka Dialoq Bank"la əlaqəli ofşor sxemlər vasitəsilə vergidən yayınma və çirkli pulların yuyulmasında ittiham olunub. OCCRP-nin araşdırmasına görə, o və tərəfdaşları müxtəlif ölkələrdə gizli şirkətlərdən və hesablardan istifadə edərək vergi orqanlarından təxminən 8,8 milyard dollar gizlədiblər.

BBC yazır ki, hələ 2020-ci ildə rusiyalı müxalifətçi Aleksey Navalnının bir sıra şübhəli maliyyə əməliyyatlarının aparıldığı ofşorun tamamilə Ruben Vardanyana məxsus olduğunu bildirmişdi. A.Navalnının araşdırmalarına görə, ofşorda izi itirmək üçün R.Vardanyan həmin əmlaka 3 milyard rubl ödəmişdi. Bundan başqa, BBC əlavə edir ki, Qarabağa köçən Ruben Vardanyan Rusiyadakı bütün var-dövlətini ailəsinin nəzarətinə vermişdi. 2022-ci ilin oktyabrında, Vardanyan Rusiyanı tərk etdikdən dərhal sonra Zonabend Vardanyanın əvvəllər səhmlərinə sahib olduğu bir neçə kiçik şirkətin ortaq sahibi oldu. Məsələn, 2022-ci ilin oktyabrında R.Vardanyan Qarabağa köçdükdən sonra "Mediakrat" reklam agentliyini alıb. Ancaq artıq 2023-cü ildə agentlikdəki pay Emilia Zonabendə keçdi (soyadına görə, bu milyarderin həyat yoldaşının qohumudur-BBC).

Britaniya Yayım Korporasiyası materialında R.Vardanyanın digər qaranlıq işlərinə işıq salıb: "Vardanyan hazırda Rusiya ordusu üçün yük maşınları və zirehli maşınlar istehsal edən KAMAZ şirkəti ilə bağlıdır. 2021-ci ilə qədər KAMAZ-ın 24 faizi "Avtoinvest" şirkətinə məxsus idi və Vardanyan hələ də etimadı ilə bu şirkətin ortaq sahibidir. O, həm də KAMAZ-ın İdarə Heyətindədir". "Transparency International" təşkilatınadan İlya Şumanov BBC-ə bildirib ki, o, pul çıxarmaqla məşğul olan və korrupsionerlərlə ortaqlıq edən bir şəxs kimi yox, xeyriyyəçi kimi görünməyə çalışır. Buna görə də, BBC yazır ki, R.Vardanyan Qarabağa getmək qərarına gələndə onun səmimiliyinə heç də hamı inanmadı.

BBC-nin materialında da bu fırıldaqları xatırlanır: "Araşdırmadan məlum oldu ki, "Troyka Dialoq" bütöv ofşor şirkətlər sistemi yaradıb. Onların



vasitəsilə nüfuzlu şəxslərin pulları gizli şəkildə xaricə ötürülürdü: bu şəxslərdən biri jurnalistlər Vladimir Putinin dostu, musiqiçi Sergey Rolduqinin adını çəkiblər. Uzun illərdir ki, müstəntiqlər violonçel ifaçısı prezidentin "pul kisəsi" adlandırırlar". Britaniya Yayım Korporasiyası R.Vardanyanın araşdırmalara verdiyi cavabı dərc edib. Erməni əsilli milyarder "etiraf" edib ki, guya, fırıldaqlara məcburiyyətdən gedib, Rusiya elitasının tələblərinə boyun əyməkdən başqa çarəsi olmayıb. BBC daha ifşaedici məqamlara toxunmayıb. Məsələn, fırıldaqçı "xeyriyyəçi"nin fəaliyyətinin bir hissəsi vaxtı ilə Azərbaycan ərazisində çirkli pulların yumaqdan, narkotik vasitələrin və silahların qanunsuz dövriyyəsi ilə məşğul olmaqdan ibarət olmuşdu. Bundan başqa, R.Vardanyan Qarabağın təbii sərvətlərinin oğurlanmasında və daşınmasında da iştirak etmişdi. Erməni milyarderin adı ortağı sayılan Livan əsilli, həm Kanada, həm də ABŞ vətəndaşı, milyarder Noubar Afoyan ilə birlikdə qara işlərdə hallanırdı. Yaxın Şərq regionunda silah alverçisi kimi tanınan bu cütlük Azərbaycanın ərazilərinin qanunsuz məskunlaşmasında da fəal iştirak etmişdilər. BBC R.Vardanyanın Rusiyanın Meduza saytına 2019-cu ildəki müsahibəsini xatırladır: "Başa düşün, mən mələk deyiləm. Rusiyada sizin üç seçiminiz var: inqilabçı olmaq, ölkəni tərk etmək və ya konformist olmaq. Beləliklə, mən konformistəm... Mən özümü və prinsiplərimi qorumağa çalışıram".

Hə, burada xoruzun quyruğu görünür. Yəni, özünü digər "akulalardan" qorumaq üçün oğru prinsiplərini dövriyyəyə buraxmağı məqbul sayıb. BBC də R.Vardanyanın bu sayaqlamasına inanmadığını materialında belə qeyd edib: "... hadisələrin bu versiyası milyarderin hakim elitanın əhatəsində olmağa çalışması faktına uyğun gəlmir. OCCRP sayəsində məlum oldu ki, erməni iş adamı Sergey Çemezov və "Rostex" dövlət şirkətinin digər rəhbərlərinin kotteclərinin yerləşdiyi dəniz sahilindəki İspaniya kəndində ev tikib". BBC, həmçinin bildirir ki, milyarder R. Vardanyan "Rostex"in baş direktoru Sergey Çemezov və dövlət korporasiyasının digər rəhbərləri ilə "Vremena Qoda" ov klubunun üzvü olub, S.Çemezovun pullarını idarə edib. Təbii ki, R.Vardanyan özünü qara işlərdən kənar tutmağa çalışıb. Erməni iş dəllalı Rusiyanın Qərbin sərt sanksiyaları ilə üz-üzə qaldığını nəzərə alaraq öz kapitalının əhəmiyyətli hissəsini ermənilərin yaşadığı ərazi olan "boz zona" vasitəsilə daşımaq və leqallaşdırmaq istəyirdi. Bu pulların yuyulması üçün o, hər cür xeyriyyə təşkilatları yaradır, infrastruktur və digər layihələr həyata keçirməyə çalışırdı.

BBC materialında R.Vardanyanın siyasi ambisiyalarının olmasına da diqqət çəkib. Bununla bağlı Britaniya mətbuatı yazır: "Politoloq Qriqoryan əmindir ki, R.Vardanyanın Ermənistanda öz siyasi ambisiyaları var idi. Milyarderlə yaxından tanış olan iqtisadçı Ruben Yenikolopov da onunla razılaşır. "Onun ambisiyaları çox aydın idi: o, Ermənistanın başçısı olmaq istəyirdi". Politoloq Tiqran Qriqoryan deyir ki, onun gəlişi əvvəlcə qarabağlıları ruhlandırdı: "Bu qəbildən olan bir adam çətin vəziyyətdə gələndə əhalidə ümid yaradır ki, bəlkə burada hələ hansısa gələcək var". Bununla yanaşı, politoloq Qriqoryan BBC-yə müsahibəsində R.Vardanyanın "prinsiplərinin adamı" olduğunu deməyə çalışsa da, sözlərindən belə aydınlaşır ki, erməni iş adamı adi avantürist və burnundan uzağı görməyən birisidir. İş adamının qəti şəkildə Azərbaycanla razılaşmaların və güzəştlərin əleyhinə olduğunu vurğulayan erməni politoloq əlavə edir ki, "Vardanyanın bir az "ura-vətənpərvər" mövqeyi vardı: sona qədər mübarizə aparmalıyıq. Amma necə döyüşmək barədə dəqiq yol xəritələri yox idi. Buradan da görünür ki, R.Vardanyan psevdo-vətənpərvər obrazında ancaq pul maraqlandırıb. Əsgərsiz və paqonsuz general kimi ortalığa atılan erməni iş adamının napoleonluğu da yalnız sosial şəbəkələrdə çərənləməkdən o tərəfə keçmirdi.

BBC-nin müxbiri politoloq Qriqoryandan soruşub ki, R.Vardanyan öz planında səhvə yol verməyib? Cavab gözləniləndir: "O, demək olar ki, ümidsiz bir vəzifə götürdü və gözlənildiyi kimi, möcüzə baş vermədi". İndi R.Vardanyanın himayədarları möcüzə gözləyirlər: fırıldaqçı "filantrop" həbsdən nə zaman çıxacaq? Azərbaycan qanunlarına görə, iş adamı terrorçuluğu maliyyələşdirməkdə, silahlı birləşmələrin yaradılmasında iştirakda və sərhədi qanunsuz keçməkdə ittiham olunur. Bu isə o deməkdir ki, R.Vardanyanın dostları möcüzəni başqa yerdə axtarmalıdılar. Qarabağın sərvətlərini talayan və Azərbaycana hörmətsizlik edən fırıldaqçı "xeyriyyəçi" ədalətli cəzasını çəkməlidir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Yeni tarixi mərhələdə milli ideya və milli ideologiya

## I məqalə

**Mən istərdim ki, cəmiyyətdə də bu məsələ ilə bağlı diskussiyalar getsin, siyasətçilər, politoloqlar, elm adamları, ziyalılar, yeni bizim gələcək inkişafımızla bağlı əsas milli ideya və ideyalarımız nə olmalıdır. Bu, bir ictimai müzakirə mövzusu olmalıdır.**

**İlham ƏLİYEV,
Azərbaycan Respublikasının
Prezidenti**



### Azərbaycan: yeni tarixi mərhələnin çağırışları

Hər bir müstəqil xalqın tarixi təkamülünün mərhələləri olur. Həmin mərhələləri lideri ilə birlikdə xalq, cəmiyyət özü yaradır. Sözün həqiqi mənasında, toplum azaddırsa, müstəqildirsə, qarşısına qoyduğu məqsədlərə çatır. Məqsədlər abstrakt, mücərrəd və hər şeyi əhatə edən olmur. Onlar konkret tarixi özəlliklərə uyğun olaraq cəmiyyətin (xalqın) malik olduğu dəyərlərin fonunda müəyyənləşir. Yəni kollektiv olaraq hansı məqsədlərə çatmaq məsələsi müəyyən edilir.

Bu proses asan deyildir. Burada xalqın liderinin zəkası, iradəsi, qətiyyəti və tarixi uzaqgörənliyi həlledici rol oynaya bilər. Strateji məqsəd düzgün müəyyən ediləndə, obrazlı desək, o, cəmiyyətin legitimliyini qazanır. Yəni bütövlükdə, toplum həmin məqsədi "qanuni" (legitim) hesab edir. Bu zaman toplum toparlanaraq həmin məqsəd uğrunda həyat mübarizəsinə başlayır. Və konkret məqsədə çatandan sonra qarşıya yeni vəzifə çıxır – əldə edilən nəticələr əsasında yeni düzgün məqsədlər, vəzifələr və birgəyaşam formaları müəyyən etmək zərurəti yaranır. Məhz bu keçid mərhələsi hər bir xalq üçün sınaq dövrüdür. Onun özünü nə dərəcədə yeniləşdirə bilməsi potensialının özünütəsdiqidir.

Belə çıxır ki, cəmiyyət və ya xalq halında birgəyaşamağın özünəməxsus ideya, mənəvi, əxlaqi və iradi şərtləri mövcuddur. Bu prizamadan baxanda strateji məqsədlərə nail olmaq üçün zəruri olan mexanizmləri həm dərindən anlamaq, həm də onların reallaşması üçün konkret fəaliyyət planlarına malik olmaq gərəkdir. Bu cür mexanizmlər sırasında "milli ideya" və "milli ideologiya"nın rolu həlledicidir.

Əslində, milli ideya və milli ideologiya yalnız məqsədə çatmaq mexanizmləri deyil. Onlar substantiv olaraq xalqın kollektiv mövcud olmasının şərtləndirən fundamental anlayışlardır. Çünki ideya çoxlu sayda insanları konkret məqsəd ətrafında birləşdirə və onları fəaliyyətə motivasiya edə bilər. Kollektiv fəaliyyəti yaxşı səviyyədə stimullaşdırılmayan xalqların tarixdə yeri məlum deyil.

Deməli, milli ideya və milli ideologiya həm kollektiv mövcudluğun mənəvi bağıdır, həm də ümumi məqsədə çatmağın başlıca mexanizmi. Burada, təbii ki, milli ideya ilə milli ideologiyanın fərqini görmək lazımdır. Lakin onların hər ikisini kollektivə, xalqa, topluma məxsus olan səviyyədə mənəvi, ruhani, ideya faktorlarını aktuallaşdırmaq və reaktuallaşdırmaq (təkrar-təkrar aktuallaşdırmaq) özəlliyi birləşdirir.

Bu məqam bir tarixi mərhələsini başa vurmuş və yeni mərhələyə qədəm qoyan xalqların həyatında özünü daha həssas aspektlərdə göstərir. Azərbaycan hazırda tarixi təkamülünün bu yeni keçid pilləsindədir. Dövlətçilik, müstəqillik, müasirləşmək qüdrəti, daim uğurlu olmaq fəlsəfəsi baxımından da son dərəcə əhəmiyyətli, məsuliyyətli və şərəfli bir dövrdür!

### Nələrə nail olunmuşdur?

Biz son 20 ilin qısa xronologiyası əsasında mövzuya uyğun kontekstlərdə suala cavab axtaracağıq. 2003-cü ildən Azərbaycan yeni Prezidenti ilə möhtəşəm proqramları həyata keçirməyə başladı. Bu barədə geniş informasiya verilmədi, ancaq dövlət başçısı əsas istiqamətverici və müəyyənedici tezisləri ilə kifayət qədər innovativ (yenilikçi) bir prosesə başladığını aydın ifadə edirdi. Bu innovativlik birmənalı olaraq Ulu öndər Heydər Əliyevin siyasi varislik prinsipinə tam uyğun həyata keçirilirdi. Siyasi varisliyə əsaslanan yeniləşmə cəmiyyətin həyatının bütün sferalarını əhatə edirdi. Buraya iqtisadiyyat, siyasət, geosiyasət, mənəvi-əxlaqi dəyərlər, sosial faktorlar, təhlükəsizlik, ordu quruculuğu, müdafiə fəlsəfəsinin yeniləşməsi daxil idi. Onların sintezi isə bir milli məqsədə çatmağa xidmət edirdi. Prezident İlham Əliyev bu barədə deyirdi: "Bizim əsas milli ideyamız ərazilərimizi azad etmək idi. Yəni bütün xalq bu ideya ətrafında, bu amal ətrafında birləşmişdi, biz bunu artıq əldə etmişik".

Doğrudan da indi ötən həmin o 20 ilin hər ayına, həftəsinə, gününə baxanda Prezidentin nə dediyinin yeni prizmada fərqinə varırsan! Çox möhtəşəm və çətin bir məqsəd uğrunda dövlətin başçısı böyük qətiyyət, yüksək zəka və sınmayan iradə ilə başlamışdı. Əksəriyyətin gözləmədiyi istiqamətdən ədalətli və yaradıcı həmlələr edir, beynində, könlündə və qəlbində daşıdığı (bu da Ulu öndərin siyasi varisliyinin mühüm əlamətlərindən biridir – F.Q.) milli sevgini, ədaləti, qüruru, qətiyyəti və mədrikliyi reallaşdırdığı dövləti əhəmiyyətli böyük proqramların ruhuna və məzmununa hopdururdu. Bununla damla-damla, qətrə-qətrə Azərbaycan cəmiyyətinin həyatına yeridilmiş məğlubiyyət sindromunu əridirdi! Onun fövqündə isə Prezidentin milli ideya və ideologiyada mükəmməl məzmununu və formasını almış Qələbə siyasəti daha da təkmilləşir, mükəmməl formada milyonların ruhuna hopdurulurdu! Təsdiqi vardır!

O təsdiq gənclərin 2020-ci ildə "Vətən!", "Azərbaycan!", "Qarabağ!" deyib bir nəfər kimi hərb meydanında şir kimi savaşmasıdır! Bir gənc belə, ordudan fərarilik etmədi! Əksinə, hərbi komissarlıqların qarşısında həyəcan və tələbkarlıqla torpaqları azad etməyə can atırdılar. Dünyanın hər yerindən yüz minlərlə azərbaycanlı Azərbaycan Respublikasının Prezidenti və Ali Baş Komandanından cəbhəyə getmək istədiklərini və buna imkan yaradılmasını xahiş edirdilər! Niyə məhz Azərbaycan Prezidentindən bu xahişi edirdi gənclərimiz? Yalnız ona görə yox ki, dövlətin başçısı İlham Əliyevdir. Əsas ona görə ki, İlham Əliyevə inanırlar, ona tam etibar edirlər!

İlham Əliyevin gənclərdə illərlə yaratdığı, stimullaşdırdığı, səslədiyi və nəhayət, böyük anlamda tərbiyə etdiyi vətənsevərliyin, milliliyin, ideyanın çağırışı, həyəcanı və "xahişi" idi, bu! Həm həyata keçirdiyi proqramları, həm siyasi-diplomatik məharəti, həm də mənəvi-əxlaqi davranışları ilə nümunə olan Azərbaycan Prezidentini hər bir gənc səngərdə özü ilə bərabər görürdü və ya görməyi arzulayırdı. Prezidentə inanır və onunla birgə savaşmağa hazır olduqlarını bəyan edirdi yüz minlərlə azərbaycanlı. Bax, o ruhları, könülləri, qəlbləri 2003-cü ildən bu yana milli ideya və milli ideologiya ətrafında birləşdirən Prezident İlham Əliyevdir.

Bu ruhani və mənəvi coşqu əsassız deyildi. Onun üç ideya sütunu vardı. Hansılardır?

### Ərazi bütövlüyü və suverenliyin 3 əsas sütunu: Milli ideya fonunda

44 günlük Zəfər savaşına qədər milli ideyanın məzmununu motivə edən və həm də formalaşdıran üç prinsip mövcud idi. Onları Prezident müəyyənləşdirmişdi və praktiki fəaliyyətində qətiyyətlə və səmərəli yerinə yetirirdi. Həmin üç prinsip bunlardır: tarixi ədalət, milli qürur və beynəlxalq hüquq! Bu prinsiplər dərin düşünülmüş və dəqiq ifadə edilmişdir. Onlar fəlsəfi və politoloji baxımdan çoxfunksiyalıdırlar. Faktiki olaraq fərqli sferaları birləşdirə bilirlər.

Birincisi, bu prinsiplər milli ideya və milli ideologiyanın yaradılmasının və funksionallığını daim saxlamasının mahiyyətinə uyğundurlar. Filosofların fikrinə görə, milli ideya konkret millətin keçmişdə, indi və yaxın gələcəkdə mövcudluğunu izah edə bilən mənalar sistemidir. Bu zaman milli ideyanın məzmununa və məqsədinə millətin mentaliteti (o cümlədən, siyasi mentaliteti), xarakteri, hakimiyyətə münasibəti, başqa ölkələrə münasibəti və s. kimi çoxlu sayda faktorların mümkün təsirlərini nəzərə almaq lazım gəlir.

Müstəqillik əldə edəndən sonra Azərbaycanın keçdiyi keşməkeşli yol fonunda bu məsələnin bizim üçün ikiqat çətin olduğunu anlamaq güc tələb etmir. Həmin faktorların fonunda milli ideya "millət indi nəyin naminə mövcuddur və onun gələcək missiyası nədən ibarətdir?" sualına cavab verməlidir. Özlüyündə bu məsələ də üç altməsələyə bölünür. Belə ki, milli ideya a) humanitar dəyərlərin; b) insan hüquqları və azadlıqlarının; c) ənənənin yeri və rolunu özündə dəqiq ehtiva etməlidir. Bu faktorlardan hansına üstünlük verilməlidir?

Azərbaycan Respublikası Prezidentinin ifadə etdiyi milli ideyada bu suala mükəmməl cavab vardır. Onlar lakonik şəkildə vurğuladığımız üç prinsipdə ifadə olunmuşdur. Tarixi ədalət, milli qürur və beynəlxalq hüquq keçmişi, indini və gələcəyi fəlsəfi-siyasi məntiqlə bir-birinə bağlayan parametrlərdir. Çox əhəmiyyətlidir ki, bu prinsiplər həm ayrılıqda, həm də bir-biri ilə qarşılıqlı münasibətlərdə "zamanı xalqın kollektiv həyatı müstəvisində bütövləşdirir": ədalət qürur və hüquqla təmin edilir, qürur ədalətlilikdən və hüquqdan qaynaqlanır, hüquq isə ədalət və qürurun sayəsində münasibətlərin qurulmasında "xəritə olur, yol olur"!

Deməli, müasir fəlsəfi-elmi təfəkkürdə mövcud olan "plektiks" ("sarmaşıq", "bir-biri ilə bütün mənalarda vəhdətdə olan") anlamı milli ideyada İlham Əliyev tərəfindən ifadəsini tapmışdır! Fəlsəfi baxımdan da burada bir dinamizm və ahəngdarlıq (bu termini Əhməd Qəşəmoğlu mənasında işlədirik – F.Q. ) vardır. Biz konkret olaraq Jil Delyoz fəlsəfəsində indinin öz mövcudluğu üçün keçmişə və gələcəyə "yayılması" fikrini nəzərdə tuturuq. Bu yayılma xalq üçün elə olmalıdır ki, həm özünəməxsusluğunu saxlasın (tarixdir), həm də indi potensialını elə reallaşdırsın (bu gündür) ki, gələcəyə perspektivi (strateji anlamdır) təmin etsin!

Buradan milli ideya və milli ideologiya ilə bağlı fəlsəfi əhəmiyyəti olan yeni məsələlər meydana çıxır. Məsələnin bu tərəfinə nəzər salmadan öncə bir məqama aydınlıq gətirək.

Bir sıra hallarda milli ideya ilə milli ideologiyanı eyniləşdirirlər. Ancaq onlar fərqlidirlər. Hər ikisi dəyərlər sistemini ifadə edir, onu ümumxalq miqyasına qədər genişləndirir və hər ikisi milli sayıla bilər. Ancaq ideologiya ideyaların mürəkkəb sistemidir. O, müxtəlif ictimai subyektlərin həyatının ideal və dəyərlərini özündə daşıya bilər. Məsələn, qrupların, insanların, icmaların, sosial stratların, siyasi partiyaların və s. Bu mənada, milli ideya milli ideologiyanın tərkib hissəsi kimi görünür.

Başqa bir aspektdən isə milli ideya ideologiyanın sistemləşməsinin, onun mürəkkəb struktur-funksional fenomen kimi mövcudluğunun mümkün olmasını təmin edən əsas faktordur! Milli ideologiya milli ideyanın konseptləşməsi və konseptuallaşması sayəsində meydana gəlir.

Belə görünür ki, milli ideya və milli ideologiya milli özşüurdan qaynaqlanır. Milli özşüur məsələsi problemi daha dərinlərə aparır. Hər şeydən öncə, milli ideya və ideologiyanın milyonların özşüurları ilə sıx bağlılığını nəzərə almaq lazım gəlir. Bu baxımdan "milli şüurun milli ideyaya təsiri necədir və hansı hallarda onlar kollektiv miqyasda cəmiyyətə fayda verir?" kimi sual aktuallaşır.

Problemin fəlsəfi aktuallığı kifayət qədər ciddi faktorlarla əlaqəlidir. Çünki milli özşüur milli şüurun nüvəsi kimi daha çox fərdi şüura bağlıdır. O, başlıca olaraq, qiymətvermə və rasional-dəyər təsəvvürlərinin mərkəzi sistemi kimi çıxış edir. Bu isə fərdin həyatın mənəvi-ruhani cəhətində insanın özünü uyğun müəyyən etməsini ifadə edir. Deməli, milli özşüur ümummilli şüurun bu və ya digər komponentlərinin fərdlər tərəfindən qavranılması səviyyəsini əks etdirir. Özlüyündə özşüurun bu xüsusiyyəti milli ideya və milli ideologiyada milyonlarla fərdin ortaq təsəvvürlərini doğru ifadə etməklə sıx əlaqəlidir. Mürəkkəb sistemlərdə müxtəlifliyin vəhdətini təmin etmək mahiyyətcə mürəkkəb və çətin işdir.

Bu bağlılıqda o da aydın olur ki, milli ideyanı və milli ideologiyanı formalaşdıran lider bütövlükdə milli özşüurun incəliklərinə varmalı və onları toplum üçün səmərəli olan aspektdə sintez etməlidir.

Çox mürəkkəb və dinamik bir prosesdir. İlham Əliyev bunu bacardı! Yüksək səviyyədə bacardı!

(ardı var)

***Füzuli QURBANOV,
XQ-nin analitiki,
fəlsəfə elmləri doktoru***

---

**Son zamanlar dünya bazarında neftin ucuzlaşması davam edir. Bu, bir neçə amillə bağlıdır. Birincisi, Səudiyyə Ərəbistanı Asiya bazarları üçün tədarük etdiyi "Arab Light" markalı neftin bir barelinin qiymətini 1,5–2 dollar ucuzlaşdırıb. Bundan başqa, "Saudi Aramco" şirkəti daha az həcmdə karbohidrogen ixrac etdiyi Şimali Amerika, Aralıq dənizi və Qərbi Avropa üçün fevral fyuçerslərinin qiymətlərini də aşağı salıb. Qərar, bir tərəfdən, zəif qlobal tələblə bağlıdırsa, digər tərəfdən, bir çox neft emalı zavodlarının təmir üçün bağlandığı ənənəvi fevral–mart ayları ərəfəsində Asiya idxalçılarını itirməmək istəyi ilə əlaqədardır.**

# Neft və geosiyasət

İkincisi, neftin qiymətinə dünyada, o cümlədən, ABŞ-da neft tədarükünün yüksək səviyyədə olması təsir edir. Tədarükün artıqlığı isə risk yaratdığından neft bazarına təsirsiz ötüşmür. Nəticədə, Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 1,12 dollar azalaraq 77,64 dollara düşüb. Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 1,16 dollar azalaraq 72,65 dollar təşkil edib.



Amma mövcud vəziyyət uzun müddət davam edə bilməz. Bu, ilk növbədə, Yaxın Şərqdəki münaqişə ilə bağlıdır. Artıq Qırmızı dənizdə gərginlik var, gəmilər və tankerlər husilərin hücumuna məruz qalır. Ticarət gəmiləri və tankerlər hücumlara həssas olduğundan Qırmızı dənizdən yan keçməli olurlar. Nəticədə, əlavə xərclər yaranır, neftin dünya qiymətləri üçün böyük risklər ortaya çıxır. Beləliklə, Yaxın Şərqdəki hərbi itirən neftin qiymətini formalaşdıran real tələb-təklif daha həlledici rol oynamır. Necə deyərlər, bu gün neftə olan qlobal tələb qiymət dəyişkənliyi ilə praktiki olaraq dəyişmir. Bununla yanaşı, neftin etalon növlərinin spot qiymətləri əhəmiyyətli dərəcədə dəyişkənliyə məruz qalır ki, bu da qlobal xarakterli bir çox siyasi şərtlərlə müəyyən edilir.

Neftin qiymətinə böyük dövlətlərin geosiyasi oyunlarının təsirini əvvəlki illərdə də hiss etmişik. Xatırlatmaq yerinə düşər ki, 2008-ci ilin iyulunda "Azeri Light" markalı neftin bir bareli 149,66 ABŞ dollarına satılırdısa, oktyabrda bu göstərici təqribən 2 dəfə aşağı düşdü. "Brent" markalı neftin bir bareli 67 dollara satılırdı. 2009-cu ildə qiymətlər tədricən 60-80 dollar səviyyəsinə yüksəldi, sonra 2011–2013-cü illərdə 100-125 dollara qədər artım müşahidə edildi. 2014-cü ildə əksinə, yenidən 2 dəfə ucuzlaşaraq ilin sonuna minimuma düşdü. Bu, bir tərəfdən, baş verən iqtisadi böhranların nəticəsi hesab olunurdusa, yenə də həlledici amil həmin dövrlərdə dünyanın əsas siyasi oyunçularının yaratdıqları ziqzaqvari dəyişən geosiyasi vəziyyət idi. Maraqlıdır ki, "Azeri Light" markalı neft 2020-ci il aprelin 21-də 15,81 dollara təklif olunurdu.

Məşhur iqtisadçı, Nobel mükafatı laureatı Cozef Stiqlist vaxtında söyləmişdir ki, vaxt gələcək, dünyada neftin ətrafında gedən proseslər o qədər siyasiləşdiriləcək ki, hətta neft ondan fayda götürən ölkələrə belə



münaqişə ilə əlaqədar olaraq Qırmızı dəniz vasitəsilə xammalın tədarükündə fasilələrin yaranma ehtimalı artır.

Regionda geosiyasi vəziyyət gərginləşərsə, bu, neftin bir barelinin qiymətini 83 dollar həddinə çatdıra bilər. Qiymətin yüksək olması isə büdcəsi neftdən asılı olan ölkələrin maraqlarına xidmət edir. Məsələn, Qərbin iqtisadi sanksiyaları ilə üzləşən Rusiya üçün dünya bazarında yanacağın qiymətinin baha olması olduqca faydalıdır. Çünki Ukraynada müharibə aparan Rusiya büdcəsini məhz neft gəlirləri hesabına doldurur.

**Amma indiki halda bu vəziyyət ABŞ-ın maraqlarına uyğun gəlmir. ABŞ-da prezident seçkiləri keçiriləcək və Co Bayden ikinci dəfə seçilmək qərarına gəlib. Neftin qiymətinin artması isə ABŞ-da inflyasiyanın artması ilə müşahidə olunur. Belə ki, son illər ölkədə istehlak mallarının qiyməti 5 faiz artıb və bu da əhalinin sosial vəziyyətinə mənfi təsir göstərib. Seçki ərəfəsində əhalinin sosial vəziyyətinin pisləşməsi təkcə C.Baydenin deyil, ümumilikdə, ABŞ siyasi elitasının fəaliyyət perspektivinə kölgə salır. Bu və digər məsələlər barədə YAP İdarə Heyətinin üzvü, professor Əfsun Sucayev dedi:**

– Son günlər neftin qiymətində enmələr müşahidə edilir. "Qara qızıl"ın qiymətinin tez-tez dəyişməsinə, sözsüz, dünyada qlobal xarakter alan geosiyasi vəziyyət səbəb olub desək, heç də yanılmarıq. Çünki hazırda neft amili dünyanın güc mərkəzləri tərəfindən siyasi təsir vasitəsinə çevrilib. Təsəvvür edin, iqtisadi və enerji aləti rolu oynamalı olan, lakin subyektiv səbəblərdən bu funksiyalarını xoşbəxtlikdən çox bədbəxtlik gətirəcək və onu ölkələrin iqtisadi inkişafı və müdafiə qüdrətinin artırılması vasitəsi kimi daha görmək mümkün olmayacaq. Bir tərəfdən, ən azı, bu il həlli görünməyən Rusiya–Ukrayna müharibəsi və Yaxın Şərqdəki hərbi toqquşmalar, digər tərəfdən, Koreya yarımadasında, eləcə də ABŞ–Çin, ABŞ–İran münasibətlərində təhdidlərin müharibə səviyyəsinə çatdırılması 2024-cü ildə dünya siyasət meydanında yeni geosiyasi sürprizlərin baş verəcəyindən xəbər verir. Belə olan halda neftin qiymətinin azalan, yoxsa artan dinamika üzrə dəyişəcəyini proqnozlaşdırmaq olduqca çətindir. Buna heç kim təminat vermir.

**Ə.Sucayev daha sonra bildirdi k, neftin kəskin dəyişən qiymətinin sabitləşməsi baş verən münaqişələrin sona çatması, münasibətlərin normallaşmasından asılı olacaq:**

– Çünki qeyd olunan bütün geosiyasi hadisələr dünya neft bazarına birbaşa və ya dolayı təsir edir. Əlbəttə, siyasi təsirlər olmazsa, iqtisadi qanunauyğunluqlardan irəli gələn tələb-təklif amili neft bazarında tarazlıq yaradar, hər tərəfi qane edən sabit qiymət formalaşar. Belə qarışıq geosiyasi vəziyyəti düzgün nəzərə alan Azərbaycan hökuməti haqlı olaraq bu ilin dövlət büdcəsindəki bütün hesablamaları neftin bir bareli üçün 60 dollar səviyyəsində götürüb. Bu, həm də onu deməyə əsas verir ki, iqtisadiyyatın diversifikasiyası və neftdən asılılığın aradan qaldırılması dövlətin iqtisadi siyasətinin əsas prioriteti olaraq qalacaq.

***Pünhan ƏFƏNDİYEV
XQ***

# Vətəndaşların seçki maarifləndirməsi



**Növbədənkənar prezident seçkiləri ilə əlaqədar maarifləndirmə çərçivəsində tədbirlər davam edir. Ombudsman Aparatı və Mərkəzi Seçki Komissiyasının birgə təşkilatçılığı ilə "Vətəndaşların seçki hüququnun təmini" mövzusunda keçirilən tədbirin əsas məqsədi maarifləndirmə olub. Tədbirdə hər iki qurumun əməkdaşları, həmçinin media nümayəndələri iştirak ediblər.**

Tədbiri giriş sözü ilə açan Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov seçkilərin demokratiyanın əsas meyarı və hər bir vətəndaşın bu prosesə məsuliyyətlə yanaşmalı olduğunu, seçki proseslərində kütləvi informasiya vasitələrinin üzərinə düşən mühüm vəzifələrdən danışıb. O, MSK tərəfindən müvafiq dövlət qurumları ilə birgə seçki qanunvericiliyinin və təcrübəsinin təkmilləşdirilməsi istiqamətində görülmüş tədbirlər barəsində geniş məlumat verib.

Ombudsman Səbinə Əliyeva MSK ilə birgə paytaxt və regionları əhatə edərək həyata keçiriləcək maarifləndirmə tədbirlərinin məhz seçkiyə hazırlıq məqsədilə həyata keçirildiyini, seçki hüquqlarının, seçki prosedurlarının, üzərimizə düşən vəzifələrin daha aydın izah olunması məqsədini daşıdığını vurğulayıb.

Ombudsman, həmçinin qeyd edib ki, hər bir xalqın öz iradəsini ifadə etməsinin ən mühüm forması dövlət hakimiyyəti orqanlarına demokratik və azad seçkilər yolu ilə öz münasibətini bildirməsidir və bu proses xalqımızın və demokratik hüquqi dövlət olan dövlətimizin həyatında da mühüm əhəmiyyət kəsb edir. S.Əliyeva, habelə dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının məhz demokratik və ədalətli seçkilər vasitəsilə formalaşdırıldığını da diqqətə çatdırıb. Bildirilib ki, ombudsman təsisatı seçki hüquqları da daxil olmaqla, vətəndaş və siyasi hüquqların daha səmərəli təmini və müdafiəsi sahəsində ardıcıl işlər görür, ölkəmizdə seçki hüquqlarının təmini vəziyyətini daim diqqətdə saxlayır, vətəndaşların seçki hüququnun müdafiəsi və təmin edilməsi ilə bağlı vəziyyəti öyrənir, eləcə də Mərkəzi Seçki Komissiyası ilə birgə silsilə maarifləndirmə tədbirləri təşkil edir.

S.Əliyeva seçki hüququnun daha səmərəli təmini məqsədilə hər bir kəsin, o cümlədən, əlilliyi olan şəxslərin fərdi şəkildə müstəqil səs verməsi və iradəsinin ifadə etməsi, vətəndaşlara öz seçimini etmək üçün şəraitin yaradılması, gözdən əlilliyi olan seçicilərin Brayl əlifbası ilə yazılmış trafaretlər-seçki bülletenləri vasitəsilə səs vermələrinə yaradılmış imkanların genişləndirilməsinin xüsusi önəm daşıdığını diqqətə çatdırıb. O, eşitmə qabiliyyəti məhdud olan seçicilərin məlumatlandırılması məqsədilə bütün videoçarxların alt yazılı hazırlanması təcrübəsinin davam etdirilməsini, maarifləndirmə məqsədilə mövzu ilə bağlı daha çox videoçarxların çəkilməsini seçki hüququnun təmini baxımından zəruri olduğunu bildirib.

Sonra MSK-nın katibi Mikayıl Rəhimov "Növbədənkənar prezident seçkiləri ərəfəsində Mərkəzi Seçki Komissiyası tərəfindən görülən işlər" mövzusunda seçkilər ərəfəsində MSK tərəfindən görülən işlər və həyata keçiriləcək tədbirlər barədə geniş məlumat verib.

"Müşahidəçilik institutunun əhəmiyyəti və Ombudsmanın bu prosesdə rolu" barəsində danışan Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı seçki prosesi zamanı müşahidəçilik institutunun tətbiqinin əhəmiyyətinin, onun seçki prosesində aşkarlıq və ədalətlilik prinsiplərinin, habelə seçki hüququnun daha səmərəli təmininə xidmət etdiyini bildirib. O, eyni zamanda, müşahidəçilik institutunun seçki prosesi zamanı vətəndaşların seçki hüququnun təmini sahəsində yarana biləcək çatışmazlıqların müəyyən edilməsi ilə yanaşı, siyasi proseslərdə vətəndaş iştirakçılığının artırılmasına və seçki prosesinin konkret ölkənin qanunvericiliyinə, beynəlxalq standartlara uyğun keçirilməsini qiymətləndirməyə imkan verdiyini vurğulayıb.

A.Səfixanlı daha sonra Ombudsman təsisatının müşahidəçilik təcrübəsi barədə məlumat verib.

**XQ**

# "Prezident seçkilərində medianın rol və vəzifələri"



**Yanvarın 12-də Mərkəzi Seçki Komissiyası və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə "Prezident seçkilərində medianın rol və vəzifələri" mövzusunda praktiki seminar keçirilib.**

Tədbirdə əsas məqsəd media nümayəndələrinin növbədənkənar prezident seçkilərində məlumatlılığının artırılması və fəaliyyətlərinin səmərəliliyinin daha da yüksəldilməsi olub. Seminarda MSK və MEDİA rəsmiləri ilə yanaşı, 20 media subyektinin nümayəndələri də iştirak edib.

Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli seçki prosesi ilə bağlı məlumatların ictimaiyyətə düzgün və effektiv çatdırılmasının vacibliyini vurğulayıb və bu məsuliyyətli işdə media subyektlərinin üzərinə böyük vəzifə düşdüyünü deyib. O, media nümayəndələri ilə məlumat mübadiləsinin aparılması və peşəkar media fəaliyyətinin təşkili ilə əlaqədar seminarın jurnalistlər üçün faydalı olacağını qeyd edib.

Mərkəzi Seçki Komissiyasının üzvü İlkin Şahbazov Azərbaycan Respublikasının Konstitusiyasında əsas insan hüquq və azadlıqlarından biri kimi təsbit olunan seçki hüququnun nəzəri aspektləri, mənsubiyyəti və realizə imkanlarından danışıb. O, Seçki Məcəlləsinin seçkilərin hazırlanıb keçirilməsi prosesində və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunmasında müxtəlif statuslu seçki subyektlərinə münasibətdə rol və vəzifələr müəyyən etdiyini diqqətə çatdırıb. Media subyektləri də istər seçki prosesində aşkarlığın və şəffaflığın təşəkkül tapmasında, istərsə də seçkiqabağı təşviqat mərhələsində və səsvermə günü öz peşə fəaliyyətlərini yerinə yetirərkən seçki qanunvericiliyinin tələblərinə dəqiqliklə riayət etməlidirlər. MSK nəzdində fəaliyyət göstərən və əsasən, jurnalistlərdən ibarət olan Mətbuat qrupu mediada seçkiqabağı təşviqat üçün Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydalara riayət olunmasına nəzarəti həyata keçirir.

MSK Katibliyinin Media və Kommunikasiya şöbəsinin müdiri Şahin Əsədli seçkilərin mediada işıqlandırılması, ən mühüm mərhələlərdən biri olan seçkiqabağı təşviqatla bağlı qanunvericilikdə nəzərdə tutulmuş prosessual müddətlər, seçkiqabağı təşviqatı aparmaq hüququna malik olan subyektlər, habelə səsvermə günü prosedurlar barədə danışıb. Bildirib ki, prezident seçkilərində qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, eləcə də namizədi qeydə alınmış siyasi partiyaların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri qanunla qadağan edilməyən forma və üsulların müstəqil müəyyənləşdirməklə, azad və sərbəst şəkildə seçkiqabağı təşviqat aparmaq hüququna malikdirlər.

Ş.Əsədli tədbirdə, həmçinin seçki günü prosedurları ilə bağlı praktiki məşğələ formatında ətraflı məlumat verib. O, seçki məntəqəsinin açılışı, səsvermə hərəkətləri, seçki günü müstəsna hallar və digər bu kimi prosedurların həyata keçirilməsi və tənzimlənməsinin qanunvericilik əsaslarını iştirakçıların diqqətinə çatdırıb

Seminarın sonunda jurnalistləri maraqlandıran məsələlərə aydınlıq gətirilib.

**XQ**

# Polis səsvermə günündə

**Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Gəncədə Mərkəzi Seçki Komissiyasının Daxili İşlər Nazirliyi ilə birgə layihəsi çərçivəsində polisin seçkilərdə xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsinə həsr olunan növbəti seminar-müşavirə keçirilib.**





Seminar-müşavirədə Mərkəzi Seçki Komissiyasının və Daxili İşlər Nazirliyinin nümayəndələri, dairə seçki komissiyalarının sədrləri, polis idarələri və şöbələrinin əməkdaşları iştirak ediblər.

Mərkəzi Seçki Komissiyasının üzvü İlham Məmmədov seçki qanunvericiliyi, seçki komissiyalarının sistemi, seçki prosesi, onun mərhələləri və müddətləri, seçki komissiyaları və polis orqanlarının birgə fəaliyyətinin əsasları mövzularına toxunub.

Sonra DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin nümayəndələri Oqtay Tağıyev və Sənan Əliyev seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün ictimai qaydanın təmin edilməsi ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələri, seçkidən sonrakı dövrdə seçki bülletenlərinin və digər seçki sənədlərinin dairə və Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı təhlükəsizlik tədbirlərinin görülməsi mövzularında çıxışlar ediblər.

Həmçinin tədbirdə Gəncə Şəhər Baş Polis İdarəsinin rəis müavini Mehman İbrahimov və Mərkəzi Seçki Komissiyasının üzvü Tofiq Həsənov seçki subyektləri, onların hüquq və vəzifələri, seçki subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilənin yolverilməzliyi mövzularında danışıblar.

**XQ**

# Prezident seçkilərinə hazırlıq

## "Zəfər seçkiləri"

***Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov deyib ki, prezident seçkilərini qeyri-rəsmi olaraq "Zəfər seçkiləri" adlandırırıq. Çünki bu, azad olunmuş ərazilərdə və bütün Azərbaycanda keçiriləcək ilk seçkidir. Azad olunan ərazilərdə yaradılan 26 seçki məntəqəsinin 20 mindən çox seçicisi var.***

M.Pənahov qeyd edib ki, səsvermədə öz doğma yurduna qayıdanlarla birlikdə, azad olunmuş ərazilərdə tikinti-quraşdırma işlərində çalışan insanlar da seçki hüququ olan şəxslərdir. Onlar da səsvermədə iştirak edəcəklər. M.Pənahov media qurumlarının və subyektlərinin də işğaldan azad edilmiş ərazilərdə seçki prosesində fəal iştirak etmələrinin zəruriliyini bildirib. Prezident seçkilərini Azərbaycanda son illərdə formalaşmış yüksək əhval-ruhiyyəyə uyğun başa vurmalıyıq. Azərbaycanın ərazi bütövlüyü artıq təmin olunub. İlk dəfə olaraq, Azərbaycanın bütün bölgələrində, beynəlxalq miqyasda tanınan ərazilərində seçki keçiriləcək.

## Ombudsman Aparatı monitorinqlər keçirəcək

***Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı növbədənkənar prezident seçkiləri ilə bağlı monitorinqlərin keçiriləcəyini bildirib. Monitorinqlər ilkin olaraq seçicilərlə görüşlər üçün ayrılmış açıq və qapalı yerlərdə aparılacaq.***

Seçki hüququnun pozulması ilə bağlı Ombudsmana indidən müraciətlər daxil olur. Bu müraciətlər operativ olaraq Mərkəzi Seçki Komissiyası ilə birlikdə araşdırılır.

## 6 min 319 seçki məntəqəsi yaradılıb

***Seçki dairələrinin yenidən təşkili və azad edilmiş ərazilərdə yeni seçki məntəqələrinin təşkilindən sonra ölkə üzrə seçki məntəqələrinin sayı açıqlanıb.***

Bu barədə Mərkəzi Seçki Komissiyasının katibi Mikayıl Rəhimov məlumat verib. O deyib ki, 125 seçki dairəsi üzrə 6319 seçki məntəqəsi var. Bu seçki məntəqələrinin 26-sı işğaldan azad olunmuş ərazilərdə yerləşir.



## Müşahidəçilərin sayı 50 minə çatacaq

***"Seçki kimi mürəkkəb prosesdə qanunvericiliyin tələblərinin pozulmamasına çalışırıq. Müxtəlif qurumlarla həyata keçirdiyimiz maarifləndirmə tədbirlərinin də məqsədi budur və bu format ilkdir".***

Bu fikri Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov səsləndirib. O deyib ki, Azərbaycanda keçirilən seçkiləri daxili aktorlarla yanaşı, xarici təşkilatlar da izləyirlər. Qeydə alınmış 7 namizədin 5-i siyasi partiya təmsilçiləridir. Hazırda müşahidəçilərin sayı 20 minə çatıb. Hesab edirəm ki, seçkiyə qədər bu rəqəm 50 minə yaxınlaşacaq. Artıq beynəlxalq qurumlar da Azərbaycanın seçki prosesi ilə bağlı böyük yol qət etdiyini bildirirlər.

## Həssas qrupun seçkidə iştirakı təmin ediləcək

***Ombudsman Səbinə Əliyeva deyib ki, həssas qrupdan olan vətəndaşlarımızın seçki prosesində iştirakının təmin edilməsi istiqamətində işlər aparılır.***

Hamı bir vətəndaş olaraq seçkilərdə fəal iştirak etməli, ölkəmizin ictimai-siyasi həyatında mühüm rol oynayacaq bu prosesə yaxından qoşulmalıdır. Fiziki qüsurlu, əlil, görmə və eşitmə qabiliyyəti məhdud olan vətəndaşların seçki prosesində iştirakını təmin etmək məqsədilə lazımi işlər görülür.

***Əliqismət BƏDƏLOV***
**XQ**

# Seçki könüllülərinin aksiyası

**Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi və Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı ilə "Gəncin səsi, Gələcəyin səsi!", "Səs ver, Gələcəyini qoru!" şüarları ilə keçirilən səyyar görüşlər davam edir. Region gənclərini fəal şəkildə səsvermə hüququndan istifadəyə təşviq etmək və seçki prosesləri ilə bağlı maarifləndirmə aparmaq məqsədilə ötən ilin dekabrın 28-dən etibarən ölkənin şəhər və rayonlarına edilən səfərlərin sayı 22-yə çatıb.**

Seçki könüllüləri tərəfindən həyata keçirilən səyyar görüşlər yanvarın 11 və 12- də Culfa, Şahbuz, Qəbələ, Ağdam və İsmayıllı rayonlarında baş tutub. Bugünədək Şirvan, Sabirabad, Şamaxı, Ağdaş, Ağcabədi, Mingəçevir, Gəncə, Cəlilabad, Naxçıvan, Masallı, Goranboy, Şərur, Qazax, Lənkəran, Astara, Şəki və Ordubadda həyata keçirilən və artıq yüzlərlə gənci məlumatlandıran seçki könüllüləri 7 fevral tarixinə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezident seçkilərində gəncləri fəal seçiciyə çevirməyi qarşıya məqsəd qoyaraq məsuliyyətli vətəndaş missiyasını uğurla icra edib.

Avtobuslarla edilən səfərlər zamanı qurulan platformalarda Culfa, Şahbuz, Qəbələ, Ağdam və İsmayıllı gəncləri, xüsusən də 18 yaşına çatmış və ilk dəfə səsvermə hüququna sahib olan vətəndaşlar seçki sistemi, seçicinin hüququ, seçkidə vətəndaşın iştirakının önəmi barədə məlumatlanma ilə yanaşı, təşkil edilmiş intellektual və masaüstü oyunlarda, rəqəmsal alətlərdən istifadə qaydalarının mənimsənilməsində iştirak edərək maarifləndirici və əyləncəli zaman keçiriblər.

**XQ**

# 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində qeydə alınmış namizədlərin, namizədləri qeydə alınmış siyasi partiyaların seçicilərlə görüşlərinin keçirilməsi üçün ayrılmış yerlərin SİYAHISI

| Sıra №. | Şəhər, rayon | Seçki dairəsi | Açıq yer (ünvanı) | Qapalı yer (ünvanı) |
|---|---|---|---|---|
| 1 | Şərur | 1 saylı Şərur-Sədərək | Şərur Olimpiya İdman Kompleksinin stadionu | Şərur rayon Mədəniyyət Sarayı |
| 2 | Sədərək | 1 saylı Şərur-Sədərək | Sədərək rayon Mərkəzi stadionu | Sədərək rayon Mədəniyyət Sarayı |
| 3 | Kəngərli | 2 saylı Şərur-Kəngərli | Qıvraq qəsəbə stadionu | Kəngərli rayon Mədəniyyət Sarayı |
| 4 | Babək | 3 saylı Babək-Şahbuz-Kəngərli | Babək şəhər stadionu | Babək rayon Mədəniyyət Sarayı |
| 5 | Şahbuz | 3 saylı Babək-Şahbuz-Kəngərli | Şahbuz rayon Mədəniyyət Sarayının qarşısındakı meydan | Şahbuz rayon Mədəniyyət Sarayı |
| 6 | Naxçıvan | 4 saylı Naxçıvan şəhər | Naxçıvan MR Mərkəzi stadionu | Naxçıvan, Heydər Əliyev Sarayı |
| 7 | Culfa | 5 saylı Babək-Naxçıvan-Culfa | Culfa şəhər stadionu | Culfa rayon Mədəniyyət Sarayı |
| 8 | Ordubad | 6 saylı Ordubad-Culfa | Ordubad şəhər stadionu | Ordubad rayon Mədəniyyət Sarayı |
| 9 | Səbail | 7 saylı Səbail | 20-ci yaşayış sahəsi, 6 saylı Peşə məktəbinin yaxınlığındakı meydan | Bakı İdman Sarayı |
| 0 | Binəqədi | 8 saylı Binəqədi birinci | 8-ci mikrorayon, İ.Dadaşov küçəsi 157 ünvanında yerləşən Tennis Akademiyasının qarşısı | Tennis Akademiyasının örtülü zalı |
| | | 9 saylı Binəqədi ikinci | M.Rəsulzadə qəsəbəsi, R.Behbudov küçəsi, Dendroloji parkın ərazisi | Azadlıq prospekti 181 ünvanında yerləşən Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının akt zalı |
| | | 10 saylı Binəqədi üçüncü | Binəqədi qəsəbə İdman Sağlamlıq Kompleksinin stadionu | Biləcəri qəsəbəsi, Yəhya Hüseynov küçəsi 18 ünvanında yerləşən Dəmiryolçuların Mədəniyyət evi |
| | | 11 saylı Binəqədi-Qaradağ | Xocəsən qəsəbə stadionu | Xocəsən qəsəbəsinin Cökəli küçəsində yerləşən 149 saylı tam orta məktəbin akt zalı |
| 11 | Xəzər | 12 saylı Xəzər birinci | Mərdəkan qəsəbəsi, S.Yesenin küçəsi 2 ünvanında yerləşən Mərdəkan Mədəniyyət Sarayının qarşısındakı meydan | Mərdəkan qəsəbəsi, S.Yesenin küçəsi 2 ünvanında yerləşən Mərdəkan Mədəniyyət Sarayı |
| | | 13 saylı Xəzər ikinci | Qala qəsəbəsi, “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisindəki boş ərazi | Binə qəsəbəsi Mədəniyyət Mərkəzi |
| | | 14 saylı Xəzər-Pirallahı | Türkan qəsəbə Mədəniyyət Mərkəzinin qarşısı | Şüvəlan qəsəbəsi Mədəniyyət Mərkəzi |
| 2 | Pirallahı | 14 saylı Xəzər-Pirallahı | Pirallahı qəsəbəsi, S.Vurğun küçəsi, 56a ünvanında yerləşən meydan | V.Mustafazadə adına Mədəniyyət Mərkəzi |
| 3 | Yasamal | 15 saylı Yasamal birinci | Yeni Yasamal 2 yaşayış massivində yerləşən “Qismət” şadlıq sarayının qarşısındakı meydan | Şərifzadə küçəsi 204 ünvanında yerləşən 2 nömrəli Bakı Baza Tibb Kollecinin akt zalı |
| | | 16 saylı Yasamal ikinci | Ş.Mehdiyev küçəsi 577-ci məhəllədəki meydan | Ayna Sultanova küçəsi 13 ünvanında yerləşən Azərbaycan Texniki Universitetinin örtülü idman zalı |
| | | 17 saylı Yasamal üçüncü | Bakıxanov küçəsi 2 ünvanında yerləşən meydan | B.Bağırova küçəsində yerləşən Respublika Uşaq Filarmoniyasının akt zalı |
| 4 | Nərimanov | 18 saylı Nərimanov-Nizami-Binəqədi | F.Yusifov küçəsi ilə F.X.Xoyski prospektinin kəsişməsində yerləşən məhəllədaxili meydan | Koroğlu Rəhimov küçəsi 26 ünvanında yerləşən ABU Arena Hall |
| | | 19 saylı Nərimanov birinci | A.Nemətulla küçəsi 23 ünvanında yerləşən məhəllədaxili meydan | H.Əliyev prospekti 83A ünvanında yerləşən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Geofizika və Geologiya İdarəsinin akt zalı |
| | | 20 saylı Nərimanov ikinci | A.Nemətulla küçəsi 49Q ünvanında yerləşən məhəllədaxili meydan | M.Kaveroçkin küçəsi 34 ünvanında yerləşən Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının akt zalı |
| 5 | Nəsimi | 21 saylı Nəsimi-Binəqədi | 20 Yanvar küçəsi 21b saylı binanın qarşısındakı məhəllə stadionu | Ə.Salamzadə küçəsi 28 ünvanında yerləşən Asiya Universitetinin akt zalı |
| | | 22 saylı Nəsimi-Yasamal | M.Qardaşları küçəsi 113 ünvanında yerləşən “Bakı Tikiş Evi” ATSC-nin qarşısındakı meydan | M.Sənani küçəsi 12 ünvanında yerləşən Qızlar Universitetinin akt zalı |
| | | 23 saylı Nəsimi-Səbail | Xətai prospekti 42 ünvanında yerləşən “Azintur” ASC-nin qarşısındakı meydan | D.Əliyeva küçəsi 230 ünvanında yerləşən “Azərbaycan Dəmir Yolları“ QSC-nin akt zalı |
| 6 | Nizami | 24 saylı Nizami birinci | E.Süleymanov küçəsi 120a ünvanında yerləşən idman meydançası | Keşlə qəsəbəsi, O.Vəliyev küçəsi 1 ünvanında yerləşən Mədəniyyət evi |
| | | 25 saylı Nizami ikinci | B.Nuriyev küçəsi 69 ünvanında yerləşən idman meydançası | İ.Məmmədov küçəsi 148 ünvanında yerləşən Mədəniyyət evi |
| 7 | Sabunçu | 26 saylı Sabunçu birinci | Bakıxanov qəsəbəsi, Murad Nağıyev küçəsi 25 ünvanında yerləşən idman meydançası | Sabunçu rayonu Bakı Gənclər Mərkəzi |
| | | 27 saylı Sabunçu ikinci | Balaxanı qəsəbəsi, M.Ə.Sabir küçəsi 1 ünvanında yerləşən meydan | Sabunçu qəsəbəsi, Ə.Məmmədəliyev küçəsi 2 ünvanında yerləşən “Abşeron Yüksək Gərginlikli Elektrik Şəbəkəsi” MMC-nin akt zalı |
| | | 28 saylı Sabunçu üçüncü | Maştağa qəsəbəsi, M.Hüseynzadə küçəsi 1 ünvanında yerləşən “Görüş” şadlıq sarayının qarşısındakı meydan | Maştağa qəsəbəsi Mədəniyyət Mərkəzi |
| | | 29 saylı Sabunçu dördüncü | Kürdəxanı qəsəbəsi, Vüqar Nəcəfov küçəsində yerləşən idman meydançası | Nardaran qəsəbəsi Mədəniyyət Mərkəzi |
| 8 | Suraxanı | 30 saylı Suraxanı birinci | Hövsan qəsəbəsi Mədəniyyət Sarayının qarşısındakı meydan | Hövsan qəsəbəsi Mədəniyyət Sarayı |
| | | 31 saylı Suraxanı ikinci | Qaraçuxur qəsəbəsi, Əhməd Mehbalıyev küçəsində yerləşən “Neftçilər parkı” | Qaraçuxur qəsəbəsi, Qurban Abbasov adına Mədəniyyət evi |
| | | 32 saylı Suraxanı üçüncü | Bülbülə qəsəbəsi, “ATEF” Şirkətlər Qrupu MMC-nin binasının qarşısındakı meydan | Suraxanı rayonu, Səttar Bəhlulzadə adına “Sərhədçi” Mədəniyyət Mərkəzi |
| 9 | Xətai | 33 saylı Xətai birinci | Lütfizadə küçəsi ilə Məzahir Rüstəmov küçəsinin kəsişməsində yerləşən məhəllə | S.Ə.Şirvani küçəsi 3 ünvanında yerləşən Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinin akt zalı |
| | | 34 saylı Xətai ikinci | Aşıq Ələsgər küçəsi 21 ünvanında yerləşən idman meydançası | Neapol küçəsi 8 ünvanında yerləşən 171 nömrəli məktəbin akt zalı |
| | | 35 saylı Xətai üçüncü | Zığ yolu 3 ünvanında yerləşən meydan | H.Z.Tağıyev adına Toxuculuq-tikiş kombinatının klubu |
| | | 36 saylı Xətai-Suraxanı | İ.İsmayılov küçəsi 30 ünvanında yerləşən idman meydançası | Gəncə prospekti 99 ünvanında yerləşən M.Ə.Sabir adına kitabxananın akt zalı |
| 0 | Qaradağ | 37 saylı Qaradağ | Sahil qəsəbəsi, V.Ələkbərov küçəsi, SOCAR-ın Texnoloji Nəqliyyat Sahəsinin qarşısındakı meydan | Sahil qəsəbəsi, Salyan şosesi 38 ünvanında yerləşən “BOS Shelf” MMC-nin akt zalı |
| 1 | Gəncə | 38 saylı Gəncə birinci | “Zəfər Tağı” Meydanı | Gəncə Dövlət Universitetinin akt zalı |
| | | 39 saylı Gəncə ikinci | Gəncə şəhər stadionunun məşq meydançası | Azərbaycan Dövlət Aqrar Universitetinin akt zalı |
| | | 40 saylı Gəncə üçüncü | Füzuli parkındakı meydan | Azərbaycan Texnologiya Universitetinin akt zalı |
| | | 41 saylı Gəncə-Samux-Goranboy | Qələbə Parkı | Gəncə şəhəri 3 nömrəli tam orta məktəbin akt zalı |
| 2 | Sumqayıt | 42 saylı Sumqayıt birinci | Kimyaçılar Mədəniyyət Sarayının qarşısındakı meydan | Kimyaçılar Mədəniyyət Sarayı |
| | | 43 saylı Sumqayıt ikinci | Lüdviqsafen parkındakı meydan | Sumqayıt şəhər Uşaq İncəsənət Məktəbinin akt zalı |
| | | 44 saylı Sumqayıt üçüncü | Sumqayıt Muğam Mərkəzinin qarşısındakı meydan | Sumqayıt Paralimpiya İdman Kompleksinin örtülü zalı |
| | | 45 saylı Sumqayıt dördüncü | Sumqayıt Dram Teatrının qarşısındakı meydan | Sumqayıt Dram Teatrı |
| | | 46 saylı Sumqayıt beşinci | “Kapital Bank Arena” stadionu | Nəriman Nərimanov adına Mədəniyyət evi |
| | | 47 saylı Sumqayıt-Abşeron-Qaradağ | Sumqayıt Olimpiya İdman Kompleksinin stadionu | Sumqayıt Olimpiya İdman Kompleksinin örtülü zalı |
| 3 | Abşeron | 48 saylı Abşeron birinci | Abşeron Olimpiya İdman Kompleksinin stadionu | Abşeron Olimpiya İdman Kompleksinin örtülü zalı |
| | | 49 saylı Abşeron ikinci | Masazır “Əlincə” İdman Klubunun stadionu | Abşeron rayon Mədəniyyət Mərkəzi |
| | | 50 saylı Abşeron üçüncü | Fatmayı kənd stadionu | Fatmayı kəndində “Töhfə” şadlıq sarayı |
| 4 | Şirvan | 51 saylı Şirvan | Şirvan Olimpiya İdman Kompleksinin stadionu | Şirvan şəhər Mədəniyyət Mərkəzi |
| 5 | Yevlax | 52 saylı Yevlax | Yevlax şəhər stadionunun qarşısı | Yevlax şəhər “Bəşir Səfəroğlu adına Xalq Teatrı” |
| | | 53 saylı Yevlax-Mingəçevir | Aran qəsəbə stadionu | Aran qəsəbə Mədəniyyət evi |
| 6 | Mingəçevir | 54 saylı Mingəçevir | Y.Məmmədzadə adına şəhər stadionu | Mingəçevir şəhər Heydər Əliyev Mərkəzinin akt zalı |
| 7 | Siyəzən | 55 saylı Siyəzən-Quba-Xızı | Siyəzən şəhər stadionu | Siyəzən rayon Mədəniyyət Mərkəzi |
| 8 | Xızı | 55 saylı Siyəzən-Quba-Xızı | Xızı şəhərinin girişindəki boş sahə | Giləzi qəsəbə Folklor klubu |
| 9 | Şabran | 56 saylı Şabran-Xaçmaz | Şabran şəhər stadionu | Şabran rayon Mədəniyyət Mərkəzi |
| 0 | Xaçmaz | 57 saylı Xaçmaz şəhər | Xaçmaz Olimpiya İdman Kompleksinin stadionu | Xaçmaz Olimpiya İdman Kompleksinin örtülü zalı |
| | | 58 saylı Xaçmaz kənd | Ləcət kənd stadionu | Xudat şəhər Mədəniyyət evi |
| 1 | Quba | 59 saylı Quba | Quba Olimpiya İdman Kompleksinin stadionu | Olimpiya İdman Kompleksinin örtülü zalı |
| | | 60 saylı Quba-Qusar | Birinci Nügədi kənd stadionu | Amsar kənd Mədəniyyət evi |
| 2 | Qusar | 61 saylı Qusar | Qusar şəhəri, general Mahmud Əbilov adına meydan | Qusar şəhər İncəsənət Məktəbinin akt zalı |
| 33 | Kürdəmir | 62 saylı Kürdəmir | Kürdəmir Olimpiya İdman Kompleksinin qarşısındakı meydan | Kürdəmir Olimpiya İdman Kompleksinin örtülü zalı |
| 4 | Hacıqabul | 63 saylı Hacıqabul-Kürdəmir | Hacıqabul şəhər stadionu | Hacıqabul rayon Mədəniyyət Mərkəzi |
| 35 | Salyan | 64 saylı Salyan | Salyan şəhər mərkəzi meydanı | Salyan rayon Mədəniyyət Mərkəzi |
| | | 65 saylı Salyan-Biləsuvar-Neftçala | Qarabağlı kənd stadionu | Yenikənd kənd Mədəniyyət evi |
| 6 | Saatlı | 66 saylı Saatlı | Saatlı Olimpiya İdman Kompleksinin stadionu | Saatlı rayon Mədəniyyət Mərkəzi |
| 7 | Sabirabad | 67 saylı Sabirabad | Sabirabad şəhər stadionu | Sabirabad rayon Mədəniyyət Mərkəzi |
| | | 68 saylı Sabirabad-Şirvan | Qaratəpə kənd stadionu | Şıx Salahlı kənd Sənətkarlıq evi |
| 8 | Biləsuvar | 69 saylı Biləsuvar | Biləsuvar şəhər Mərkəzi parkındakı meydan | Biləsuvar rayon Gənclər Evi |
| 9 | Neftçala | 70 saylı Neftçala | Neftçala şəhər stadionu | Neftçala Olimpiya İdman Kompleksinin örtülü zalı |
| 40 | Cəlilabad | 71 saylı Cəlilabad şəhər | Cəlilabad Olimpiya İdman Kompleksinin stadionu | Cəlilabad Olimpiya İdman Kompleksinin örtülü zalı |
| | | 72 saylı Cəlilabad kənd | Günəşli kənd stadionu | Alar kənd Mədəniyyət evi |
| 1 | Masallı | 73 saylı Masallı-Cəlilabad | Masallı Olimpiya İdman Kompleksinin stadionu | Masallı rayon Mədəniyyət Mərkəzi |
| | | 74 saylı Masallı | Boradigah İdman Kompleksinin qarşısındakı meydan | Boradigah qəsəbə bələdiyyəsinin inzibati binasının akt zalı |
| 42 | Yardımlı | 75 saylı Yardımlı-Masallı | Yardımlı şəhər stadionu | Yardımlı rayon Mədəniyyət Mərkəzi |
| 43 | Lənkəran | 76 saylı Lənkəran-Masallı | Şağlaser kənd stadionu | Şağlaser kənd Mədəniyyət evi |
| | | 77 saylı Lənkəran şəhər | Lənkəran şəhər Mədəniyyət Mərkəzinin qarşısındakı meydan | Lənkəran şəhər Mədəniyyət Mərkəzi |
| | | 78 saylı Lənkəran kənd | Girdəni kənd stadionu | Girdəni kənd “Röyal” şadlıq evi |
| 4 | Astara | 79 saylı Astara | Park-bulvar ərazisindəki meydan | Astara rayon Mədəniyyət Mərkəzi |
| 5 | Lerik | 80 saylı Lerik-Astara | Lerik şəhəri “Gənclik” stadionu | Lerik rayon Mədəniyyət Mərkəzi |
| 46 | İmişli | 81 saylı İmişli | İmişli Olimpiya İdman Kompleksinin stadionu | İmişli Olimpiya İdman Kompleksinin örtülü zalı |
| | | 82 saylı İmişli-Saatlı | “İmişli Aqrolizinq” ASC-nin həyəti | Allahmədətli kənd klubu |
| 7 | Beyləqan | 83 saylı Beyləqan | Beyləqan Olimpiya İdman Kompleksinin stadionu | Beyləqan rayon Mədəniyyət Mərkəzi |
| 8 | Füzuli | 84 saylı Füzuli | Horadiz şəhəri, Qəhrəmanlar parkının qarşısındakı meydan | Horadiz şəhər Muğam Mərkəzi |
| | | 84 saylı Füzuli | Füzuli şəhərinin mərkəzi meydanı | Füzuli şəhər Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin akt zalı |
| 9 | Ağcabədi | 85 saylı Füzuli-Ağcabədi | Hindarx qəsəbə stadionu | Hindarx qəsəbəsi “Yunis” şadlıq sarayı |
| | | 86 saylı Ağcabədi | Ağcabədi Olimpiya İdman Kompleksinin stadionu | Ağcabədi rayon Mədəniyyət Mərkəzi |
| 0 | Qobustan | 87 saylı Qobustan-Şamaxı-İsmayıllı | Qobustan şəhər stadionu | Qobustan rayon Mədəniyyət evi |
| 1 | Şamaxı | 88 saylı Şamaxı | Şamaxı Olimpiya İdman Kompleksinin stadionu | Şamaxı rayon Olimpiya İdman Kompleksinin örtülü zalı |
| 52 | İsmayıllı | 89 saylı İsmayıllı | İsmayıllı şəhəri, Heydər Əliyev Parkının “Yay filarmoniyası” | İsmayıllı rayon Mədəniyyət Mərkəzi |
| 3 | Ağsu | 90 saylı Ağsu | Ağsu şəhər stadionu | Ağsu rayon Mədəniyyət Sarayı |
| 54 | Göyçay | 91 saylı Göyçay | İnçə kənd stadionu | Bığır kənd Mədəniyyət evi |
| | | 92 saylı Göyçay-Ağdaş | Göyçay şəhər stadionu | Göyçay Olimpiya İdman Kompleksinin örtülü zalı |
| 5 | Ağdaş | 93 saylı Ağdaş | Ağdaş Olimpiya İdman Kompleksinin stadionu | Ağdaş rayon Heydər Əliyev Mərkəzinin akt zalı |
| 56 | Ucar | 94 saylı Ucar | Ucar rayon Gənclər Mərkəzinin qarşısındakı meydan | Ucar rayon Mədəniyyət Mərkəzi |
| 57 | Zərdab | 95 saylı Zərdab-Kürdəmir-Ucar | Zərdab şəhər stadionu | Zərdab rayon Heydər Əliyev Mərkəzinin akt zalı |
| 8 | Goranboy | 96 saylı Goranboy | Goranboy Olimpiya İdman Kompleksinin stadionu | Goranboy Olimpiya İdman Kompleksinin örtülü zalı |
| 9 | Tərtər | 97 saylı Tərtər-Naftalan-Goranboy | Tərtər Olimpiya İdman Kompleksinin stadionu | Tərtər Olimpiya İdman Kompleksinin örtülü zalı |
| | | 97 saylı Tərtər-Naftalan-Goranboy | Ağdərə rayonunun Talış kənd İcma Mərkəzinin qarşısı | Talış kənd İcma Mərkəzi |
| 0 | Naftalan | 97 saylı Tərtər-Naftalan-Goranboy | Naftalan şəhər stadionu | Qaşaltı Qaraqoyunlu kənd klubu |
| 1 | Bərdə | 98 saylı Bərdə-Tərtər | Bərdə şəhər “Qəhrəmanlar” parkı | Bərdə rayon Mədəniyyət evi |
| | | 99 saylı Bərdə | Kətəlparaq kənd stadionu | “Ağ Saray” şadlıq sarayı |
| 2 | Göygöl | 100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər | Göygöl Olimpiya İdman Kompleksinin stadionu | Göygöl Olimpiya İdman Kompleksinin örtülü zalı |
| 63 | Daşkəsən | 100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər | Daşkəsən şəhərinin girəcəyindəki meydan | Daşkəsən rayon Mədəniyyət Mərkəzi |
| 4 | Samux | 101 saylı Samux-Şəmkir | Samux şəhər stadionu | Samux rayon Mədəniyyət evi |
| 5 | Şəmkir | 102 saylı Şəmkir şəhər | Şəmkir Olimpiya İdman Kompleksinin stadionu | Şəmkir Olimpiya İdman Kompleksinin örtülü zalı |
| | | 103 saylı Şəmkir kənd | Zəyəm qəsəbə stadionu | Zəyəm qəsəbəsi, “Həsən” şadlıq sarayı |
| 6 | Gədəbəy | 104 saylı Gədəbəy | Gədəbəy şəhəri, Yaşıl Teatr | Gədəbəy rayon Heydər Əliyev Mərkəzi |
| 7 | Tovuz | 105 saylı Tovuz-Gədəbəy | Tovuz Dövlət Sosial-İqtisadi Kollecinin idman meydançası | Qovlar şəhər Mədəniyyət evi |
| | | 106 saylı Tovuz | Tovuz Olimpiya İdman Kompleksinin qarşısındakı meydan | Aşıq Əkbər Cəfərov adına Tovuz rayon Mədəniyyət evi |
| | | 107 saylı Tovuz-Qazax-Ağstafa | Tovuz rayon Yuxarı Öysüzlü kənd stadionu | Aşağı Öysüzlü kəndi, “Turan” şadlıq sarayı |
| 68 | Ağstafa | 108 saylı Ağstafa | Ağstafa şəhər stadionu | Ağstafa rayon Heydər Əliyev Mərkəzinin akt zalı |
| 9 | Qazax | 109 saylı Qazax | Qazax şəhər stadionu | Qazax Olimpiya İdman Kompleksinin örtülü zalı |
| 0 | Balakən | 110 saylı Balakən | Balakən Olimpiya İdman Kompleksinin stadionu | Balakən rayon Mədəniyyət Mərkəzi |
| 1 | Zaqatala | 111 saylı Zaqatala-Balakən | Zaqatala Olimpiya İdman Kompleksinin stadionu | Zaqatala rayon Heydər Əliyev Mərkəzinin akt zalı |
| | | 112 saylı Zaqatala | Yeni Suvagil kənd idman meydançası | Yeni Suvagil kənd Mədəniyyət evi |
| 2 | Qax | 113 saylı Qax-Şəki | Qax Olimpiya İdman Kompleksinin stadionu | Qax rayon Mədəniyyət evi |
| 3 | Şəki | 114 saylı Şəki şəhər | Şəki şəhər stadionu | Şəki Dövlət Dram Teatrı |
| | | 115 saylı Şəki kənd | Turan qəsəbəsinin mərkəzindəki meydan | Turan qəsəbə Folklor evi |
| 4 | Qəbələ | 116 saylı Qəbələ | Qəbələ Olimpiya İdman Kompleksinin stadionu | Qəbələ rayon Mədəniyyət evi |
| 5 | Oğuz | 117 saylı Oğuz-Qəbələ-Şəki | Oğuz Olimpiya İdman Kompleksinin stadionu | Oğuz rayon Mədəniyyət Mərkəzi |
| 6 | Ağdam | 118 saylı Ağdam şəhər | Bərdə rayonu ərazisində Ağdam rayonu məcburi köçkünləri üçün salınmış 588 saylı qəsəbənin futbol stadionu | Bərdə Peşə Liseyinin akt zalı |
| | | 119 saylı Ağdam kənd | Ağdam rayon Heydər Əliyev Mərkəzinin qarşısındakı meydan | Ağdam Muğam Mərkəzi |
| 77 | Cəbrayıl | 120 saylı Cəbrayıl-Qubadlı | Biləsuvar rayonu ərazisində Cəbrayıllı məcburi köçkünlər üçün salınmış 4 saylı qəsəbənin stadionu | Biləsuvar rayonu ərazisində Cəbrayıllı məcburi köçkünlər üçün salınmış 4 saylı qəsəbənin klubu |
| 78 | Laçın | 121 saylı Laçın | Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində, Şamkənd musiqi məktəbinin qarşısı | Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsindəki klub |
| | | 121 saylı Laçın | Laçın şəhəri bulvar ərazisi | Laçın şəhəri, Lasinema Kino Mərkəzi |
| | | 121 saylı Laçın | Laçın rayon Zabux kənd tam orta məktəbin qarşısı | Zabux kənd tam orta məktəbin akt zalı |
| 9 | Xankəndi | 122 saylı Xankəndi | Bakı şəhəri Xətai rayonu, Ukrayna dairəsinin yaxınlığındakı ərazi | Bakı şəhəri, Sabunçu rayonu Ramana-450 qəsəbəsi, N.Gəncəvi adına Xankəndi tam orta məktəbin akt zalı |
| 80 | Kəlbəcər | 123 saylı Kəlbəcər | Gəncə şəhəri, 1500 ailəlik məcburi köçkün şəhərciyindəki meydan | Gəncə şəhəri 1500 ailəlik məcburi köçkün şəhərciyindəki Mədəniyyət evi |
| 81 | Şuşa | 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd | Bakı şəhəri, Sabunçu rayonu, Ramana-450 qəsəbəsi, Malıbəyli kənd tam orta məktəbin idman meydançası | Şuşa şəhər 1 saylı tam orta məktəbin akt zalı |
| 8 | Xocalı | 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd | Goranboy rayonu, Aşağı Ağcakənd qəsəbə meydanı | Goranboy rayonu, Aşağı Ağcakənd qəsəbəsi, Xocalı rayon Mədəniyyət evi |
| 8 | Xocavənd | 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd | Beyləqan rayonu ərazisində məcburi köçkünlər üçün salınmış qəsəbənin 7 illik musiqi məktəbinin həyəti | Beyləqan rayonu ərazisində məcburi köçkünlər üçün salınmış qəsəbənin 7 illik musiqi məktəbinin iclas zalı |
| 8 | Zəngilan | 125 saylı Zəngilan-Qubadlı | Abşeron rayonu, Masazır qəsəbəsi, məcburi köçkünlər üçün salınmış şəhərciyin mərkəzi meydanı | Abşeron rayonu, Masazır qəsəbəsi, məcburi köçkünlər üçün salınmış şəhərciyin Mədəniyyət evi |
| | | 125 saylı Zəngilan-Qubadlı | Ağalı kəndi, Fəvvarələr meydanı | Ağalı kənd tam orta məktəbin akt zalı |
| 85 | Qubadlı | 125 saylı Zəngilan Qubadlı | Sumqayıt şəhəri, 42-ci məhəllə, 10 saylı Peşə liseyinin qarşısındakı meydan | Sumqayıt şəhəri, “28 May” Mədəniyyət evi |

**Qeyd:**

- Həmin yerlərdən bütün təşviqat subyektləri bərabər əsaslarla ödənişsiz istifadə edə bilərlər.
- Bu məqsədlə digər yerlərdən də qanunvericiliyə uyğun istifadə edilməsi mümkündür.

# Qarabağ və Şərqi Zəngəzur – ümummilli quruculuğun ön cəbhəsi

**Müzəffər Ali baş Komandan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizin bərpası sürətlə davam etdirilir. Ölkə Prezidenti İlham Əliyev işğaldan azad edilmiş ərazilərə müntəzəm səfərləri zamanı bərpa-quruculuq işləri ilə yerindəcə tanış olur, yeni yaşayış məntəqələrinin, vacib sosial və infrastruktur obyektlətinin təməlini qoyur. İndi mənfur düşmənin vaxtilə viran qoyduğu torpaqlarımızda həyat canlanır, qədim və əzəli yurd yerlərimiz tamamilə yenidən qurulur. Bir sözlə, dövlət başçısının qeyd etdiyi kimi, artıq Qarabağ və Şərqi Zəngəzur cənnətə çevrilir.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsi zamanı Qarabağa və Şərqi Zəngəzura Böyük Qayıdış Proqramı çərçivəsində həyata keçirilən işlər barədə məlumat verərkən işğaldan azad olunmuş ərazilərdə böyük infrastruktur layihələrinin icra olunduğunu bildirib. Dövlət başçısı hazırda həmin ərazilərdə su anbarlarının, avtomobil yollarının, körpülərin, dəmir yollarının, məktəb və xəstəxanaların tikintisinin başlandığını, artıq bəzilərinin istifadəyə verildiyini diqqətə çatdırıb.

Məlum olduğu kimi, ötən müddətdə Qarabağ və Şərqi Zəngəzurda yol infrastrukturun yenidən qurulması ilə bağlı çoxsaylı layihələr icra olunub. Dövlət sərhədi boyunca 1200 kilometrtlik torpaq yol tikilib. Son 3 il ərzində işğaldan azad olunmuş ərazilərdə 101,5 kilometrlik Zəfər yolu, Şükürbəyli–Cəbrayıl, Bərdə–Ağdam, Tərtər–Suqovuşan–Talış (1-ci mərhələ), eləcə də Laçın şəhərinə girmədən alternativ yol tikilib istifadəyə verilib.

Hazırda isə Əhmədbəyli–Füzuli-Şuşa, Horadiz–Ağbənd, Şükürbəyli– Cəbrayıl–Hadrut, Xudafərin–Qubadlı–Laçın, Toğanalı–Kəlbəcər 1-ci dərəcəli maqistral və Füzuli–Ağdam, Füzuli–Hadrut, Laçın–Kəlbəcər, Xanlıq–Qubadlı 2-ci dərəcəli yolların tikintisi davam etdirilir. Bütövlükdə isə, sözügedən layihələr çərçivəsində 855 kilometr yol və 66 kilometr uzunluğunda tunel inşa olunur.

Son zamanlar Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ölkənin “polad magistral” şəbəkəsinə qoşulması istiqamətində də mühüm layihələr icra olunur. İşğaldan azad olunmuş ərazilərdə dəmir yolu infrastrukturunun yenidən qurulmasına isə 2020-ci ildə başlanılıb. Artıq Bərdə, Təzəkənd və Köçərli stansiyalarının, eləcə də 47,1 kilometr uzunluğunda olan Bərdə–Ağdam dəmir yolunun tikintisi ilə bağlı işlər tədricən sona yaxınlaşır. Bundan əlavə, 2021-ci ilin fevral ayında ölkə Prezidenti tərəfindən təməli qoyulan və 3 mərhələdə icrası nəzərdə tutulan 110,4 kilometrlik Horadiz–Ağbənd dəmir yolu xəttinin tikintisi də sürətlə davam etdirilir. Yaxın gələcəkdə isə Ağdam–Xankəndi dəmir yolunun tikintisi planlaşdırılır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ilə beynəlxalq hava məkanları arasında əlaqəni təmin etmək məqsədilə Füzuli və Zəngilanda müasir aeroportlar tikilib istifadəyə verilib. Hazırda isə Laçın şəhərinin yaxınlığında daha bir beynəlxalq hava limanının tikintisi davam etdirilir. Laçın Beynəlxalq Hava Limanının isə 2024-cü ildə istifadəyə verilməsi nəzərdə tutulur.

Ötən müddətdə işğaldan azad olunmuş ərazilərin elektrik enerjisi ilə təchizatı məqsədilə də mühüm işlər görülüb. Belə ki, ölkə energetiklərinin səyi nəticəsində son illər Şuşa, Kəlbəcər, Laçın, Ağdam, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarında yüksək gərginlikli hava xətləri qurulub, çoxsaylı su elektrik stansiayaları inşa olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına əsasən, işğaldan azad olunmuş ərazilərdə içməli və tullantı su sistemlərinin yaradılması, eləcə də suvarma su layihələrinin icrası sürətlə davam etdirilir. Son illər işğaldan azad olunmuş ərazilərin içməli su təchizatının yaxşılaşdırılması üçün yeni mənbələr yaradılıb, köhnə anbarlar bərpa edilib, magistral və şəbəkə su xətləri inşa olunub. İlk növbədə, Şuşa şəhərində içməli su şəbəkəsi yaradılıb. Hazırda isə Laçın və Füzuli şəhərlərində içməli su təchizatı, kanalizasiya və yağış suları sistemlərinin yaradılması layihələri icra olunur.

Dövlət başçısı məlum müsahibəsində işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı torpaqarının əkin dövriyyəsinə cəlb edilməsi üçün suvarma suyu ilə təminatının yaxşılaşdırılması ilə bağlı görüləcək işlərin də anonsunu verib. Qeyd olunub ki, işğal dövründə düşmənin istismar etdiyi Sərsəng Su Anbarı yarasız vəziyyətə salınmış, Xaçınçay Su Anbarı tamamilə məhv edilmişdi. Xaçınçay Su Anbarı bu yaxınlarda yenidən istismara qaytarılıb. Yaxın gələcəkdə isə Füzulidəki Köndələnçay, Suqovuşan və Zabuxçay su anbarları istifadəyə veriləcək. Bütün bunlar böyük bir ərazini suvarma suyu ilə təmin etməklə yenidən bərpa olunacaq yaşayış məntəqələrinə qayıdacaq keçmiş köçkünlərin əkin-biçinlə məşğul olmaları üçün imkan yaradacaq.

Yeri gəlmişkən, Prezident İlham Əliyev 2024-cü ilin İnvestisiya Proqramını yaxın günlərdə təsdiq edəcəyini vurğulayaraq deyib ki, bu il Qarabağda və Şərqi Zəngəzurda infrastruktur layihələrinin hamısı davam etdiriləcək.

Böyük Qayıdış Proqramı çərçivəsində bərpa olunan yaşayış məskənlərimiz artıq ilk sakinlərini qəbul edir. Ötən müddətdə Zəngilan rayonunun Ağalı kəndinə, Laçın şəhəri və Zabux kəndinə, eləcə də Füzuli şəhərinə xeyli sayda keçmiş məcburi kökünün qaytarılması təmin olunub. Bununla da, bir çoxlarının 30 illik yurd həsrətinə son qoyulub. Ölkə rəhbəri yerli televiziya kanallarına müsahibəsi zamanı keçmiş köçkünlərin beş yaşayış məntəqəsinə qayıtmasının təmin olunmasını Böyük Qayıdış Proqramı çərçivəsində əldə olunan əsas nailiyyət kimi dəyərləndirərək Azərbaycan dövlətinin səyi ilə hazırda tamamilə yenidən qurulan Laçın və Füzuli şəhərləri, Ağalı, Talış və Zabux kəndlərinə bu il keçmiş köçkünlərin qaytarılmasının davam etdiriləcəyini diqqətə çatdırıb. Dövlət başçısı deyib: “Bütün bu infrastruktur layihələri imkan verir ki, biz bu il daha böyük sayda keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytaraq və onların bu il qaytarılacaqları şəhərlər arasında beş şəhər – Şuşa şəhəri, Cəbrayıl şəhəri, Kəlbəcər şəhəri, Xankəndi şəhəri, Xocalı şəhəri olacaq. Ağdam, Zəngilan, Qubadlı şəhərlərinə isə keçmiş məcburi köçkünlərin 2025-ci ildə qayıtması nəzərdə tutulur”.

Bununla yanaşı, prezident İlham Əliyev tərəfindən təməli qoyulmuş Laçın rayonunun Sus, Xocalı rayonunun Kərkicahan, Malıbəyli, Turşsu kəndləri də yaxın vaxtlarda öz əbədi və əzəli sakinlərini qəbul edəcək. Bütövlükdə isə, dövlət başçısının qeyd etdiyi kimi, 2026-cı ilin sonuna qədər 140 min keçmiş köçkünün öz dədə-baba torpaqlarına qaytarılması təmin olunacaq.

Keçmiş köçkünlərin məşğulluğunun təmin olunması da qarşıda duran mühüm vəzifələrdəndir. Prezident İlham Əliyev məlum müsahibəsində aidiyyəti dövlət qurumlarının bu işlə ciddi məşğul olduğunu vurğulayaraq qeyd edib ki, hazırda keçmiş köçkünlər üçün treninqlər keçirilir, yerlərdə yeni istehsalat sahələri, sənaye müəssisələri yaradılır. Artıq Ağdamda və Cəbrayılda iki böyük sənaye zonası fəaliyyətə başlayıb. Bu il həmin sənaye zonalarının fəaliyyətinin xeyli genişləndiriləcəyi nəzərdə tutulur.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

## “Azərişıq” Laçının elektrik şəbəkəsini yenidən qurur

**“Azərişıq” ASC işğaldan azad edilən bütün ərazilərimizdə, o cümlədən Laçın rayonunda da yenidənqurma işlərini davam etdirir.**



ASC-nin məlumatına əsasən, rayon düşməndən təmizlənəndən indiyədək enerji sisteminin yenidən qurulması istiqamətində genişmiqyaslı layihələr reallaşdırılır. Hazırda Qorçu və Tiğik kəndləri istiqamətində elektrik şəbəkələri yenilənir. Laçın şəhəri daxilində yeraltı xətlərin, habelə Tiğik kəndinin elektrik enerjisi ilə təmin olunması üçün 35 kV-luq hava xəttinin çəkilişi davam edir.

Laçın şəhərində yeni 35 kV-luq, Minkənd ərazisində 1 ədəd 35 kV-luq yarımstansiyaların tikintisi, bu yarımstansiyalar istiqamətində 35 kV-luq ÖİN xəttinin çəkilməsi və şəhərsalma planına əsasən, Güləbird, Şəlvə, Qorçu qəsəbələrinin elektrik enerjisi ilə təmin olunması üçün 35 kV-luq elektrik verilişi xətlərinin çəkilməsi də nəzərdə tutulur.

Rayonun Şəlvə, Malıbəyli, Qaragöl, Cağazur və Minkənd yaşayış məntəqələrində yerləşən mühüm obyektlərin elektrik enerjisi ilə təmin olunması üçün 35 kV-luq elektrik verilişi xətlərinin çəkilişi işləri isə tam yekunlaşıb.

## Dünya Bankının ölkəmizlə bağlı proqnozu nikbindir

**Dünya Bankı “Qlobal iqtisadi perspektivlər” hesabatında Azərbaycan iqtisadiyyatı ilə bağlı 2024-2025-ci illər üçün proqnozları açıqlayıb. Hesabatda ölkədə ümumi daxili məhsul (ÜDM) istehsalının bu il 2,4 faiz, 2025-ci ildə isə 2,5 faiz artacağı bildirilib.**




Sənədə əsasən, bu göstəricilər 2023-cü ilin iyun ayında dərc olunan proqnozlarına nisbətən 0,1 faiz bəndi azdır, lakin oktyabr ayındakı gözləntilərə nisbətən eynidir.

Hesabatda qeyd edilib ki, 2024-2025-ci illərdə Cənubi Qafqazda iqtisadi artım illik 3,3 faiz səviyyəsində sabit qalacağı proqnozlaşdırılır. Rusiyadan pul köçürmələrinin daha da azalması gözlənilsə də, təkrar ixrac və turizm iqtisadi fəallığı dəstəkləməyə davam edəcək. Bununla belə, uzunmüddətli artıma əmtəə asılılığı, zəif nəqliyyat əlaqələri və logistika və Ermənistan və Azərbaycan arasında mümkün davam edən geosiyasi gərginlik mane olmaqda davam edəcək.

***XQ***

# Neft-qaz Azərbaycanın həm sərvəti, həm də şöhrətidir

## Ötən il xaricə 23,8 milyard kubmetr qaz, 25,2 milyon ton neft ixrac edilib

**(əvvəli 1-ci səhifədə)**

“Azəri-Çıraq-Günəşli” və “Şahdəniz” yataqları istismara veriləndən bu il yanvarın 1-dək “Azəri–Çıraq–Günəşli”dən 216,3 milyard kubmetr, “Şahdəniz”dən isə 209 milyard kubmetr qaz hasil edilib. Bu dövrdə “Şahdəniz” yatağından hasil edilən qazın 148,1 milyard kubmetri ixraca yönəldilib.

Neft sənayesində də yüksək göstəricilər əldə olunub. Belə ki, 2023-cü il ərzində ölkədə 30,2 milyon ton “qara qızıl” (kondensatla birlikdə) hasil edilib. Neft hasilatının 17,8 milyon tonu “Azəri-Çıraq-Günəşli”nin, 4,3 milyon tonu (kondensat) “Şahdəniz”in, 0,3 milyon tonu (kondensat) “Abşeron” yatağının payına düşüb. SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı isə 7,8 milyon ton təşkil edib. Bu dövrdə ixraca yönəldilən 25,2 milyon ton neftin (kondensatla birlikdə) 22,1 milyon tonu konsorsiumun, 3,1 milyon tonu isə SOCAR-ın payına düşüb.

“Azəri–Çıraq–Günəşli” və “Şahdəniz” yataqları istismara veriləndən cari il yanvar ayının 1-dək 629,2 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. “Azəri–Çıraq–Günəşli”dən 584,7 milyon ton neft, “Şahdəniz”dən isə 44,5 milyon tona yaxın kondensat çıxarılıb. Cari ilin əvvəlinədək həmin həcmin 627,3 milyon tonu ixraca yönəldilib.

Qeyd edək ki, hazırda Azərbaycandan Bakı–Tbilisi–Ceyhan boru kəməri ilə “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan çıxarılan neft və “Şahdəniz” yatağından hasil edilən kondensat nəql olunur. Bundan əlavə, hımin boru kəməri ilə Türkmənistan və Qazaxıstan nefti də nəql edilir.

Təbii qaz həcmləri isə Cənubi Qafqaz Boru Kəməri (Bakı–Tbilisi–Ərzurum) və Trans–Anadolu Qaz Boru Kəməri (TANAP) vasitəsilə Türkiyə bazarına çatdırılır. Bakı-Tbilisi-Ərzurum kəməri ilə ilk qaz Türkiyə bazarına 2007-ci ildə daxil olub. TANAP vasitəsilə Türkiyəyə kommersiya qazının nəqlinə isə 2018-ci il iyunun 30-da başlanılıb. Qardaş ölkəyə ölkəmizin “Şahdəniz” yatağından hasil edilən təbii qaz nəql olunur.

Onu da qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar bloku üzrə sazişlə bağlı xarici sərmayədarlar tərəfindən Azərbaycan Dövlət Neft Fonduna (ARDNF) 450 milyon ABŞ dolları bonus ödənilib.

Yeri gəlmişkən, Azərbaycanın ən böyük neft yataq bloku olan AÇG-nin işlənməsi üzrə hasilat bölgüsünə dair ilk müqavilə 1994-cü il sentyabr ayının 20-də, həmin yataqların birgə istismarına və hasilatın pay bölgüsünə dair yeni saziş isə 2017-ci il sentyabrın 14-də imzalanıb. Bu sazişlə yataqların 2049-cu ilin sonunadək işlənməsi nəzərdə tutulub. Sazışin 29.2-ci maddəsinə əsasən, 2018-2025-ci illər ərzində sərmayəçilər tərəfindən, ümumilikdə, 3,6 milyard ABŞ dolları məbləğində bonus ödənişlərinin reallaşdırılması qərara alınıb.



Energetika Nazirliyinin məlumatına görə, hesabat ilində neft emalı ilə bağlı göstəricilər də yüksəlib, bu sahədə 5 faizədək artım qeydə alınıb. Başqa sözlə, ötən il 6,5 milyon tona yaxın neft (2022-ci illə müqayisədə 4,84 faiz çox) emal edilib.

Xatırladaq ki, Azərbaycanda neft təməli 1953-cü ildə qoyulan Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda emal edilir. Müəssisə respublikanın neft məhsullarına olan tələbatını tam ödəyir. Hazırda NEZ-də yenidənqurma və modernləşdirmə işləri aparılır.

Ölkəmizin neft sənayesinin ötən ilki uğurlarından bəhs edərkən Dövlət Neft Şirkətinin (SOCAR) Türkiyədəki yatırımı olan “Petkim” neft-kimya kompleksinin hesabat dövrü fəaliyyətinə də diqqət yetirmək istərdik. Xatırladaq ki, bu kompleks 2023-cü ildə 557 milyon dollar ixrac gəliri ilə liderliyi qoruyub saxlayıb. “Petkim”, eyni zamanda, Egey İxracatçı Birlikləri tərəfindən “İxracatın ulduzları” siyahısında həm ümumi reytinqdə, həm də kimya kateqoriyasında birinci yeri tutub.

Qeyd edək ki, əsası 1965-ci il aprelin 3-də qoyulan “Petkim Petrokimya Holding” Türkiyənin aparıcı neft-kimya kompleksidir. Burada plastik kütlə, tekstil məmulatları, eləcə də digər istehlak və sənaye mallarının istehsalında istifadə olunan etilen, polietilen, polivinilxlorid, polipropilen və digər neft-kimya məhsulları istehsal edilir. İndiyədək Türkiyənin ilk və yeganə inteqrasiya edilən neft-kimya obyekti olan “Petkim”in təkmilləşdirilməsi üzrə işlərə 1,6 milyard dollar həcmində investisiya qoyulub.

“SOCAR Turkey” şirkəti “Petkim Petrokimya Holding”in nəzarət səhm paketinin sahibidir. “Petkim”in səhmləri İstanbul Fond Birjasında qiymətləndirilir.

Sonda qeyd edək ki, 2006-cı ildən başlayaraq, enerji ixracı nəticəsində Azərbaycana daxil olan böyük maliyyə resursları sürətli iqtisadi tərəqqiyə, müasir sosial-iqtisadi və mədəni infrastrukturların yaradılmasına, respublika həyatının bütün sahələrinin yenilənməsinə, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun dinamik inkişafına yönəldilib.

Neft strategiyasının uğurlu icrası nəticəsində əldə edilən vəsait hesabına regionlarda bütün köklü problemlər həll olunub, müasir infrastruktur formalaşdırılıb, əhalinin məşğulluq səviyyəsi yüksəldilib. Aqrar sahədə həyata keçirilən sistemli tədbirlər, o cümlədən son illər ərzində kənd təsərrüfatının ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi ölkəmizin ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsini yüksəldib, ixrac potensialını genişləndirib.

***Vaqif BAYRAMOV***
***XQ***

# Paşinyan dəhlizə nəzarəti niyə Rusiyaya vermək istəmir?

## İTAR-TASS-ın yaydığı informasiya bir çox mətləblərə aydınlıq gətirir

**Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla Zəngəzur dəhlizinin açılmasına dair üzərinə götürdüyü öhdəliyi üç ildən çoxdur icra etmir. Halbuki, bəyanatın doqquzuncu bəndində bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa ediləcəyi açıq-aydın yazılıb. Qeyd olunub ki, Ermənistan vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycanın qərb rayonları və Naxçıvan arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Bəyanatda nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanlarının həyata keçirəcəyi də bildirilib.**

Rəsmi İrəvan isə nəinki dəhlizin açılmasına imkan vermir, üstəlik, nəqliyyat əlaqəsinə nəzarətin Rusiya sərhədçilərinin təmin etməsi öhdəliyindən də imtina edir. Belə ki, 2023-cü ilin sonlarında "Sülhün kəsişməsi" adlanan layihə çərçivəsində Ermənistan milli təhlükəsizlik xidmətində xüsusi bölmə yaradılıb. Hökumətin noyabrın 2-də keçirilən iclasında da bu barədə danışan baş nazir Nikol Paşinyan deyib ki, həmin bölmənin funksiyası Ermənistan ərazisindən keçən regional və beynəlxalq kommunikasiyaların təhlükəsizliyini təmin etmək olmalıdır: "Qeyd edə bilərəm ki, bölmə artıq formalaşıb, praktiki olaraq kadrlarla təmin edilib və faktiki surətdə dünən işə başlayıb".

İrəvanın bu addımı Azərbaycanda, təbii ki, narazılıqla qarşılanıb. Ölkəmiz üçtərəfli bəyanatda nəzərdə tutulduğu kimi, Azərbaycanın bir bölgəsindən digərinə, konkret olaraq Zəngilandan Ordubada gedən insanların və yüklərin yoxlamaya məruz qalmasına imkan verə bilməz. İki rayonumuz arasında Ermənistanın cəmi bir rayonu (Mehri) yerləşir, yolun ümumi uzunluğu isə 42-43 kilometrdir. Ölkə daxilində səyahət edən insanların pasport və gömrük yoxlamasına məruz qalması dünyanın heç bir yerində görünməyib.

Üstəlik, Ermənistanın Zəngəzur dəhlizinin təhlükəsizliyinin təmin olunması ilə bağlı verdiyi təminatlar da Azərbaycan üçün qaneedici deyil. Bununla bağlı yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev fikirlərini aydın şəkildə ifadə edib: "Qeyd edək ki, Prezident İlham Əliyev müsahibə zamanı Zəngəzur dəhlizinin təhlükəsizliyi məsələsinə də münasibət bildirib: "Mən dəfələrlə Ermənistan rəhbərliyinə demişəm ki, Ermənistanın qarantiyaları bizə kifayət deyil. 10 noyabr Bəyanatında göstərilmişdi ki, Rusiya sərhədçiləri 42–43 kilometr ərazidə təhlükəsizliyi və nəzarəti həyata keçirirlər və bu öhdəlik yerinə yetirilməlidir. Ermənistan isə bundan indi boyun qaçırmaq istəyir. Halbuki, bu da məntiqli deyil. Çünki Rusiya sərhədçiləri Ermənistanın, İrəvanın aeroportundadırlar, Ermənistan–İran, Ermənistan–Türkiyə sərhədindədirlər. Niyə orada onlar qala bilərlər, amma burada qala bilməzlər? Sadəcə olaraq, bu, bir bəhanədir ki, yol açılmasın. Biz üç il gözləmişik, bizi ittiham edirdilər ki, biz güc tətbiq edərək o yolu açacağıq. Halbuki bu, cəfəng bir ittiham idi..."

Ermənistanın hakim "Mülki müqavilə" partiyasının üzvü, parlamentin xarici əlaqələr komitəsinin rəhbəri Sarkis Xandanyan isə deyib ki, ərazidən keçəcək yolların təhlükəsizliyi Ermənistanın müvafiq strukturları tərəfindən təmin ediləcək: "Kommunikasiyaların açılmasının Ermənistanın suverenliyi və qanunvericiliyi çərçivəsində həyata keçiriləcəyi deyildikdə, bu, o deməkdir ki, həm indi, həm də blokdan çıxarıldıqdan sonra ərazimizdən keçən yollarda təhlükəsizlik Ermənistanın müvafiq strukturları tərəfindən təmin olunmalıdır". Bunun üçtərəfli bəyanatın doqquzuncu bəndinin tətbiq olunmayacağı anlamına gəlməsi ilə bağlı sualı şərh edən Xandanyan, yalnız erməni tərəfinin israr etdiyi kommunikasiyaların açılması prinsiplərini təkrarlayıb.

Göründüyü kimi, İrəvan mövqeyindən geri çəkilənə oxşamır. Qərbpərəst Paşinyan iqtidarının dəhlizin açılmasına, habelə ona nəzarəti Rusiya sərhədçilərinin həyata keçirməsinə imkan verməməsi siyasətinin elə Qərbin özünün təlimatı əsasında olduğu artıq şübhə doğurmur. Necə deyərlər, pulu kim ödəyirsə, musiqini də o sifariş verir.

Bununla bağlı Rusiyanın federal dövlət xəbər agenliyi – TASS bugünlərdə məlumatlı mənbəyə istinadən diqqətçəkən informasiya yayımlayıb. Agentlik bildirib ki, Almaniya Rusiya sərhədçilərinin Ermənistandan tezliklə çıxarılmasında maraqlıdır. Berlin bu və digər anti-Rusiya addımlarının müqabilində İrəvana maliyyə yardımı təklif edir.



Agentliyin həmsöhbəti deyib: "Almaniya Ermənistanı Qərbin anti-Rusiya siyasətinə sürükləməyə çalışır. Berlinin vəzifəsi İrəvanla Moskva arasında mümkün qədər çəkişmə yaratmaqdır. Almanlar rus sərhədçilərinin Ermənistan ərazisindən tezliklə çıxarılmasında və ölkə hakimiyyətinin öz dövlət aparatını Rusiyaya dostcasına yanaşan şəxslərdən təmizləməsində, o cümlədən silahlı qüvvələrin, kəşfiyyat xidmətlərinin və hüquq-mühafizə orqanlarının lüstrasiyasında ("Lüstrasiya" yunan sözü olub, mənası işıqlanma deməkdir. Bu söz müstəqillik qazanmış ölkələrin əvvəlki rejimlərdən, yaxud iqtidara yeni gələnlərin hakimiyyəti sabiq komanda tərəfdarlarından təmizləməsini ifadə edir – S.H.) maraqlıdırlar. Bunun müqabilində Berlin İrəvana maliyyə və texniki yardım göstərməyi, o cümlədən Nikol Paşinyan hökumətinin Qarabağ ermənilərinin Avropa İttifaqı ölkələrinə kütləvi mühacirətinin qarşısını almaq səylərinə dəstək verməyi təklif edir".

Bu informasiyanın yayılmasının Almaniya Xarici Kəşfiyyat Xidmətinin (BND) rəhbəri Bruno Kalın 2023-cü il noyabrın 24-də Hayastana səfərindən sonraya təsadüf etməsi də diqqət çəkən məqamdır. Alman xarici kəşfiyyatına cavabdeh şəxs həmin gün İrəvanda N.Paşinyanla görüşmüşdü. Baş nazirin aparatı Paşinyan və Kalın Ermənistan və Almaniya arasında əməkdaşlıq sahələri ilə bağlı məsələləri müzakirə etdiklərini açıqlamışdı. Qeyd edilmişdi ki, görüşdə regionda baş verən proseslərə dair fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Beləliklə, İTAR-TASS-ın yaydığı və etibarlılığı heç bir şübhə doğurmayan informasiya, əslində, bir çox mətləblərin gün işığına çıxmasına səbəb olub.

**Mövzu ilə bağlı XQ-yə şərh verən siyasi tədqiqatçı, Qafqaz Siyasi Analiz Mərkəzinin direktoru Əhməd Əlili bildirdi ki,** Ermənistan hazırda tamamilə ayrı-ayrı geosiyasi areallarda yer-



ləşən ölkələrin maraqlarını öz üzərində kəsişdirməyə cəhd edir. Bunu etmək üçün isə Ermənistanın lazımi resursları yoxdur: "Bu cəhdlər Ermənistan üzərində Avropa İttifaqı–Rusiya, Avropa İttifaqı–ABŞ–İran gərginliyinə gətirib çıxaracaq və çıxarır.

Amma yayılan informasiya ilə bağlı hesab edirəm ki, bizim yanaşmamız bir qədər fərqli olmalıdır. Biz bunu Azərbaycanın bir növ uğuru kimi də qəbul edə bilərik. Məsələ ondadır ki, biz TASS-ın məlumatını daha çox Zəngəzur dəhlizi kontekstində analiz etməliyik. Çünki Zəngəzur keçmiş SSRİ–İran sərhədi boyunca keçir. Həmin xətt hazırda Ermənistandakı Rusiya sərhəd qoşunlarının nəzarəti altındadır. Yəni, sovet ordusu faktiki olaraq, Ermənistan ərazisindən çıxmayıb, orada Rusiya qoşunları kimi fəaliyyətlərini davam etdirməyə başlayıblar. Vaxtilə Sovet İttifaqının sərhəd qoşunlarının icra etdiyi funksiyanı, yəni SSRİ–İran və SSRİ–Türkiyə sərhədlərinin qorunmasını indi Ermənistan–İran, Ermənistan–Türkiyə sərhədi üçün Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidməti yerinə yetirir".

Ekspertin sözlərinə görə, Ermənistan rəsmiləri uzun müddət Avropa platformasında özlərini anti-Rusiya, Qərbpərəst göstərməkdən ötrü belə bir arqumentdən istifadə edirdilər ki, onlar Zəngəzur dəhlizinin rus sərhədçilərinin nəzarətində olmasına qarşıdırlar, Azərbaycan isə bunun lehinədir: "Reallıq isə bundan ibarətdir ki, həmin qoşunlar çoxdan oradadırlar. Azərbaycan və Rusiya üçtərəfli bəyanata imza atarkən bu faktı əsas götürərək nəqliyyat əlaqəsinə nəzarəti rus sərhədçilərinin həyata keçirəcəyini vurğulayıblar. Ermənistan isə bunu Qərbə Azərbaycanın Rusiya ilə yaxınlığı, Qərblə problemlərinin olması kimi qələmə verməyə çalışırdı. Belədə İrəvanın mövqeyi Qərbpərəst təsiri bağışlayırdı. İndi isə Qərb hökumətlərinə, oradakı tədqiqatçılara məlum olur ki, Azərbaycan nəyə görə Rusiya FTX-nin sərhəd qoşunlarının dəhlizə nəzarəti həyata keçirməsini istəyirdi. Çünki qeyd etdiyim kimi, FTX sərhəd qoşunları çoxdan orada yerləşib. Belə olan təqdirdə, görünür, Aİ ölkələri arasında reallığı ən birinci dərk edən, məsələnin mahiyyətinə varan Almaniya hökuməti olub. Berlin başa düşür ki, FTX-nin sərhəd qoşunlarının Ermənistanda olduğu müddətdə "Zəngəzur dəhlizi rus sərhədçilərinin nəzarətində olmasın" fikrini səsləndirmək mümkün deyil".

Əhməd Əlilinin fikrincə, buna görə də Almaniya Ermənistan hökumətindən bütövlükdə rus sərhədçilərini ölkə ərazisindən çıxarmasını istəyir. Əgər çıxaracaqsa, rəsmi Berlin onlara çox şey təklif etməyə hazırdır: "Unutmaq olmaz ki, bu kontekstdə bir müddət əvvəl İranla Avrasiya İqtisadi İttifaqı arasında müəyyən sənəd imzalandı. Hazırda Ermənistanla sərhəd İran üçün vacib nöqtəyə çevrilib. Belə olan halda Ermənistan, doğrudan da, özünü kifayət qədər mürəkkəb vəziyyətə salıb".

Ekspert baş verən prosesləri Rusiya-Aİ qarşıdurması kimi yox, Azərbaycanın Avropa strukturları ilə işləməsinin uğuru kimi təqdim etməyin tərəfdarıdır: "Məsələ ondadır ki, bölgədəki reallıq avropalılara aydın olur və almanlar bir qədər irəli düşüblər. Onlar İrəvana deyirlər ki, reallıqda təqsir sizin özünüzdədir. Çünki 1992-ci ildən Rusiya sərhədçilərini öz sərhədləri daxilində saxlayan Ermənistan hökumətidir. Paşinyana mesaj verirlər ki, əgər sən, həqiqətən də, Qərbpərəstsənsə, həmin qüvvələri öz ərazindən çıxar".

**Politoloq Yeganə Hacıyeva isə qəzetimizə açıqlamasında dedi ki,** Almaniya Aİ ölkələri ara-



sında Rusiyadan iqtisadi baxımdan, o cümlədən təbii resurslarla bağlı ən çox asılılığı olan dövlətdir. Eyni zamanda, Almaniya Rusiya resurslarının Avropaya nəqlindən ən çox qazanan ölkədir: "Almaniya Ukrayna ilə müharibə aparan Rusiyaya təzyiq elementləri formalaşdırır. Onlardan biri də məhz Ermənistanın, necə deyərlər, əli ilə bir sıra addımların atılmasıdır. Zənnimcə, rəsmi Berlinin İrəvanı rus sərhədçilərini Ermənistandan çıxarmağa razı salmağa çalışmasına bu kontekstdə baxmaq lazımdır".

Qeyd edək ki, bir müddət əvvəl Rusiyanın xarici işlər naziri Sergey Lavrov 2023-cü ilin yekunları üzrə müsahibəsində bildirmişdi ki, İrəvan Qərbin inandırmasına uyaraq, Moskva ilə müttəfiqliyini qeyri-müəyyən vədlərlə dəyişməyə çalışır. Nazirin sözlərinə görə, İrəvan strateji dönüş kursuna haqq qazandırmaq üçün bütün bəlalarda, o cümlədən Qarabağın itirilməsində Rusiyanı günahlandırmağa çalışır. Bununla belə, Lavrov qeyd etmişdir ki, Ermənistan Rusiyanın Cənubi Qafqazda strateji tərəfdaşı olub və olaraq qalır.

*Səxavət HƏMİD*
*XQ*

KÖŞƏ

## "Nəvə" müharibələrin böyük "nənə"si

**Vaxtilə Azərbaycanın Xalq şairi Fikrət Qoca siyasi motivli şeirlərindən birində yazırdı:**

***Kiçik müharibələrin əlindən tutub,***
***Dünyanı gəzdirir amerikalı nənəsi.***



**Paşa ƏMİRCANOV**
**pa ha mirca @ mä lr u**

Bu misralar hələ sovet vaxtı, ABŞ-nin dünyanın müxtəlif guşələrində kiçik müharibələr yaratdığı dövrdə yazılmışdı. Sonra ABŞ dünya sosializm sisteminin də, Sovet İttifaqının da dağılmasına nail oldu və həmin kiçik müharibələr sabiq sovet respublikalarının ərazisinə də keçdi. Yenicə müstəqillik qazanmış, amma hələ buna sevinməyə macal tapmamış bir sıra ölkələrin, o cümlədən Azərbaycanın ərazisində qaynar ocaqlar yaradıldı, qanlar töküldü. Keçmiş SSRİ ərazisi Rusiya və ABŞ arasında müharibə meydanına çevrildi. Beləcə, keçən əsrin 90-cı illərindən başlamış konfrontasiya bu günə qədər davam etməkdədir. Hələ Gürcüstan da ərazi bütövlüyünü bərpa edə bilməyib, Moldova da münaqişənin caynağında çapalayır, Ukrayna isə artıq yavaş-yavaş Suriyaya dönür. Allaha şükür ki, biz bu amansız Rusiya–ABŞ qarşıdurmasından Qarabağımızı xilas edə bildik.

Amma "amerikalı nənəsi" hələ dünyada kiçik müharibələr yaratmaq şakərini uğurla davam etdirir. Hansını-birini deyəsən, Allaha xoş gedə. Öz ətrafımızdan başlasaq, Ermənistan hələ də açıq-aşkar müharibəyə sürüklənir. ABŞ və Fransa bu xırda, gücsüz ölkəni sülh bağlayıb rahat nəfəs almağa qoymaq istəmir.

Azərbaycan Prezidenti İlham Əliyev də bu günlərdə yerli telekallara müsahibəsində Ermənistanı himayə edən dövlətlərin sülh prosesinə maneə yaratdığını bildirdi. Onun sözlərinə görə, həmin dövlətlər Ermənistana vədlər veriblər ki, BMT-də, Avropa İttifaqında Azərbaycana qarşı sanksiyalar tətbiq ediləcək, Azərbaycan böyük təzyiq altına düşəcək, bu əməliyyat Azərbaycana baha başa gələcək: "Bütün bu kommunikasiyalar Ermənistanda əminlik yaratdı ki, onlar sülh müqaviləsini istədiyi kimi tərtib edə bilərlər və bizi də kimsə təzyiq etməklə razı sala bilər. Məhz buna görə 70 gün ərzində bizim təklifimizə cavab verilmirdi".

Bəs Əfqanıstanı, İraqı, Tunisi, Yəməni, Liviyanı, Suriyanı, lap son vaxtlarda Yaxın Şərqi – İsrail–Fələstin münaqişəsini hara qoyasan? Bu savaş ocaqlarına qoyulmuş barıt o qədər güclü olub ki, hələ də sönmək bilmir. Ukrayna yaman günə qoyulandan sonra isə əsas diqqət Yaxın Şərq böhranına yönəlib. ABŞ rəsmilərinin gündə biri həmin regiona səfər edir, sanki problemi həll etməyə çalışır, amma nədirsə, alov getdikcə daha da şiddətlənir.

İndi İranla insidentlər yaşanır, ABŞ gəmisi saxlanılır. Tehrana ultimatum göndərilir. Bu da yeni bir münaqişə! O tərəfdə Çin və Tayvan arasında ziddiyyətlər qalmaqdadır. Bu tərəfdən də, husilər. Artıq Vaşinqton və London Yəməndə husilərə zərbələr endiriblər.

Bax buna görədir ki, "Gallup İnternational" agentlikləri assosiasiyasının 40 ölkədə respondentlər arasında 2024-cü illə bağlı keçirdiyi qlobal sorğu nəticəsində məlum olub ki, dünya əhalisinin 40 faizi yeni ilin müharibələrlə dolu olacağını düşünür. "Beləliklə, qlobal sülh indeksinin optimistlərin və pessimistlərin, demək olar ki, bərabər paylarını aşkar etdiyi iki il əvvəlki dövrdən fərqli olaraq, qorxular mütləq üstünlük təşkil edir", – deyə sosioloqlar bildiriblər.

Budur, yanvarın 12-nə keçən gecə ABŞ və Böyük Britaniya Yəməndə husilərə qarşı hərbi əməliyyat keçirdilər. Hücum hərəkatın nəzarətində olan ərazilərində baş tutdu. Zərbələr zamanı Vaşinqton döyüş təyyarələri və "Tomaqavk" qanadlı raketlərindən istifadə etdi. Prezident Bayden də hücumların həyata keçirildiyini təsdiqlədi. Onun sözlərinə görə, zərbələr "husilərin Qırmızı dənizdəki beynəlxalq gəmilərə misli görünməmiş hücumlarına", o cümlədən gəmi əleyhinə ballistik raketlərin köməyi ilə həyata keçirdikləri hücumlara cavab olub. Prezident hücumun müdafiə xarakterli olduğunu dedi. O qeyd etdi ki, zərbələr Avstraliya, Bəhreyn, Kanada və Hollandiyanın dəstəyi ilə ABŞ və Böyük Britaniya qüvvələri tərəfindən həyata keçirilib.

Belə görünür ki, indi husilər də müharibəyə qoşulur. Bununla bağlı ABŞ-nin özündə də qorxu var. Bu ölkədə hesab edirlər ki, Prezident Co Bayden Yəməndə husilərə zərbə endirməklə ABŞ-ı müharibəyə sürükləyir. Artıq hərbi analitiklər qeyd edirlər ki, ağır zərbə alan husilər bundan sonra amerikalılara və ABŞ-nin regiondakı maraqlarına hücum etməyə başlayacaqlar.

ABŞ-nin zərbələrindən sonra "Ənsar Allah" hökumətində xarici işlər nazirinin müavini Hüseyn əl-Ezzi bəyan edib ki, ABŞ və Böyük Britaniya öz ərazilərində hücumun əvəzini ödəyəcək. Baş vermiş hücumlarla əlaqədar Rusiya təcili olaraq BMT Təhlükəsizlik Şurasının iclasının çağırılmasını təklif edib.

Təbii ki, söhbət təkcə ABŞ-nin husilərlə çəkişməsindən getmir. Necə deyərlər, başları başlarına, başmaqları da ayaqlarına. Özləri bilər. Söhbət ümumiyyətlə, son 30 illik bir tarix ərzində dünyanın qan çanağına dönməsindən, bəşəriyyətin hər səhərini bir bəd xəbərlə açmasından gedir. Bu, nə qədər davam edəcək? Bəşəriyyət nə vaxtsa bu "kiçik müharibələr"in bitdiyini görüb rahat nəfəs ala biləcəkmi? Axı dünya sülh istəyir...

# COP29-a turizm hazırlıqları

**Məlum olduğu kimi, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, yeni COP29 bu il bizim ölkəmizdə keçiriləcək. Azərbaycan indiyədək bir çox beynəlxalq tədbirlərə ev sahibliyi edib və bunun öhdəsindən layiqincə gəlib. Bu il sözügedən tədbirlə əlaqədar turizm sahəsindən gözləntilərimiz daha çoxdur.**

Bakı Konqres Mərkəzində Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının təşkilatçılığı ilə "Turizm sənaye subyektlərinin ilin yekunları və COP29 ərəfəsində çağırışlar" mövzusunda keçirilən forumda Bakıya gələcək çoxsaylı qonaqların otellərdə yerləşdirilməsi, istirahətinin təşkili, paytaxtımızla tanışlığı kimi məsələlər də diqqət mərkəzində olub. Bu da təbiidir, çünki təşkilatçılar da ölkənin imicinin formalaşmasında rol oynayacaqlar.

Forumda bir araya gələn turizm agentliklərinin təmsilçiləri sektorun uğurları və perspektivlərini ətraflı müzakirə ediblər. Panel iclaslarında konkret mövzular sərf-nəzər olunub. Hotel və Ekoturizm assosiasiyalarının rəhbərləri iki həftə ərzində dünyanın mərkəzi olacaq Bakının təqribən 70–80 min xarici qonağı qarşılayacağını bildirməklə bərabər, bu növbəti sınağın da uğurla keçəcəyinə əminlik ifadə ediblər. Natiqlər COP29-un keçirilməsinin qlobal təhlükəsizliyə töhfə verəcəyini, ölkəmizin tanıdılması və daha da inkişaf etdirilməsində bu tədbirin böyük rolu olacağını vurğulayıblar.

**Sağlamlıq və Termal Turizmin İnkişafına Dəstək İctimai Birliyinin sədri Ruslan Quliyev deyib:** "Bildiyiniz kimi, Azərbaycan yaşıl enerjiyə böyük əhəmiyyət verir. Biz bunu Qarabağ və Şərqi Zəngəzurda müşahidə edə bilərik. Azərbaycan stabil ada, ölkə statusuna malikdir".

**"Turizm.az" şirkətinin rəhbəri Nəsimi Kərimov isə diqqətə çatdırıb ki, COP29-un keçiriləcəyi günlərdə qonaqlar regionlara da üz tutacaqlar.** Burada isə mühüm məsuliyyət həm də bələdçilərin üzərinə düşür. Hazırda 27 dildə fəaliyyət göstərən bələdçilərimiz var və onlar beynəxalq standartlara uyğun hazırlanır. Gərək bələdçilərimiz də sınağa hazır olsunlar.

Forumun panel müzakirələrində bu kimi bir çox suallara aydınlıq gətirilib. İştirakçıların müzakirələrlə bağlı fikirlərini təqdim edirik.

**Eldar Əlimuradov, Hotel Assosiasiyası İctimai Birliyinin İdarə Heyətinin sədri:** "Ölkəmizdə aparılan məqsədyönlü siyasətin, uğurlu diplomatik əlaqələrin nəticəsidir ki, bu il Azərbaycana xaricdən yeni hotel brendlərinin gələcəyi və nömrə fondunun daha da artacağı gözlənilir. 2022-ci ildə ölkədə hotel sayı 757, nömrələrin



sayı 27 min 312, çarpayı sayı isə 56 min 562 olub. Xarici brendlərin ölkəmizə gəlməsi bu sahədə peşəkarların yetişdirilməsində mühüm rol oynayır. Vergi Məcəlləsinə edilən son dəyişikliklərlə regionlarda fəaliyyət göstərən hotel və sanatoriyalara əmlak vergisi öhdəliyi üzrə güzəşt müəyyən edilib. Dəyişikliyə əsasən, regionlarda hotel və sanatoriya fəaliyyətində istifadə olunan daşınmaz əmlaka görə vergi 3 il müddətinə 75 faiz azaldılıb. İnanırıq ki, bu tədbirlər regionlarda turizmin inkişafına böyük təkan verəcək və cari ildən etibarən Azərbaycanda hotelçilik sənayesi sahəsində yeni bir dövrə qədəm qoyulacaq".

**Cəmilə Əliyeva, Turizm Agentliyi Assosiasiyasının Gəlmə Turizm Komissiyasının sədri:** "Azərbaycan



turizm industriyası 2020-ci ildən sonra geopolitik və digər problemlərin təsirindən artıq üzüağ çıxıb. COVID-19 pandemiyasından sonra ölkəmizə gələn turistlərin arealı, milli mənsubiyyəti dəyişib. Başqa sözlə, 2021-ci ildən sonra Azərbaycan turizmi yenidən dirçəlib. Biz sadəcə körfəz ölkələrdən deyil, Hindistan, Pakistan, Banqladeşdən də turist qəbul edirik. MDB ölkələrindən daha çox turist axını olub. Əsas məqsədimiz Azərbaycanı ilboyu, yeni 4 fəsil turizm destinasiyası etməkdir. İnvestisiyalar qoyulmalıdır ki, Xəzər dənizi əsl kurort yerinə çevrilsin. Azərbaycanın bir çox səfalı yerləri var və biz onları dünyaya tanıtmalıyıq".

***Ə.DOSTƏLİ***
***XQ***

Ramiz Əsgər – 70



# Türkoloq-publisistin yubiley məclisləri

**Azərbaycan Mətbuat Şurasında və AYB-nin Natəvan klubunda Əməkdar jurnalist, yazıçı, tanınmış türkoloq, publisist Ramiz Əskərin 70 illik yubileyinə həsr olunmuş toplantılar keçirilib.**

Bakı Dövlət Universitetinin Türkoloji Araşdırmalar Mərkəzinin rəhbəri Ramiz Əskər 94 kitabın, xeyli sayda tərcümənin müəllifidir, 80-ə yaxın beynəlxalq simpozium və konfransın iştirakçısı olub. O, 2010-cu ildə Əməkdar jurnalist fəxri adına, 2014-cü ildə "Şöhrət" ordeninə, 2022-ci ildə Özbəkistanın "Dostluq" ordeninə layiq görülüb.

Natəvan klubundakı tədbirdə də tanınmış alimlər, jurnalistlər, şair və yazıçılar iştirak edib, yubilyara xoş arzularını çatdırıblar. AYB-nin katibi, Əməkdar incəsənət xadimi, yazıçı Elçin Hüseynbəyli Ramiz Əskərin yaradıcılıq yolu barədə geniş söhbət açıb, onun tədqiqatçı kimi səmərəli fəaliyyətini diqqətə çatdırıb.



Mətbuat Şurasında yubiley tədbirini qurumun sədri Rəşad Məcid açaraq bildirib ki, Ramiz Əskər türk dünyasında tanınan söz adamı, elm xadimidir. Həm jurnalistikada, həm ədəbi yaradıcılıqda, həm də elmi müstəvidə geniş fəaliyyət diapazonu ilə seçilən, əsl ziyalı statusu daşıyan dəyərli simadır. MŞ sədri rəhbərlik etdiyi qurumun diplomunu yubilyara təqdim edib.

Toplantıda çıxış edənlərdən MŞ-nin Ahıl Jurnalistlər Məclisinin rəhbəri, "Xalq qəzeti"nin baş redaktor müavini Tahir Aydınoğlu, veteran jurnalistlər – Bəbir Hüseynov, Rəhim Hüseynzadə və Mədət Məmmədov, yazıçı-publisist Fazil Abbasov, "Kür" qəzetinin baş redaktoru Əminə Yusifqızı, Şuranın icraçı katibi Əvəz Rüstəmov və başqaları Ramiz Əskərin jurnalististik və elmi fəaliyyətinin vətənpərvərlik örnəyi olduğunu vurğulayıblar. Çıxış edənlər, həmçinin, R.Əskərə qarşıdakı müddətdə də yaradıcılıq şövqü və məhsuldarlığın davamını arzulayıblar.

AMEA Folklor İnstitutunun bölmə rəhbəri Əli Şamil tələbəlik illəri ilə bağlı xatirələrini dilə gətirərək bildirib ki, zəhmətkeş yazar və alim dostu o vaxtdan özünün istedad və qabiliyyətini göstərib. Filologiya elmləri doktoru, professor Firuzə Ağayeva, tarix üzrə fəlsəfə doktoru, AMEA Tarix İnstitutunun əməkdaşı Nazim Mustafa, professor Sayalı Sadıqova, şairlər Adil Cəmil, İslam Sadıq, Əməkdar jurnalistlər Tahir Aydınoğlu və Fazil Güney, türkiyəli türkoloq Seyfəddin Altaylı, qocaman jurnalist Əsgər Əsgərov yubilyarın şəxsi və yaradıcı keyfiyyətləri barədə danışıblar. Tanınmış rəssam Nəvai Mətin çəkdiyi portreti Ramiz Əskərə hədiyyə edib.

Hər iki mərasimin sonunda çıxış edən Ramiz Əskər 70 illik yubileyinə, keçdiyi ömür yoluna yüksək dəyər verdikləri üçün toplantı iştirakçılarına təşəkkürünü bildirib.

***Ə.ƏLİYEV***
***XQ***

Sərgi salonlarında

# Tarixləri aşıb gələn xalçalar

**Azərbaycan Milli Xalça Muzeyində "Zamana qalib gələn milli irsimiz" adlı sərgi açılıb. Salonda 2022–2023-cü illər ərzində muzeyin Xalça və dekorativ-tətbiqi sənət üzrə konservasiya, bərpa və profilaktik nəzarət şöbəsində qorunub saxlanmış 30-dək eksponat nümayiş etdirilir.**



Qədim xalçalar və digər eksponatlarla zəngin, elə xarici görünüşcə də yarıbükülü xalça təəssüratı yaradan bu müasir binada – Azərbaycan Xalça Muzeyində ilk diqqətimizi çəkən sərgi salonunun tən ortasındakı postamentin üzərinə sərilmiş "Xətai" xalçası oldu. XVII əsrin əvvəllərində Qarabağda toxunan 320x230 sm ölçülü möhtəşəm xalı əsl sənət əsəri və qürur mənbəyidir.



Muzeydə sərgilənən digər eksponatlar – ötən əsrlərə və müasir dövrə aid nəfis xalça məmulatları, zərif tikmələr, milli geyim və qiymətli zərgərlik məmulatları, bədii metal və saxsı qablara da laqeyd qalmaq olmur. "Şamaxı", "Qaraqoyunlu", "Çıraqlı", "Şirvan", "Quba", "Alpan", "Rirəbədil", "Alçagül-Çiçi", "Güləbdan buta" xalça və kilimləri, arxalıq, küləcə, tuman, ləməqabağı, sair geyim və bədii tikmə nümunələri, "Aynalı" kəməri, qolbaq, sinəbənd, dümçə, dingə tipli zinət, məcməyi, xeyrə, cam, çıraq kimi məişət əşyaları bu qəbildəndir. Əsərlər üzərində muzeyin peşəkar konservatorları, bərpaçı-rəssamları çalışaraq onlara 2-ci həyat bəxş ediblər.

**Sərginin açılışında muzeyin direktoru vəzifəsini icra edən Mira Məmmədxanova dedi:**

– Muzey fəaliyyətinin ən məsuliyyətli və önəmli sahəsi konservasiya və bərpa işidir. Bizim müəssisəmiz də ölkəmizdə xalça və digər dekorativ-tətbiqi sənət nümunələrinin konservasiya edilərək qorunması sahəsində nüfuzlu elmi mərkəzə çevrilib. Son zamanlar ardıcıl şəkildə təşkil etdiyimiz ustad dərslərinə Rusiya, Almaniya, Qətər, Qazaxıstan, Qırğızıstan və Özbəkistandan dəvət edilən əcnəbi peşəkarlar bu sənətin sirlərini yerli mütəxəssislərlə bölüşür, onların bacarıq səviyyəsinin daha da yüksəlməsi üçün təlimlər keçirlər.

O daha sonra bildirdi ki, mədəni irsimizə 2-ci nəfəs verilməsi, yəni lazımi işlərin həyata keçirilməsi ilə maddi və mədəni irsimizin gələcək nəsillərə layiqincə çatdırılması üçün Xalça muzeyində konservasiya işləri davamlı şəkildə aparılır. Son illər ərzində muzeyin müvafiq şöbəsində yüzlərlə eksponat konservasiya olunub. Bunların əksər hissəsi muzeyin, bir qismi onun Şuşa filialının ekspozisiyasında, digər eksponatlar isə vaxtaşırı müxtəlif sərgilərdə nümayiş etdirilir:

Öyrəndik ki, əsərlər üzərində uzun illər bu sahədə əmək sərf etmiş mütəxəssislərlə yanaşı, muzeyin daha gənc, lakin püxtələşmiş konservatorları, bərpaçı-rəssamları da çalışırlar. Bu da muzeyin konservasiya laboratoriyasının qısa müddət ərzində peşəkar səviyyədə inkişafını bir daha təsdiqləyir. Amma yaşlı mütəxəssislər təqaüdə getdiyindən, adıçəkilən istiqamətdə kadr qıtlığı var. Elə hesabat xarakterli belə tədbirlərdə bir məqsəd də konservasiya sahəsinə gənc kadrları cəlb etmək, bu istiqamətdə təhsil alan tələbələr üçün praktik məşğələlər keçirməkdir. Sərgi çərçivəsində əməkdaşlar tərəfindən tekstil konservasiyası üzrə ustad dərsi də təşkil olunacaq. Bu sahəyə maraq göstərən gənclər ustad dərsində iştiraka dəvətlidirlər.

Mira xanım çıxışının sonunda 2023-cü ildə konservasiya və bərpa işlərinin aparılması sahəsində səmərəli fəaliyyət göstərərək, eksponatlara yeni həyat verdiyinə görə muzeyin bərpaçı-rəssamı Təhsib Zəvərlini təşəkkürnamə ilə təltif etdi.

Daha sonra Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin prorektoru Sədaqət Əliyeva, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru Məmmədhüseyn Əliyev, Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin direktoru Zərifə Məlikova, Azərbaycan Milli İncəsənət Muzeyinin elmi-bərpa şöbəsinin müdiri, Əməkdar rəssam Natiq Səfərov və başqalarının çıxışlarını da maraqla dinlədik.

Elə ilk günündən çoxsaylı qonaqların diqqətini cəlb edən "Zamana qalib gələn milli irsimiz" sərgisi yanvarın 21-dək davam edəcək.

***Qurban CƏBRAYIL,***
***"Mədəniyyət" jurnalının redaktoru***

Azərbaycanı xaricdə tanıdanlar

# NASA-da bir soydaşımız var

**ABŞ-ın Milli Aeronavtika və Kosmik Tədqiqatlar Agentliyinin (NASA) 2024-cü ildə Aya göndərməyi planlaşdırdığı namizədlər sırasında bir azərbaycanlı da var. Türkiyənin Bilkənt Universitetinin professoru, fizika-riyaziyyat elmləri doktoru Əmirulla Məmmədov bu barədə redaksiyamıza məlumat verib.**

Azərbaycan əsilli ABŞ aerokosmik mühəndisi və ABŞ Hərbi Hava Qüvvələrinin zabiti olan Allen Mirqədirov 1979-cu ilin mayında Bakı şəhərində anadan olub. Əvvəlki adı Ələkbər olan Allen Mirqədirov Bakının Nizami rayonundakı Tofiq Abbasov küçəsi, 30 saylı evdə yaşayıb, birinci sinifdən altıncı sinfə qədər Qara Qarayev metro stansiyası yaxınlığında yerləşən 145 nömrəli tam orta məktəbdə təhsil alıb. 1991-ci ilin yayında ailəsi ilə ABŞ-a köçüb və ABŞ-ın Arizona, Havaya, Kolorado, Kaliforniya və Merilend ştatlarında yaşayıb.



Allen Amerika Hərbi Hava Akademiyasında (USAFA) kosmik texnika üzrə bakalavr dərəcəsi, San Dieqo Dövlət Universitetində aerokosmik texnika üzrə magistr dərəcəsi almış və təhsilini başa vurandan sonra 10 il ABŞ Hərbi Hava Qüvvələrində xidmət etmişdir.

NASA-dakı aerokosmik karyerası 2010-cu ildən başlayır. O, burada uçuşların təhlükəsizliyinə cavabdeh olan mərkəzdə aerokosmik mühəndis işinə təyin olunub. 2014-cü ildə NASA komissiyası tərəfindən Marsa uçuşa maksimum bənzəyən təcrübə üçün seçilib. Təcrübədə kompüterlərin texniki vəziyyətinə, onun işlək vəziyyətdə olmasına və uçuş marşrutuna görə cavabdehlik missiyasını yerinə yetirib. Eyni zamanda, uçuş trayektoriyasını optimallaşdıran kompüter proqramının işlənib hazırlanması ilə məşğul olub.

Mirqədirov şəxsi həyatında ilk sovet kosmonavtı Yuri Qaqarinin həyat yolunun ona böyük təsir etdiyini bildirir. Futbol, üzgüçülük və basketbol həvəskarıdır. Azərbaycan və Rusiya mətbəxini sevir. Sevdiyi ədəbi nümunələr sırasında Lev Tolstoy, Daniel Defo, Aleksandr Puşkinin əsərləri ilə yanaşı, Molla Nəsrəddinin lətifələrindən ibarət seçmələrin də xüsusi yer aldığını vurğulayır.

Qeyd edək ki, NASA ABŞ federal hökumətinin müstəqil agentliyidir. 1958-ci ildə Amerika dövlət xadimi və hərbi lider, ABŞ-ın 34-cü prezidenti D. Eyzenhauer tərəfindən yaradılıb və birbaşa ABŞ Prezidentinə hesabat verir.

***Namiq QƏDİMOĞLU***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# “Cəza bombardmanı” Yaxın Şərqə savaş şöləsi saçır

(əvvəli 1-ci səhifədə)

“...Birləşmiş Ştatların qısa müddətli cəza bombardmanı riski husilər üçün, yəqin ki, məqbul görünəcək. Amerikanın həm ölkədaxili, həm də beynəlxalq aləmdə İsraili dəstəklədiyi kimi qiymətləndiriləcək yeni geniş bir münaqişəyə qarışmaq istəmədiyini bilən husilər daha böyük cəsarətlə Amerika donanmasının konvoylarına birbaşa hücumlar edəcəklər”. Bugünki hadisələrdən aydın görünür ki, nəinki ABŞ, hətta İngiltərə də ona qoşularaq husilərə qarşı “cəza bombardmanı” riskinə getdilər və Yaxın Şərqdə yeni bir münaqişə ocağının alovlanmasına yol açdılar.



Hələ yanvarın 11-də “The Times” qəzetinin jurnalisti Stiven Suinford özünün X səhəfəsində xəbər verirdi ki, Birləşmiş Krallığın Baş naziri Rişi Sunak husilərin “Ənsar Allah” hərəkatının Qırmızı dənizdəki silahlı hücumlarına cavab tədbirləri görmək üçün kabinet üzvlərinin toplantısını keçirib. Gecə yarıya yaxın jurnalist məlumat vermişdi ki, ABŞ və Böyük Britaniya yaxın vaxtlarda Yəmənə zərbələr endirəcəklər. Husilər isə əminliklə bildirirdilər ki, əgər ABŞ və İngiltərə Yəmənə aviazərbələr endirsələr, cavab tədbirləri görəcəklər.

Hadisələr elə sürətlə cərəyan etdi ki, yanvarın 12-nə keçən gecə “Al Hadath” telekanalı ABŞ və Böyük Britaniyanın hərbi qüvvələrinin husilərin liman şəhəri olan, Qırmızı dəniz tərəfdən ölkənin qərbində yerləşən Hodey şəhərindəki mövqelərinə zərbələr endirməsi haqqında məlumat yaydı. “Reuters” isə ABŞ məmurlarına istinadən bu informasiyanı təsdiqlədi.

“Al Hadath” telekanalının xəbərlərinə görə Sana, Saada, Hodey, Taiz və Damar şəhərlərində hava zərbələrindən sonra güclü partlayışlar olub. Sana şəhərinin hava limanı daha güclü aviazərbələrə məruz qalıb. “NBC News” telekanalının məlumatlarına görə Amerika və İngiltərə hərbçiləri, əsasən, dənizdəki hərbi gəmilərdən “Tomahavk” tipli qanadlı raketlərlə zərbələr endirib, təyyarələrdən və sualtı gəmilərdən istifadə edilib.

“CNN” telekanalı bəyan edir ki, ABŞ və koalisiya qüvvələri Yəməndəki husilərin 16 obyektinə 60 zərbə endiriblər. Husilər isə 75-ə yaxın zərbənin olduğunu deyirlər. Bunlar, əsasən, komanda-dispetçer məntəqələri, sursat anbarları, silah istehsalı müəssisələri, raket buraxılış qurğuları, hava hücumundan müdafiə üçün nəzərdə tutulan radar sistemləri olub. 100-dən çox yüksək dəqiqlikli hərbi sursatdan istifadə edilib. ABŞ rəsmiləri bildiriblər ki, Yəməndə zərbə endiriləcək obyektləri elə seçiblər ki, mülki obyektlərə zərər verilməsin.

“Axios” portalı öz mənbəsinə istinadən bildirir ki, İsrail koalisiyanın “cəza bombardmanından” xəbərdar edilib və Təl-Əvivə husilərin cavab tədbirlərinə hazır olmaq tövsiyə olunub.

ABŞ Prezidenti Co Bayden bəyan edib ki, “husilərin Qırmızı dənizdə aramsız hücumlarına cavab olaraq” Yəmənə zərbələr endirilib. O açıqlayıb ki, hava zərbələri Avstraliya, Bəhreyn, Kanada və Niderlandın dəstəyi ilə həyata keçirilib. Koalisiyanın rəhbəri bu zərbələrin “müdafiə xarakteri daşıdığını bildirərək əlavə edib ki, “zərurət olarsa, düşünmədən öz xalqının və beynəlxalq ticarətin müdafiəsi naminə bundan sonra da tədbirlər görülməsilə bağlı qərarlar qəbul edəcək”.

Böyük Britaniyanın Baş naziri Rişi Sunak husiləri mülki gəmiləri atəşə tutmağı dayandırmağa və gərginliyi azaltmaq naminə addımlar atmağa dəvət edib. Vaşinqton isə öz hərbi qüvvələrinin və azad beynəlxalq ticarətin müdafiəsi naminə Yəmənə husilərin hücumlarına qarşı əlavə cavab tədbirləri görəcəyini istisna etmir.

Husilərin rəhbərliyinin nümayəndəsi Abdulla Bin Əmir “Əl-Cəzirə” telekanalına bəyan edib ki, əgər ABŞ və Böyük Britaniya hərbi əməliyyatların miqyasını genişləndirsələr, hərəkat hər iki ölkənin regiondakı hərbi bazalarına zərbələr endirəcək.

Yəmənin xarici işlər nazirinin müavini Hüseyn əl-Azi isə bəyan edib ki, London və Vaşinqton Yəmənə kütləvi zərbələr endirdiklərinin “yüksək bədəlini ödəmək üçün hazır olmalıdırlar”. Bununla belə, endirilən hava zərbələrinə baxmayaraq, “Ənsar Allah” hərəkatının silahlı dəstələri Qızmızı dənizdə İsraillə əlaqəsi olan mülki gəmilərə hücumları davam etdirirlər. Hərəkatın mətbuat xidmətinin nümayəndəsi Nəsrəddi Əmir qeyd edib ki, ölkənin hərbi qüvvələri bu akta cavab verəcəklər.

Koalisiyanın, həmişə olduğu kimi, beynəlxalq hüququ saya salmadan atdığı bu addım dünya ölkələri arasında birmənalı qarşılanmamışdır. Rusiya koalisiyanın bu “cəza bombardmanı” ilə bağlı yanvarın 12-də dərhal BMT Təhlükəsizlik Şurasının təcili iclasının keçirilməsini tələb edib. İran husilərə endirilən zərbəni “özbaşınalıq və Yəmənin suverenliyinin pozulması” kimi qiymətləndirib. Səudiyyə Ərəbistanı tərəfləri təmkinli olmağa və münaqişənin regiona sıçrayışının qarşısını almağa çağırıb.

“Hizbullah” husilərə zərbələri Yəmənə təcavüz aktı kimi qiymətləndirib. HƏMAS isə Böyük Britaniya və ABŞ-ın Yəmənə qarşı keçirdikləri əməliyyatı respublikanın suverliyinə qəsd hesab edir və bunun regionun təhlükəsizliyinə törədə biləcək fəsadlarına görə bütün məsuliyyətin Vaşinqton və Londonun üzərinə düşdüyünü bildirib. İraqın baş nazirinin siyasi müşaviri Fədi əş-Şamri hesab edir ki, başqaları təmkin və münaqişənin genişləndirilməməsinə çağırış etdikləri bir vaxtda, Qərb ölkələri Yaxın Şərqdə gərginliyi daha da gücləndirirlər.

Hadisələrə münasibət ABŞ və Londonun özündə də birmənalı olmamışdır. Belə ki, Amerika ordusunun ehtiyatda olan polkovnik-leytenantı Deniel Devis “Fox News”un efirində bəyan edib ki, “Prezident Co Bayden Yəmənə zərbələr endirmək qərarı ilə ölkəni müharibəyə çəkir”. Onun sözlərinə görə, belə hərəkətlərin “daha yüksək səviyyəyə” keçməsinə şanslar böyükdür. Devis əlavə edib ki, husilər deyirlər ki, əgər ABŞ onlara və ərazilərinə hücum edərsə, onlar regiondakı amerikalılara və Amerika maraqlarına hücum etməyə hazırdırlar. “Bizim planımız nədir? Bu, bizi müharibəyə çəkə biləcək potensial zərbədir”, – deyə polkovnik-leytenant bildirib.

ABŞ Nümayəndələr Palatasının üzvü demokrat Ro Khanna deyib: “Prezident Co Bayden Yəmənə zərbələr endirməmişdən və Vaşinqtonu Yaxın Şərqdəki növbəti münaqişəyə cəlb etməmişdən əvvəl Konqresi məlumatlandırmalıydı”.

ABŞ-ın Demokratlar Partiyasınadan olan konqresmenlər də Prezident Co Baydenin Konqresdən icazə almadan Yəməndə husilərə zərbə endirmək qərarını kəskin tənqid ediblər. Doğrudur, Bayden administrasiyası birgə zərbələrin “BMT Nizamnaməsində nəzərdə tutulmuş fərdi və kollektiv özünümüdafiə hüququna uyğun olaraq” həyata keçirdiyini əsaslandırıb. Lakin konqresmenlər Co Baydenin bu addımla hərbi əməliyyatlara Konqresin icazə verməsini tələb edən Konstitusiyanın 1-ci maddəsini pozduğunu iddia edirlər. Bayden Konqresə məlumat versə də, onun təsdiqinə ehtiyac görməyib.

Demokrat konqresmenlər Raşida Tlayb və Kori Buş Baydenin hərəkətlərini Konstitusiyaya zidd addım adlandıraraq, “sonsuz müharibə”ni pisləyiblər. Konqresmen Mark Pokan, həmçinin deyib: “ABŞ Konqresin icazəsi olmadan daha bir onillik davam edən münaqişəyə qarışmağa risk edə bilməz.”

Koalisiyanın Yəmənə endirilən “cəza zərbələri” haqqında xəbər çıxandan dərhal sonra dünyanın neft bazarı buna kəskin reaksiya verib. “Brent” markalı neftin qiyməti bir neçə saat ərzində 2,5 faiz qalxıb. Səbəb koalisiyanın endirdiyi zərbələrdən sonra gəmiçiliklə bağlı ciddi problemlərin yaranacağı ehtimalı olub. Digər tətəfdən “Bloomberg” ekspertləri bildirirlər ki, İran hakimiyyətinin dünya bazarına neft tədarükünün 20 faizini dayandırmaq təhlükəsi ola bilər. Agentliyin məlumatına görə, əgər İran Hörmüz boğazından yükdaşımaları məhdudlaşdırsa, bu, dünyada neft və təbii maye qaz tədarükünü 20 faiz azalda bilər. Nəticədə, Ukrayna münaqişəsindən fərqli olaraq yanacaq bazarı üçün son hadisələrin təsiri iki dəfə çox olacaq.

*İlqar RÜSTƏMOV*
*XQ*

İdman

**Ötən Paralimpiya Oyunlarını – “Tokio-2024”dü tarixi təticələrlə başa vuran paralimpiyaçılarımız bu il keçiriləcək “Paris-2024”də də yüksək nailiyyətlər qazanmaq əzmindədirlər.**

# Paris Paralimpiadasına 25 lisenziya gözlənilir

## *Bugünlərdə daha 3 vəsiqə qazanılıb*

Elə dördilliyin ən nüfuzlu idman yarışına bu ilin ilk lisenziya müjdəsi də paralimpiyaçılarımızdan gəlib. Bu dəfə parataekvondoçularımız vəsiqə sahibi olublar. Belə ki, Sabir Zeynalov (58 kq), İmaməddin Xəlilov (70 kq) və Əbülfəz Abuzərli (80 kq) reytinq cədvəlinə əsasən, mötəbər yarışda iştirak etmək hüququ qazanıblar. Fransa paytaxtında K-44 kateqoriyasında mübarizə aparacaq parataekvondoçuların hər üçünün qarşıdakı yarışların nəticəsindən asılı olmayaq, ilk “altılıq”da yer alacağı rəsmiləşib.

Azərbaycan Milli paralimpiya Komitəsinin idman şöbəsinin müdiri Şahvələd Əliyev ötən lisenziyalardan birinin sahibi – İmaməddin Xəlilovun Meksikada keçirilən dünya çempionatının qalibi olduğunu bildirdi. Qeyd etdi ki, parataekvondo 2016-cı ildə paralimpiya proqramına daxil edilib. İmaməddin bu növ üzrə ilk dünya çempionumuzdur. Bu ilin dekabrında taekvondo üzrə reytinq cədvəli bağlanıb. Cədvələ əsasən, lisenziya qazanan idmançılarımızdan 1-i 1-ci, digərləri isə 3-cü və 5-ci yerləri tutublar.

**İdman şöbəsinin müdiri indiyədək komandamızın Paris Paralimpiadasına 9 vəsiqə əldə etdiyini vurğuladı:**

–Bunlardan 4-ü atletika, 1-i üzgüçülük, daha biri isə güllə atıcılığı üzrə qazanılıb. Atletika üzrə lisenziyalar Parisdə dünya çempionatında əldə edilib. Həmin yarışda Lamiyə Vəliyeva ikiqat dünya çempionu adına layiq görülməklə yanaşı, mötəbər oyunlara lisenziyanı da özü üçün təmin etdi. Üzgüçümüz Ramal Saleh isə Böyük Britaniyanın Mançester şəhərində keçirilən dünya çempionatında uğurla çıxış edərək qızıl medal və lisenziya aldı. Güllə atıcısı Kamran Zeynalovun vəsiqəsi isə Perunun paytaxtı Limada keçirilən dünya çempionatının qızıl medalını qazandığı zaman rəsmiləşdi. Ümidlərimiz daha çox paracüdo, paraüzgüçülük, paraatletika üzrə komandalaradır.

**Qurum rəsmisi Paris Paralimpiadasına ümumilikdə, 25 lisenziya gözlədiklərini dedi:**

–Şübhəsiz, növbəti paralimpiadada təmsilçilərimizin daha çox sayda iştiraкına nail olmaq istəyirik. Bu istiqamətdə rəhbərlik ciddi səylər göstərir. Komandamızın hazırlığı üçün bütün vacib addımlar atılır. Bu ilin fevralında Almaniyanın Haydelberq şəhərində cüdo üzrə keçiriləcək qran-Pri yarışında 4 idmançı ilə təmsil olunmağı planlaşdırırıq. Həmçinin apreldə Antalya, mayda Tbilisidə qran-Pri yarışlarında iştirak edəcəyik. Paracüdoda reytinq xalları əsasında lisenziya əldə edilir. Cüdo komandasından 7, ümumilikdə isə yığmamızdan 25 lisenziya gözləyirik.




Qeyd edək ki, Azərbaycan Tokio paralimpiadasını 14 qızıl, 1 gümüş və 4 bürünc medalla başa vurub. Komanda medal sıralamasında 10-cu yeri tutub.

*Leyla QURBANOVA*
*XQ*


“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

Baş ofis üçün tələb olunan yuyucu vasitələrin satın alınması məqsədilə

Açıq Müsabiqə Elan Edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.
Müraciət üçün son müddət 2024-cü il yanvarın 22-si saat 17.00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu – (012) 404-37-00, daxili – 1162.
Ünvan – Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.


# Qızıldan qiymətli qızıl?

## *Mərkəzi banklar valyuta ehtiyatını artırırlar*



**2023-cü ildə qızıl gəlirlilik baxımından S&P 500 indeksini üstələyib. Oktyabr ayında Yaxın Şərqdə artan münaqişələr fonunda qızılın qiyməti avqustun 1-dən bəri ilk dəfə 2000 dollar/unsiyanı keçib.**

### Qızılın qiymətində yeni ssenari

2022-ci ilin geosiyasi hadisələrindən əvvəl qızılın qiyməti son 90 ildə, ilk növbədə, Qərb və Şərq bazarları arasında aparılan əməliyyatların həcmindən asılı idi. Qərb ölkələri tələb və təklifi müəyyənləşdirdi, Şərq ölkələri isə əməliyyatın tərəfləri kimi çıxış edirdilər. Ümumdünya Qızıl Şurasının (World Gold Council) məlumatına görə, ən böyük mərkəzlər, xüsusən də Böyük Britaniya və ya İsveçrə tərəfindən qızılın alışının həcmi çoxaldıqca qiymətlər də artırdı. Bunun əksi müşahidə edildikdə isə qıymətli metal ucuzlaşırdı. Nəticədə, qızıl qiymətin azalması və ya artması ilə sinxron olaraq Qərbdən Şərqə və geriyə doğru hərəkət edirdi.

Tarixən qiymətə təsir edən ikinci amil qızılın qiyməti ilə ABŞ dövlət istiqrazlarının real gəliri arasındakı əlaqədir. Bu barədə Azərbaycan Texniki Universitetinin professoru Gülhəməd Talıbov bildirdi ki, real gəlirlərin azalması ilə istiqrazların cəlbediciliyi də azalır. Bu, investorların qızıla keçməsini təmin edir. Trend dəyişdikdən və real gəlirlər artmağa başlayandan sonra investorlar yenidən istiqrazlara qayıdırlar.

Ancaq 2022-ci ilin sonundan bəri hər iki amil özünü doğrultmadı. Bloomberg agentliyinə görə, 2023-cü ilin avqustunda xəzinədarlıq gəlirləri son 15 ildə – 2008-ci böhran ilindən bəri ən yüksək səviyyəyə yüksəldi. Məsələn, ABŞ-da 10 illik istiqrazların gəlirliyi 4,33 faizə yüksəldi. Bu, qızılın qiymətinə əhəmiyyətli dərəcədə təsir göstərməli idi. Lakin onun qiyməti aşağı düşmədi, əksinə, 2022-ci ilin noyabrından 2023-cü ilin avqustuna qədər 16 faiz artaraq, unsiya üçün 1643 dollardan 1954 dollara yüksəldi.

Real gəlirliyin qızılın qiyməti ilə korrelyasiyası (iki və daha artıq təsadüfi dəyişənlər arasındakı statistik əlaqəni təsvir edir. Bu dəyişənlərdən birinin və ya bir neçəsinin dəyişməsi digərlərinin sistematik dəyişməsinə gətirib çıxarır) ilə yanaşı, qızılla əməliyyatların həcmi onun qiyməti arasındakı əlaqədə öz fəaliyyətini dayandırıb. 2022-ci ilin üçüncü rübündən etibarən həm Böyük Britaniya, həm də İsveçrə qızıl ixracatçıları, yəni, satıcılardır. Tarixi ənənəyə görə, bu da qızılın ucuzlaşmasına səbəb olmalı idi. Lakin gördüyümüz kimi, bu baş vermir. Beləliklə, Qərb qiyməti metalın qiymətinə əhəmiyyətli dərəcədə təsir etməyi dayandırıb.

### Geosiyasi münaqişələr kəskinləşir

2022-ci ildə baş verən geosiyasi hadisələrə görə, dollar aktivləri daha riskli olub. Buna görə də, Yaxın Şərq və Türkiyədəki mərkəzi banklar üçün əlavə risk olmadan neytral aktivə sahib olmağın əhəmiyyəti artıb. Beləliklə, 2022-ci ilin sonundan aktiv şəkildə qızıl-valyuta ehtiyatlarının formalaşdırılması və İsveçrədən gizli şəkildə qızıl alınması siyasətini həyata keçirməyə başladılar. Bu, ona görə edilir ki, ABŞ Rusiyanın rəsmi ehtiyatlarını dondurduqdan sonra açıq şəkildə qızıl ətrafında təlaş yaratmasın, əks halda qızılın qiyməti xeyli qalxacaq.

Ümumdünya Qızıl Şurasının (WGC) hesabatına görə, mərkəzi banklar 2023-cü ilin ilk doqquz ayında 800 ton qızıl alıb ki, bu da 2022-ci illə müqayisədə 14 faiz çoxdur. Bu, 2022-ci ilin fevral hadisələrindən sonra mərkəzi bankların WGC-yə verdiyi rəsmi hesabatdan daha yüksəkdir. Beləliklə, böyük əminliklə deyə bilərik ki, hazırda qızılın hərəkətində əsas rol oynayan mərkəzi bankların marağıdır. Bu proses 2023-cü ildə qızılın bahalaşmasına təsir edən əsas amil olub.

Fələstin–İsrail münaqişəsi başlayandan qızılın qiymətinə reaksiyasını gördük: keçən ilin oktyabr ayından bu yana qiymət 8 faizdən çox artıb. Belə nəticəyə gəlmək olar ki, geosiyasətdə istənilən kəskinləşmə qızıla müsbət təsir edəcək. G.Talıbovun sözlərinə görə, qızılın bahalaşmasına təsir edən faktorlar arasında geosiyasi qeyri-müəyyənlik, ehtimal olunan zəifləmiş ABŞ dollarını və aşağı faiz dərəcələri də unutmaq olmaz. Hazırda qızılın bir unsiyası 2 034,30 dollardır.

### Qızılın qiyməti enəcəkmi?

Bəli, uzun müddətdir inkişaf edən standart bazar korrelyasiyaları pozulur. Real gəlirlilik yüksələndə qızılın qiymətinin aşağı düşməsi baş vermir. Bunun əksi nəzərə çarpır. Əgər tendesiya davam edərsə, ölkələrin ehtiyatlarında qızıl 40 faiz təşkil edəcək. Bu, aktivə əlavə 3,2 trilyon dolların axması deməkdir. Beləliklə, kotirovkaların artımı 25 faiz (bahalaşma) olacaq ki, bu da troya unsiyası üçün 2500 dollarlıq rekord səviyyəyə uyğundur.

Bundan əlavə, biz iqtisadiyyatın gələcək perspektivini və ABŞ-da gözlənilən mümkün tənəzzülü unutmamalıyıq. Pandemiyadan bəri səhmlər və istiqrazlar arasındakı mənfi korrelyasiya da pozulub. Ehtimal etmək olar ki, 2024-cü ildə mərkəzi banklara birja investorları da qoşulsun. Onlar da bu aktivə maraq göstərə bilərlər.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 006 (30410) 13 yanvar 2024-cü il, şənbə

# Azərbaycan Kuboku: 1/4 finalın vaxtı

**Azərbaycan Kubokunda ¼ final mərhələsinin ilk oyunlarının təqvimi bəlli olub.**

Belə ki, yanvarın 30-da 15:00-də "Səbail" – "Zirə" ("ASCO Arena"), 19:00-da "Sabah" – "Qarabağ"la ("Bank Respublika Arena") qarşılaşacaq.

Bir gün sonra isə saat 16:00-da "Araz-Naxçıvan" – "Qəbələ" ("Dalğa Arena"), 19:00-da "Sumqayıt" – "Neftçi" ("Kapital Bank Arena") matçları start götürəcək.

# FİFA-nın yeni layihəsi Bakıda

**FIFA təqvimində olan rəsmi yoldaşlıq oyunlarının əvəzinə fərqli konfederasiyalardan A milli komandaların iştirakı ilə mini turnir təşkil olunacaq.**

"XQ" AFFA-nın rəsmi saytına istinadla xəbər verir ki, müxtəlif qitələrdə mini turnir formatında təşkil olunacaq və dörd komandanın qatılacağı ilk belə yarışlardan birinin mart ayında Bakıda keçirilməsi nəzərdə tutulub. Avropadan ölkəmizlə yanaşı Bolqarıstan, Afrikadan Tanzaniya, Asiya qitəsindən isə Monqolustan milli komandaları turnirdə mübarizə aparacaqlar. İlk dəfə təşkil olunacaq turnir barədə ətraflı məlumat (təqvim, püşk, stadionlar və s.) daha sonra saytımızda yerləşdiriləcək.

AFFA FIFA-nın yeni layihəsini dəstəkləyir və təşkilati işləri yüksək səviyyədə həyata keçirəcəyini əminliklə ifadə edir.

# Özbəkistan komandasının Bakı hazırlığı

**Özbəkistanın ağırlıqqaldırma üzrə yığması Azərbaycanda təlim-məşq toplanışındadır.**



Komandanın Bakıda hazırlığı 1 ay davam edəcək. Özbəklər ölkəmizə 14 ağırlıqqaldıranla gəliblər. Onların arasında "Rio-2016"-nın qalibi Ruslan Nurudinov və Tokio Olimpiadasının qızıl mükafatçısı Əkbər Curayev də var.

Qeyd edək ki, təlim-məşq toplanışı fevralda keçiriləcək Asiya çempionatına və yayda təşkil olunacaq Paris Yay Olimpiya Oyunlarına hazırlıq xarakteri daşıyır.

***Leyla SABİRQIZI***
***XQ***


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

## *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


Film

# "3391 kilometr"i aşan sevgi

***Beyza Alkoçun qələmə aldığı kitab əsasında çəkilən "3391 kilometr" adlı türk melodramının eksklüziv nümayişi dünəndən etibarən "CinemaPlus" kinoteatrlar şəbəkəsində başlanıb, Filmdə baş rolları yeni nəslin populyar aktyorları Derya Pınar Ak və Ahmet Haktan Zavlak ifa edirlər. Filmin yaradıcı prodüseri və rejissoru Deniz Enyüksekdir.***




Kitabın pərəstişkarı olan və əsərdəki sevgi hekayəsinin hər bir təfərrüatını, az qala, əzbər bilən fanatların "3391 kilometr" filminə sosial şəbəkə səhifələrində yazdıqları on minlərlə şərhdən və güclü təzyiqlərindən sonra çəkiliş zamanı ssenaridə olmayan, lakin kitabda əksini tapan bir çox təfərrüatlar əlavə edilib.

Film sosial şəbəkə vasitəsilə tanış olan 2 gəncin sevgi hekayəsindən bəhs edir. Bir-birindən bir neçə min kilometr məsafədə olsalar da, onlar arasında güclü cazibə yaranır. Film boyunca tamaşaçılar bir-birindən 3391 kilometr məsafədə yerləşən Fransa və Türkiyədə yaşayan gənclər arasındakı sevgi macərasının şahidinə çevrilirlər.

***XQ***

# ƏDƏBİ EHTİRAMLAR

Yazıçı-publisist, naşir Mustafa Çəmənlinin ayrı-ayrı xatirələrdən, kitablardan, məqalələrdən götürüb bir başlıq altında redaksiyaya təqdim etdiyi ədəbi parçalar görkəmli yazıçılarımızın bir-birinin sənətinə, şəxsiyyətinə nə qədər sayğı göstərdiklərinin, önəm və dəyər verdiklərinin, həssaslıqla yanaşdıqlarının göstəricisidir. Bu kiçik yazılardan həm də yazıçı və şairlərimizin maraq dairəsini, dünyagörüşünü, yaradıcılıq məziyyətlərini, insani keyfiyyətlərini öyrənə bilərik.



## Qasım bəy Zakir xatirələrdə

Qasım bəy Zakir Qarabağın bəyzadələrindəndir. Onun doğulduğu yer Xındırıstan kəndi, olduğu yer isə Şuşa qalasıdır. Mən onu görəndə, təqribən, 55 yaşı var idi. Xoşsifət, ucaboy və göygöz bir adam idi. Həmişə mənim Qurandan dərs dediyim məktəbin qarşısında skamyada əyləşirdi. Hər dəfə də əlində qələm və kağız şeir yazardı. Çox vaxt incə həcvlər deyərdi, türk və fars dillərində qəsidə, qəzəl, müxəmməs, dördlüklər yazıb hamıya verərdi. Zakir mərhumun təxəllüsü idi. Hazırda onun şeirləri pərakəndə halında məlumdur. Ancaq divanı yoxdur.

***Mir Möhsün NƏVVAB***

Qasım bəy Zakiri görənlərin, o cümlədən atam mərhum Əhməd bəy Köçərlinin rəvayətinə görə, o insan xoşsima, ağ bədənli, uca qamətli bir vücud olub. Göyçək, ağıllı və göy rəngə çalan gözləri var imiş. Simasından, duruş və davranışından nəciblik və rəşadət hiss olunarmış. Danışığı ağıllı və rəvan olduğundan çoxlarını özünə cəlb edərmiş. O, tündxasiyyət olduğu üçün tərpənişində həmişə tələskənlik özünü göstərərmiş.

***Firidun bəy KÖÇƏRLİ***

Molla Pənah Vaqifin getdiyi yolu təqib edən və xalqa yanaşmaq üçün Vaqifdən daha sürətli və cəsarətli addımlar atan şairlərimizin başçısı, bayraqdarı Qasım bəy Zakirdir. Ondan əvvəl elin və xalqın dərdlərindən, sözgəlişi qəbilindən olaraq, üstüörtülü surətdə bir və ya iki beyt yazan tək-tük şairlərimiz olmuşsa da, Zakir kimi cəsarətli, hər bir sinfin eybini, suçunu ap-açıq üzünə çırpıb xəyanət və cinayətini də tamamilə gözlərinin içinə söyləyən olmamışdır.

***Salman MÜMTAZ***

***Təqdim etdi: Z.HÜSEYNLİ***
***XQ***

# Çindən gələn qatar Bakıya yetişdi

## *Orta Dəhliz bu arada ən qısa yoldur*

**"Azərbaycan Dəmir Yolları" (ADY) QSC Orta Dəhlizin əhəmiyyətli dərəcədə inkişaf etdirilməsi, Çindən yüklərin Azərbaycan ərazisindən tranzit keçməklə Avropaya və əks istiqamətdə vaxtında və təhlükəsiz çatdırılması üçün dəhliz iştirakçıları ilə səmərəli əməkdaşlığı davam etdirir.**



ADY-nin Çin, Qazaxstan, Gürcüstan və Türkiyə dəmir yolları ilə apardığı danışıqlar nəticəsində şəffaf qiymət siyasətinin müəyyən olunması, yüklərin çatdırılma müddətinin optimallaşdırılması və yüklərin dəhliz üzrə naviqasiya sistemində izlənilməsi kimi məsələlərdə bir sıra irəliləyişlər əldə olunub. Belə ki, ötən ilin dekabr 30-da Çindən yola düşən blok qatarı yanvarın 11-də ölkəmizə çatıb. İlin ilk blok qatarı həm də cəmi 11 günə mənzilbaşına çatmaqla sözügedən dəhlizin əhəmiyyətini və rəqabətli olmasını bir daha göstərmiş olub.

Ümumilikdə, 57 vaqondan ibarət blok qatarı vasitəsilə Çindən ölkəmizə, əsasən, elektromobillər, tikinti materialları, müxtəlif ölçülü borular və digər məhsullar çatdırılıb.

Qeyd edək ki, əldə olunmuş razılaşmaya əsasən, Çin mənşəli yüklərin Orta Dəhlizlə daşınması və yük həcminin artırılması istiqamətində cari ilin yanvar ayında Azərbaycana 7 blok qatarla idxal məhsulları və 2 blok qatarla isə tranzit yüklərinin Avropaya yola salınması planlaşdırılır.

Çin mənşəli yüklərin Azərbaycana idxal olunması yerli sahibkarlığın inkişafına, o cümlədən tranzitt yüklərin Orta Dəhlizə təkrar qayıtması yeni yüklərin dəhlizə cəlb edilməsinə geniş imkanlar yaradacaq.

**Qabil YUSİFOĞLU**
**XQ**

*✓ **2019-cu il sentyabrın 19-da "Tibb Elminin İnkişafına Dəstək" ictimai birliyinə verilmiş qeyri-kommersiya hüquqi şəxsinin adında edilmiş dəyişikliyin dövlət qeydiyyatı haqqında şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır (qeydiyyat № 1107-Q20-2468).***

Hava




***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, yanvarın 13-də Bakıda və Abşeron yarımadasında gün ərzində arabir yağıntılı olacağı, gündüzdən bəzi yerlərdə sulu qara, qara keçəcəyi gözlənilir.***

Gün ərzində güclü şimal-qərb küləyi əsəcək. Havanın temperaturunun anomal gedişi gözlənilir. Gecə və gündüz 4°-yə yaxın isti, axşam saatlarında 0°-yə yaxın olacağı gözlənilir. Atmosfer təzyiqi 752 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək, nisbi rütubət 75-85 faiz olacaq. Azərbaycanın rayonlarında arabir yağıntılı olacağı, bəzi yerlərdə sulu qar, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 4-8° isti, dağlarda gecə 2-7° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacaq.

***Q. QASIMOV***
***XQ***

Maraq dünyamız

# Min kilometrlərlə uzanan qarışqa yuvaları

**İlk qarışqalar 130 milyon il əvvəl ortaya çıxıb. Onlar dinozavrlar qədər qədimdir. Lakin sonuncudan fərqli olaraq sağ qalıblar. Qarışqaların Yer üzündə 12 mindən çox növü yaşayır və ümumi sayı isə 10.000 trilyondan çoxdur.**



Ən kiçiyinin ölçüsü 2 millimetr, ən böyüyünün (kraliça qarışqası) ölçüsü 5 santimetrdir. Onların iki mədəsi var. Elm adamları bu maraqlı faktı trofallaksiya (qida mübadiləsi) prosesi ilə izah edirlər. Onların mədələrinin biri yeməyi həzm edir. İkinci mədədə toplanan qidadan isə koloniyanın digər üzvləri istifadə edirlər.

Qarışqalar nəhəng strukturlar qura bilirlər. Nəhəng qarışqa yuvalarının uzunluğu bəzən bir neçə min kilometrədək uzanır. Belə superkoloniyalarda 1 milyarddan çox qarışqa yaşayır. Onların qulaqları yoxdur, titrəmələri həssas pəncələri ilə hiss edirlər. Ağciyərləri də yoxdur, kiçik spiralların köməyi ilə nəfəs alırlar. Bundan başqa, hər ailənin özünəməxsus qoxusu var. Bu səbəbdən də koloniyaya aid olmayan yad qarışqa dərhal tanınır və uzaqlaşdırılır. İşçi qarışqalar 5, kraliça qarışqa isə 30 ilədək yaşayır. Arktika və Antarktidadan başqa, planetin bütün guşələrində qarışqaya rast gəlmək mümkündür.

***P.ƏFƏNDİ***
***XQ***

# ALLAH RƏHMƏT ELƏSİN

Asif Əsgərov Azərbaycan Respublikası Milli Məclisinin deputatı Elman Nəsirova anası

**ZƏRİFƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Agentliyin əməkdaşı Natiq İsayevə bacısı

**RƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3249
SİFARİŞ 50
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00